RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 251 (9706) 15 noyabr 2024-cü il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## Məhəmməd YUNUS: "Azərbaycan mühüm beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilib"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 14-də Banqladeş Xalq Respublikası Müvəqqəti Hökumətinin Baş müşaviri Məhəmməd Yunus ilə görüşüb.

→ 2



# Özünə güvənənlər

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının sessiyalarını keçirmək hər dövlətin bacaracağı iş deyil!

Bunu dünyada hamı bilir.

Belə sessiyalarda dünyanın ekoloji gələcəyi ilə bağlı məsələlər müzakirə olunur və müvafiq qərarlar çıxarılır.

Belə sessiyalarda irqindən, millətindən, dinindən, dünyanın harasında yaşamasından asılı olmayaraq hər bir insanın həyatı, taleyi, əmlakı ilə bağlı məsələlər müzakirə edilir.

Belə sessiyalarda bəşəriyyətin yaxın və uzaq gələcəyi ilə bağlı məsələlər gündəm olur.

Dünya Azərbaycana inanaraq, son dövrdə xüsusilə aktuallaşan iqlim dəyişmələri ilə bağlı 29-cu sessiyanın keçirilməsini ona etibar edib.

Azərbaycan bu etibarı əvvəllər uğurla keçirdiyi dünya miqyaslı tədbirlərə verdiyi töhfələrlə qazanmışdır.

Azərbaycan bu etibarı təkcə təcrübəsi ilə deyil, həm də mövcud imkanları, bazası, indiyədək ölkədə yaratdığı şəraitlə qazanmışdır.

Azərbaycan bu etibarı iqlim kataklizmlərinin qarşısının öncədən alınmasına verdiyi töhfələrlə, "yaşıl enerji" istehsalında son illər gördüyü və gələcəkdə görəcəyi işlərin miqyası ilə qazanmışdır.

Azərbaycan həm də belə möhtəşəm və genişmiqyaslı tədbiri yüksək səviyyədə keçirməyə qadir olduğuna inanaraq, özünə güvənərək öhdəsinə götürmüşdür.

Azərbaycanofob qüvvələr nə qədər əks-təbliğat kampaniyası aparsalar da, mənasızdır.

Azərbaycan bütün zəruri işləri vədəsində və yüksək keyfiyyətlə icra edib, COP29-u da uğurla başa vuracaqdır!

Bu həm də ölkəmizin növbəti beynəlxalq uğuru olacaqdır.

→ 6



## Avropa Şurasının Baş katibi: "COP29-un qısa müddət ərzində təşkil edilməsini yüksək qiymətləndirirəm"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 14-də Avropa Şurasının Baş katibi Alen Berse ilə görüşüb.

→ 2



## BMT Baş Assambleyasının prezidenti: "Azərbaycan BMT Nizamnaməsinə tam sadiqdir"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 14-də BMT Baş Assambleyasının 79-cu sessiyasının prezidenti Filemon Yanq ilə görüşüb.

→ 2



## Jeraldu ALKMİN: "COP29-da uğurlu təşkilatçılıq var"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 14-də Braziliya Federativ Respublikasının vitse-prezidenti Jeraldu Alkmin ilə görüşüb.

→ 2



## Monteneqro Prezidenti: "Azərbaycan çox böyük və nadir inkişaf yolu keçib"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 14-də Monteneqronun Prezidenti Yakov Milatoviç ilə görüşüb.

→ 2



## Abdulla al-ALİMİ: "Azərbaycanın bu uğuru bütün islam dünyasının uğurudur"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 14-də Yəmən Respublikasının vitse-prezidenti Abdullah al-Alimi Bawazeer ilə görüşüb.

→ 3



## Maldiv Azərbaycan vətəndaşları üçün vizasız rejim tətbiq edir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 14-də Maldiv Respublikasının Prezidenti Məhəmməd Muizzu ilə görüşüb.

→ 3



## Efiopiya Prezidenti: "İlham Əliyevin çıxışı dolğun və məzmunlu idi"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 14-də Efiopiya Federativ Demokratik Respublikasının Prezidenti Taye Atske Sellasiye ilə görüşüb.

→ 3



## Şimali Makedoniya Prezidenti: "COP29 yüksək səviyyədə təşkil edilib"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 14-də Şimali Makedoniya Respublikasının Prezidenti xanım Qordana Silyanovska-Davkova ilə görüşüb.

→ 2



## İslam İnkişaf Bankı işğaldan azad edilmiş ərazilərdəki layihələri maliyyələşdirən ilk beynəlxalq maliyyə təşkilatı oldu

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 14-də İslam İnkişaf Bankının prezidenti Məhəmməd əl-Casir ilə görüşüb.

→ 3



## Nepal Prezidenti: "Azərbaycanda şahidi olduğum inkişaf məndə dərin təəssürat yaradıb"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 14-də Nepalın Prezidenti Ramçandra Paudel ilə görüşüb.

→ 3

COP29 Baku Azerbaijan

# *Məhəmməd YUNUS:* "Azərbaycan mühüm beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilib"

*Əvvəli 1-ci səh.*



AZƏRTAC xəbər verir ki, Azərbaycana əvvəlki səfərini məmnunluqla xatırlayan Məhəmməd Yunus Nizami Gəncəvi Beynəlxalq Mərkəzi ilə əməkdaşlığını qeyd edərək, mərkəzin tədbirlərində yaxından iştirakını vurğuladı.

Azərbaycanın mühüm beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrildiyini deyən qonaq COP29-un qısa müddətdə uğurla təşkil edilməsi münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdı. O, Banqladeşdən olan tələbələrə Azərbaycanda təhsil imkanı, ölkəmizlə təcrübə mübadiləsinin aparılması, 4-cü sənaye inqilabı və rəqəmsal sahədə əməkdaşlıq məsələlərini qeyd etdi.

Məhəmməd Yunus Azərbaycan Prezidentini Banqladeşə rəsmi səfərə dəvət etdi. Prezident İlham Əliyev dəvətə görə minnətdarlığını bildirdi.

Dövlətimizin başçısı Azərbaycanın COP29-u qısa müddətdə təşkil etdiyini deyərək COP-a sədrliklə bağlı ölkəmizə qarşı aparılan qarayaxma kampaniyasına toxundu.

Söhbət zamanı ikitərəfli münasibətlərin inkişaf etdirilməsi, nümayəndə heyətlərinin qarşılıqlı səfərləri, siyasi məsləhətləşmələr mexanizminin gücləndirilməsi və beynəlxalq təşkilatlarda əməkdaşlıqla bağlı fikir mübadiləsi aparıldı, Azərbaycanın ASAN və DOST təcrübəsinin Banqladeşə ilə bölüşməsi məsələsi qeyd edildi.

# *Şimali Makedoniya Prezidenti:* "COP29 yüksək səviyyədə təşkil edilib"

*Əvvəli 1-ci səh.*



AZƏRTAC xəbər verir ki, Qordana Silyanovska-Davkova COP29-un yüksək səviyyədə təşkil edildiyini vurğulayaraq, tədbirin açılış mərasimində Azərbaycan mədəniyyəti ilə bağlı maraqlı təqdimatın olduğunu dedi. Mədəni diplomatiyanı dəstəklədiyini qeyd edən ali qonaq Azərbaycan mədəniyyəti ilə tanış olmaqdan məmnunluğunu bildirdi. O, Azərbaycanla əməkdaşlıq üçün geniş imkanların olduğunu vurğuladı.

Prezident İlham Əliyev Qordana Silyanovska-Davkovanın ölkəmizə səfərinin münasibətlərimizin genişləndirilməsinə, iqtisadi-ticari və mədəni əlaqələrin inkişaf etdirilməsi işinə təkan verəcəyinə ümidvarlığını bildirdi.

Dövlətimizin başçısı COP29-la əlaqədar Azərbaycana qarşı ədalətsiz təbliğatın aparıldığını vurğuladı. Şimali Makedoniyada sərmayələr imkanlarına toxunan Prezident İlham Əliyev Azərbaycanın Balkan ölkələri ilə əlaqələrinin inkişafına önəm verdiyini qeyd etdi.

Görüşdə sərmayələr, kənd təsərrüfatı, turizm, təhsil, mədəniyyət sahələrində əməkdaşlıq məsələləri ilə bağlı fikir mübadiləsi aparıldı. Prezident İlham Əliyev Şimali Makedoniya dövlətinin başçısını ölkəmizə, Qordana Silyanovska-Davkova isə öz növbəsində dövlətimizin başçısını Şimali Makedoniyaya rəsmi səfərə dəvət etdi. Dəvətlərə bağlı qarşılıqlı minnətdarlıq ifadə olundu.

# *BMT Baş Assambleyasının prezidenti:* "Azərbaycan BMT Nizamnaməsinə tam sadiqdir"

*Əvvəli 1-ci səh.*



AZƏRTAC xəbər verir ki, BMT-nin Azərbaycan ilə əlaqələrinin çox yüksək səviyyədə olduğunu deyən Filemon Yanq ölkəmizin BMT Nizamnaməsinə tam sadiq olduğunu vurğuladı.

COP29-un yüksək səviyyədə təşkil olunduğunu qeyd edən BMT Baş Assambleyasının 79-cu sessiyasının prezidenti bu tədbirin keçirilməsinin heç də asan olmadığını, hazırlıq prosesinin cəmi 11 ay çəkdiyini vurğuladı.

Filemon Yanq Azərbaycanın "yaşıl keçid" və "yaşıl enerji" konsepsiyalarını qeyd etdi.

Qonaq BMT Baş Assambleyasının gənc, peşəkar azərbaycanlı kadrları dəstəklədiyini dedi.

Prezident İlham Əliyev Azərbaycanın qısa müddət ərzində COP29-u yüksək səviyyədə təşkil etdiyini vurğulayaraq dedi ki, bu, ölkəmizin iqlim dəyişmələri ilə bağlı mübarizədə beynəlxalq səyləri dəstəkləmək əzmini göstərir.

COP prosesində artıq ilkin irəliləyişlərin olduğunu qeyd edən dövlətimizin başçısı COP29-da Paris Sazişinin 6-cı bəndi və beynəlxalq maliyyə qurumlarının yeni maliyyə hədəfləri ilə bağlı açıqlamaları müsbət hal kimi qiymətləndirdi. Azərbaycan Prezidenti ölkəmizə və COP-a qarşı geniş təbliğat kampaniyasının aparıldığını dedi.

Prezident İlham Əliyev Azərbaycanın çoxşaxəli diplomatik əlaqələrinin olduğunu qeyd edərək, ölkəmizin geniş coğrafi əhatəsi olan strateji tərəfdaşlıq münasibətləri qurduğunu bildirdi.

Dövlətimizin başçısı Qlobal Cənub ölkələri olaraq inkişaf etməkdə olan ölkələr arasında həmrəyliyin artırılmasının vacibliyini vurğuladı, dünyada mövcud olan geosiyasi arxitekturanın dəyişdirilməsinin və ədalətin təmin olunmasının zəruriliyini bildirdi.

# *Avropa Şurasının Baş katibi:* "COP29-un qısa müddət ərzində təşkil edilməsini yüksək qiymətləndirirəm"

*Əvvəli 1-ci səh.*



AZƏRTAC xəbər verir ki, COP29-a dəvətə görə dövlətimizin başçısına təşəkkürünü bildirən Avropa Şurasının Baş katibi bu tədbirin qısa müddət ərzində təşkil edilməsini yüksək qiymətləndirdi.

Prezident İlham Əliyev qeyd etdi ki, adətən, sədr ölkələrin COP-un təşkil edilməsi üçün iki ilə qədər vaxtları olduğu halda, Azərbaycanın cəmi 11 ayı var idi və təşkilatçılıq işləri bu müddət ərzində həyata keçirilib.

Dövlətimizin başçısı dedi ki, mahiyyəti üzrə COP29-da danışıqlar prosesində artıq irəliləyişlər var. Belə ki, 10 ildən artıq müzakirə olunan Paris Sazişinin altıncı bəndi üzrə ilkin nəticələr əldə olunub və bu istiqamətdə danışıqlar davam etdiriləcək. Həmçinin yeni maliyyə hədəfinin müəyyən olunması ilə əlaqədar beynəlxalq maliyyə strukturları tərəfindən verilən açıqlamalar da müsbət mesajlar kimi qiymətləndirilir. COP29-da yeni maliyyə hədəfinin müəyyən olunacağına ümidvarlığını ifadə edən Azərbaycan Prezidenti dedi ki, xüsusən inkişaf etməkdə olan ölkələrin bu məsələdə böyük gözləntiləri var.

Alen Berse vurğuladı ki, Avropa Şurası ətraf mühitlə bağlı cinayətlərə və iqlim dəyişmələri ilə əlaqədar məsələlərə böyük əhəmiyyət verir və bunlar təşkilatın gündəliyində yer alıb.

Qonaq Avropa Şurası çərçivəsində dövlətlərin müxtəlifliyi prinsipinin xüsusi əhəmiyyət daşıdığını dedi.

Dövlətimizin başçısı Azərbaycanın Avropa Şurası ilə əməkdaşlıq çərçivəsində ölkəmizin bu təsisatın 76 müxtəlif konvensiyasına qoşulduğunu qeyd etdi.

Görüşdə müxtəlif sahələrdə əməkdaşlıq məsələləri müzakirə olundu, Azərbaycanın təşəbbüsü ilə Avropa Şurası və İslam Əməkdaşlıq Təşkilatı arasında yaradılmış Bakı Prosesinin əhəmiyyəti vurğulandı.

# *Monteneqro Prezidenti:* "Azərbaycan çox böyük və nadir inkişaf yolu keçib"

*Əvvəli 1-ci səh.*



AZƏRTAC xəbər verir ki, Yakov Milatoviç COP29-un yüksək səviyyədə keçirilməsi münasibətilə dövlətimizin başçısını təbrik etdi. O vurğuladı ki, COP29-u uğurlu tədbir adlandırmaq olar. Monteneqro Prezidenti COP29-da 80-dən çox dövlət və hökumət başçısının iştirak etdiyini dedi və bildirdi ki, bu tədbir eyni zamanda Azərbaycanın nailiyyətlərini dünyada göstərir.

Yakov Milatoviç vurğuladı ki, Monteneqro Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini daim dəstəkləyib. Qonaq Azərbaycanın işğaldan azad edilmiş ərazilərində genişmiqyaslı bərpa və quruculuq işlərini qeyd edərək, ölkəmizin çox böyük və nadir inkişaf yolu keçdiyini məmnunluqla vurğuladı.

Azərbaycanın COP29-u qısa müddət ərzində təşkil etdiyini deyən Prezident İlham Əliyev bildirdi ki, ölkəmiz COP-a sədrliyə başladığı vaxtdan bizə qarşı feyknyus və qarayaxma kampaniyasına start verilib. Bu kampaniyada elə təqdim edilir ki, guya Azərbaycan ətraf mühiti çirkləndirir. Amma reallıq belə deyil. Dövlətimizin başçısı dedi ki, bəzi dairələr Azərbaycanın uğurlarını, inkişafını və müstəqil siyasətini həzm edə bilmirlər.

Prezident İlham Əliyev Azərbaycanın 2019-2023-cü illərdə Qoşulmama Hərəkatına uğurla sədrlik etdiyini də xatırlatdı.

İşğaldan azad olunmuş ərazilərimizdə genişmiqyaslı bərpa-quruculuq işlərinin aparıldığını deyən dövlətimizin başçısı qeyd etdi ki, ermənilər həmin ərazilərimizi minalayıblar, müharibə bitəndən indiyədək 300-dək Azərbaycan vətəndaşı minaların partlaması səbəbindən ya həlak olub, ya da ağır yaralanıb. İşğal dövründə Ermənistan şəhərlərimizi və kəndlərimizi dağıdıb.

Görüşdə ikitərəfli münasibətlərin inkişafından məmnunluq ifadə olundu, turizm, sərmayələr sahələrində əməkdaşlıq imkanları ilə bağlı fikir mübadiləsi aparıldı.

Monteneqro Prezidenti dövlətimizin başçısını ölkəsinə, Azərbaycan Prezidenti isə Monteneqro dövlətinin başçısını ölkəmizə rəsmi səfərə dəvət etdi. Dəvətlərə bağlı qarşılıqlı minnətdarlıq ifadə olundu.

# *Jeraldu ALKMİN:* "COP29-da uğurlu təşkilatçılıq var"

*Əvvəli 1-ci səh.*



AZƏRTAC xəbər verir ki, Jeraldu Alkmin Braziliya Prezidentinin salamlarını dövlətimizin başçısına çatdırdı, Luiz İnasio Lula da Silvanın səhhəti ilə əlaqədar COP29-da iştirak edə bilmədiyini qeyd etdi.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Braziliya Prezidentinə çatdırmağı xahiş etdi, Luiz İnasio Lula da Silvanın tezliklə sağalmasını arzuladı. Prezident İlham Əliyev Braziliya dövlətinin başçısını ölkəmizə rəsmi səfərə dəvət etdi.

Bakının gözəlliyinin onlarda xoş təəssürat hissi yaratdığını deyən qonaq COP29-un yüksək səviyyədə təşkil edilməsi və uğurlu təşkilatçılıq münasibətilə təbriklərini çatdırdı.

Jeraldu Alkmin Azərbaycanın və Braziliyanın "Troyka" çərçivəsində COP və iqlim dəyişmələri ilə bağlı əməkdaşlığına toxundu. O, ölkəmizlə ikitərəfli münasibətlərin, həmçinin iqtisadi-ticari, kənd təsərrüfatı, sərmayələr sahələrində əlaqələrin inkişafına böyük əhəmiyyət verdiklərini dedi. Söhbət zamanı iqtisadi-ticari məsələlər üzrə işçi qrupun yaradılması, sərmayələr, birgə istehsal müəssisələri, turizm, birbaşa hava əlaqələrinin qurulması ilə bağlı fikir mübadiləsi aparıldı.

COP29 Baku Azerbaijan

# Efiopiya Prezidenti: "İlham Əliyevin çıxışı dolğun və məzmunlu idi"

*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, Taye Atske Sellasiye Efiopiya Federativ Demokratik Respublikasının Baş naziri Abiy Əhməd Əlinin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Efiopiyanın Baş nazirinə çatdırmağı xahiş etdi.

COP29-a dəvətə görə dövlətimizin başçısına minnətdarlığını bildirən Taye Atske Sellasiye bu tədbirin mükəmməl səviyyədə təşkil edildiyini, uğurla keçirildiyini və burada iştirak səviyyəsinin çox yüksək olduğunu dedi. Qonaq dövlətimizin başçısının çıxışının dolğun və məzmunlu olduğunu vurğulayaraq, buna görə təşəkkürünü bildirdi.



Efiopiya Prezidenti ölkəmizə səfəri çərçivəsində Azərbaycanın "ASAN xidmət" təcrübəsi ilə tanışlığın onda çox böyük təəssüratlar yaratdığını və bu təcrübənin ölkəsində tətbiqi məsələsinə baxıldığını dedi. O, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə Efiopiya Federativ Demokratik Respublikasının Dövlət Xidməti Komissiyası arasında anlaşma memorandumunun imzalandığını qeyd etdi. Efiopiya Prezidenti azad ticarət zonaları sahəsində Azərbaycanın təcrübəsinin ölkəsi üçün maraqlı olduğunu vurğuladı, turizm, kənd təsərrüfatı, investisiyalar və digər sahələrdə əməkdaşlıq imkanlarına toxundu, böyük perspektivlərin olduğunu dedi.

İnkişaf etməkdə olan dövlətlər arasında həmrəyliyin gücləndirilməsinin önəmini vurğulayan Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan Afrika ölkələri ilə əlaqələrin inkişafına böyük əhəmiyyət verir.

"ASAN xidmət" təcrübəsinə toxunan dövlətimizin başçısı bu sahədə Azərbaycanın hər cür dəstək göstərməyə hazır olduğunu dedi.

Söhbət zamanı ölkələrimiz arasında beynəlxalq təşkilatlarda, bərpaolunan enerji və digər sahələrdə əməkdaşlıq məsələlərinə toxunuldu, iqtisadi məsələlər üzrə hökumətlərarası komissiyanın yaradılmasının vacibliyi vurğulandı.

Efiopiya Prezidenti dövlətimizin başçısını ölkəsinə rəsmi səfərə dəvət etdi.

Prezident İlham Əliyev dəvətə görə minnətdarlığını bildirərək, Efiopiya Prezidentini və Baş nazirini Azərbaycana rəsmi səfərə dəvət etdi.

# Abdulla al-ALİMİ: "Azərbaycanın bu uğuru bütün islam dünyasının uğurudur"

*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, Yəmən Respublikasının vitse-prezidenti Abdullah al-Alimi Bawazeer COP29-un mükəmməl səviyyədə keçirilməsinə və yüksək təşkilatçılığa görə təbriklərini çatdırdı. Yəmənin vitse-prezidenti vurğuladı ki, Azərbaycanın bu uğuru bütün islam dünyasının uğurudur. O bu günlərdə dünyanın hər yerindən xeyli sayda nümayəndələrin, dövlət və hökumət başçılarının Azərbaycana gəlməsini mühüm hadisə kimi qiymətləndirdi, COP29-da böyük nəticələrin əldə olunduğunu vurğuladı.

Qonaq Bakı şəhərinin gözəlliyinin onları valeh etdiyini dedi.



Abdullah al-Alimi Bawazeer torpaqlarımızın işğaldan azad edilməsi, Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpa olunması münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdı. O, yəmənli tələbələrin hələ sovetlər dövründə Azərbaycanda təhsil aldıqlarını xatırladaraq, bu ənənələrin davam etdirilməsini xahiş etdi.

Dövlətimizin başçısı xoş sözlərə və təbriklərə görə təşəkkürünü bildirdi, COP29-un Azərbaycanda uğurla keçirilməsinin bizim müştərək uğurumuz olduğunu dedi.

Prezident İlham Əliyev işğal dövründə Ermənistanın Azərbaycan ərazilərində maddi mədəniyyət irsimizi, o cümlədən islam dininə aid olan müqəddəs ibadətgahlarımızı, ocaqlarımızı darmadağın etdiyini, məscidlərdə donuz saxlayaraq təhqirlərə məruz qoyduğunu bildirdi. Dövlətimizin başçısı vurğuladı ki, Azərbaycan öz ərazilərini işğaldan azad edib və Ermənistanın bu işğalına son qoyub.

Görüşdə islam həmrəyliyinin vacibliyinə toxunuldu, ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığından məmnunluq ifadə olundu, Azərbaycan ilə Yəmənin daim bir-birinin yanında olduqları vurğulandı, müxtəlif sahələrdə əməkdaşlığın inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

# Nepal Prezidenti: "Azərbaycanda şahidi olduğum inkişaf məndə dərin təəssürat yaradıb"

*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, Nepal Prezidenti qonaqpərvərliyə görə minnətdarlığını bildirdi.

COP29-un yüksək səviyyədə keçirildiyini deyən Ramçandra Paudel ölkəmizə səfəri zamanı Azərbaycan mədəniyyəti ilə tanış olduğunu məmnunluqla qeyd etdi. O, ümidvar olduğunu bildirdi ki, COP29 Nepal kimi inkişaf etməkdə olan ölkələrin maraqlarını nəzərə alacaqdır.



Azərbaycan ilə Nepal arasında dostluq münasibətlərinin mövcud olduğunu vurğulayan ali qonaq beynəlxalq təşkilatlarda, həmçinin iqlim dəyişmələri və davamlı inkişaf məsələlərində əməkdaşlığımıza toxundu.

Nepal Prezidenti Azərbaycanda şahidi olduğu inkişafın onda dərin təəssürat hissi yaratdığını dedi. O, ölkəsinin uzun keçid prosesindən sonra davamlı inkişaf mərhələsinə qədəm qoyduğunu bildirərək xarici sərmayədarları dəvət etmək istədiklərini vurğuladı, turizm və hidroenergetika sahələrinin önəminə toxundu.

Ramçandra Paudel bildirdi ki, Nepalın karbon emissiyası az olsa da, onlar iqlim dəyişmələrinin mənfi fəsadları ilə üzləşirlər.

Azərbaycan və Nepal prezidentlərinin ilk görüşünün tarixi əhəmiyyətini qeyd edən dövlətimizin başçısı bu görüşün əlaqələrimizin inkişafına təkan verəcəyinə ümidvarlığını bildirdi.

Azərbaycan Prezidenti iqtisadi-ticari əlaqələrin inkişaf etdirilməsinin önəminə toxundu.

Söhbət zamanı BMT və bir sıra digər beynəlxalq təşkilatlarda əməkdaşlıq və qarşılıqlı dəstək, Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələr, həmçinin Azərbaycanın COP sədrliyi dövründə iqlim dəyişikliyi mövzusunda işbirliyi ilə bağlı fikir mübadiləsi aparıldı.

Nepal Prezidenti dövlətimizin başçısını ölkəsinə rəsmi səfərə dəvət etdi.

Prezident İlham Əliyev dəvətə görə minnətdarlığını bildirdi.

Nepal Prezidenti dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim etdi.

# Maldiv Azərbaycan vətəndaşları üçün vizasız rejim tətbiq edir

*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, Məhəmməd Muizzu COP29-un yüksək səviyyədə təşkili ilə bağlı Prezident İlham Əliyevə təşəkkürünü ifadə etdi.

Dövlətimizin başçısı bu tədbirdə iştirakla bağlı dəvəti qəbul etdiyinə görə Maldiv Prezidentinə minnətdarlığını bildirdi.

Prezident İlham Əliyev Maldivin də ada dövləti olaraq iqlim dəyişmələrinin təsirlərinə məruz qaldığını dedi.

Azərbaycan Prezidenti Maldiv Prezidenti Məhəmməd Muizzunun ölkəmizə səfəri çərçivəsində aparılan müzakirələrin ikitərəfli əlaqələrimizin inkişafına təkan verəcəyinə ümidvarlığını bildirdi.



Qonaq da öz növbəsində ölkəsinin iqlim dəyişmələrinə məruz qaldığını təsdiqlədi. O bu yaxınlarda Maldiv-Bakı birbaşa uçuşlarının açılmasının ölkələrimiz arasında turizm və insanlararası əlaqələrin inkişafına təkan verəcəyinə əminliyini bildirdi. Məhəmməd Muizzu Maldivin Azərbaycan vətəndaşları üçün vizasız rejim tətbiq etdiyini deyərək, bunun qarşılıqlı xarakter alacağına ümidvarlığını ifadə etdi.

Söhbət zamanı ölkələrimiz arasında turizm, sərmayələr və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlığa dair fikir mübadiləsi aparıldı.

# İslam İnkişaf Bankı işğaldan azad edilmiş ərazilərdəki layihələri maliyyələşdirən ilk beynəlxalq maliyyə təşkilatı oldu

*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycan Prezidenti İlham Əliyevin və İslam İnkişaf Bankının prezidenti Məhəmməd əl-Casirin iştirakı ilə "Azərbaycan Respublikası və İslam İnkişaf Bankı arasında "Qız Qalası su anbarından magistral suvarma kanalının tikintisi" layihəsi üzrə agentlik müqaviləsi, "Azərbaycan Respublikası Hökuməti və İslam İnkişaf Bankı arasında "Əks Əlaqə Texniki Yardım Qrant Sazişi Qız Qalası su anbarından magistral suvarma kanalının tikintisi layihəsi" və "Azərbaycan Respublikası və İslam İnkişaf Bankı arasında "Qız Qalası su anbarından magistral suvarma kanalının tikintisi" layihəsi üzrə Çərçivə Sazişi imzalanıb.

Görüşdə Prezident İlham Əliyev ölkəmizlə İslam İnkişaf Bankı arasında perspektiv inkişaf istiqamətləri və fəaliyyətləri ilə bağlı əməkdaşlığın genişləndirilməsinin önəminə toxundu, gələcəkdə əlaqələrin daha da dərinləşəcəyinə ümidvarlığını ifadə etdi.






Dövlətimizin başçısı vurğuladı ki, imzalanmış bu sənədlər işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən layihənin beynəlxalq maliyyə təşkilatları tərəfindən maliyyələşdirilməsi baxımından ilk sənəddir.

COP29-un qısa müddətdə yüksək səviyyədə təşkil edildiyini deyən Məhəmməd əl-Casir işğaldan azad olunmuş ərazilərimizə 2023-cü ildə səfərini xatırladaraq bu günədək orada icra olunan irimiqyaslı işlərin qısa zamanda keyfiyyətlə həyata keçirildiyini qeyd etdi. O, İslam İnkişaf Bankının dövlət və özəl sektor layihələrində fəaliyyətinin genişləndirilməsinə və bu layihələrin dəstəklənməsinə hazır olduqlarını dedi.

COP29 Baku Azerbaijan

# Baş nazir Əli Əsədov OPEC Beynəlxalq İnkişaf Fondunun prezidenti ilə görüşüb

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov noyabrın 14-də Neft İxrac edən Ölkələr Təşkilatının (OPEC) Beynəlxalq İnkişaf Fondunun prezidenti Abdülhəmid Əlxəlifə ilə görüşüb.



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-un Bakıda yüksək səviyyədə təşkil olunduğu vurğulanıb.

Neft ixrac edən ölkə olmasına baxmayaraq, Azərbaycanın hələ COP29 sədrliyindən çox əvvəl "yaşıl keçid"i prioritet sahə elan etdiyi, iqlim dəyişikliyinə qarşı mübarizəyə mühüm töhfələr verdiyi diqqətə çatdırılıb. Söhbət zamanı ənənəvi enerji sahəsində ətraf mühitə zərərin azaldılması ilə bağlı məsələlər müzakirə olunub.

# Ədliyyə naziri BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin icraçı direktoru ilə görüşüb

Ədliyyə naziri Fərid Əhmədov BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin icraçı direktoru və Vyana ofisinin rəhbəri Qada Valinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycanın BMT çərçivəsində siyasi dialoq və praktiki əməkdaşlıqda fəal iştirak etdiyi, COP29 tədbirinin ölkəmizdə təşkilinin bu əməkdaşlığın bariz nümunəsi olduğu vurğulanıb. Həmçinin Azərbaycan ilə BMT-nin Narkotiklər və Cinayətkarlıq İdarəsi arasında çoxşaxəli əməkdaşlıq əlaqələrinin həyata keçirildiyi qeyd edilib. Ədliyyə Nazirliyinin BMT-nin Narkotiklər və Cinayətkarlıq İdarəsi, eləcə də qurumun Mərkəzi Asiya və Cənubi Qafqaz Əlaqələndirici Şəbəkəsi ilə sıx münasibətlərinin olduğu, nazirliyin BMT-nin Cinayətkarlığın qarşısının alınması və cinayət ədliyyəsi üzrə Komissiyasının tədbirlərində təmsil olunduğu vurğulanıb.

Eyni zamanda BMT-nin Narkotiklər və Cinayətkarlıq İdarəsi ilə ölkəmizin müvafiq qurumları arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün 2024-2027-ci illər üzrə Praktiki Tədbirlər Planı layihəsində Ədliyyə Nazirliyi ilə əməkdaşlığı əhatə edən bəndlərin də olduğu xüsusi vurğulanıb.

Qada Vali ölkəmizin sədrliyi ilə keçirilən COP29-un yüksək səviyyədə təşkil olunduğunu vurğulayıb, müvafiq sahələrdə tərəflər arasında əməkdaşlığın daha da inkişaf edəcəyinə əminliyini bildirib.

# Baş prokuror bir sıra görüşlər keçirib

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) iştirak etmək məqsədilə ölkəmizə səfərə gələn beynəlxalq təşkilat və xarici dövlətlərin nümayəndə heyətləri ilə silsilə görüşlər keçirilir.



Baş Prokurorluqdan verilən xəbərə görə, noyabrın 14-də baş prokuror Kamran Əliyev Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) baş prokurorunun müavini Sultan al-Juwaiedin, BMT-nin Baş katibinin Qanunun Aliliyi və Təhlükəsizlik Təsisatlari üzrə köməkçisi Aleksandr Zuyevin , Moldova Respublikasının baş prokuroru İon Muntyanunun rəhbərlik etdikləri nümayəndə heyətləri ilə görüşüb.

COP29 çərçivəsində Azərbaycanın Baş Prokurorluğu, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə idarəsi (BMTNCİ) tərəfindən təşkil olunan, həmçinin Birləşmiş Ərəb Əmirliklərinin Daxili İşlər Nazirliyi tərəfindən həmsədrlik edilən noyabrın 15-də keçiriləcək "İqlim dəyişikliyi ilə mübarizədə hüquq-mühafizə orqanlarının səfərbər olunması" adlı yüksək səviyyəli sessiyası barədə danışan tərəflər birgə əməkdaşlığın əhəmiyyəti, ikitərəfli münasibətlərin möhkəmləndirilməsi barədə danışıb.

Azərbaycanın COP29 kimi mötəbər beynəlxalq tədbirə hazırlığının ən yüksək səviyyədə olduğunu qeyd edən qonaq COP29-un dünya üçün böyük töhfələr verə biləcəyindən əminliyini vurğulayıb.

Nümayəndə heyətlərinin ölkəmizə işgüzar səfəri davam edir.

# Baş prokuror Kamran Əliyev İqtisadi Əməkdaşlıq Təşkilatının baş katibi Əsəd Məcid Xan ilə görüşüb

"BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) iştirak etmək məqsədilə ölkəmizə səfərə gələn beynəlxalq təşkilat və xarici dövlətlərin nümayəndə heyətləri ilə silsilə görüşlər keçirilir.



Baş Prokurorluqdan verilən xəbərə görə, noyabrın 14-də baş prokuror Kamran Əliyev İqtisadi Əməkdaşlıq Təşkilatının baş katibi - Əsəd Məcid Xanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Baş prokuror Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bilavasitə rəhbərliyi altında COP29-un ən yüksək səviyyədə təşkil olunduğunu bildirib.

COP29 çərçivəsində Azərbaycanın Baş Prokurorluğu, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə idarəsi (BMTNCİ) tərəfindən təşkil olunan, həmçinin Birləşmiş Ərəb Əmirliklərinin Daxili İşlər Nazirliyi tərəfindən həmsədrlik edilən noyabrın 15-də keçiriləcək "İqlim dəyişikliyi ilə mübarizədə hüquq-mühafizə orqanlarının səfərbər olunması" adlı yüksəksəviyyəli sessiyası barədə danışan tərəflər mütəşəkkil cinayətkarlığın, o cümlədən qanunsuz fəaliyyətlərin iqlim dəyişikliyinə səbəb olması və ətraf mühitə dağıdıcı təsirləri barədə danışıb.

İqtisadi Əməkdaşlıq Təşkilatının baş katibi səmimi qəbula və qonaqpərvərliyə görə təşəkkürünü bildirib, ölkəmizdə keçirilən ən böyük iqlim konfransı COP29-un Azərbaycanın sədrliyi ilə uğurla davam etdiyini vurğulayıb.

İqtisadi Əməkdaşlıq Təşkilatının iqlim fəaliyyəti və davamlı inkişafa böyük önəm verdiyini qeyd edən Əsəd Məcid Xan Azərbaycanın regional və qlobal miqyasda iqlim problemlərinin həllində mühüm rola malik olduğunu bildirərək birgə əməkdaşlığın əhəmiyyətindən bəhs edib.

Nümayəndə heyətinin ölkəmizə işgüzar səfəri davam edir.

# Azərbaycanın kiçik ada dövlətlərinə dəstəyi yüksək qiymətləndirilir

Milli Məclisin Sədri Sahibə Qafarova Millətlər Birliyinin Baş katibi Patrisiya Skotlend ilə görüşüb. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, görüşdə Azərbaycan və Birlik arasında əməkdaşlıq məsələləri, paytaxtımızda keçirilən COP29 və ölkəmizin COP29-a sədrliyi çərçivəsində irəli sürdüyü qlobal təşəbbüslər barədə fikir mübadiləsi aparılıb.



Spiker Sahibə Qafarova Patrisiya Skotlendlə bundan öncəki görüşlərini məmnunluqla xatırlayaraq, Baş katibin bu vəzifədə ölkəmizə cari ilin may ayında reallaşan ilk səfərinin Azərbaycan və Birlik ölkələri arasında institusional əməkdaşlıq qurmağa imkan verdiyini söyləyib. Qeyd olunub ki, bu əməkdaşlığın praktiki xüsusiyyətlərinə Birlik vasitəsilə inkişaf etməkdə olan kiçik ada dövlətlərinə siyasi və maliyyə dəstəyinin göstərilməsi daxildir.

Söhbət zamanı Azərbaycanın kiçik ada dövlətlərinə göstərdiyi humanitar, texniki yardımlar, həmçinin ölkəmizin Qoşulmama Hərəkatına 4 illik sədrliyi dövründə irəli sürdüyü təşəbbüslər haqqında da məlumat verilib.

Görüşdə vurğulanıb ki, əməkdaşlığın ən mühüm istiqamətlərindən biri iqlim dəyişikliyi məsələsidir. Bildirilib ki, kiçik ada dövlətləri iqlim dəyişikliyinə ən həssas olan ölkələrdir və onlar iqlim dəyişikliklərinin ən pis təsirləri və hətta ekzistensial təhlükə ilə üzləşirlər. Xatırlanıb ki, COP29 çərçivəsində İqlim Dəyişikliyi üzrə İnkişaf etməkdə olan Kiçik Adalar Dövlətlərinin Liderlər Zirvəsi keçirilib. Prezident İlham Əliyev sammitdə iştirak edib və əhatəli nitq söyləyərək, iqlim dəyişikliyinin kiçik adalardakı inkişaf etməkdə olan dövlətlərə təsir edən hazırkı çağırışlarını, həmçinin Azərbaycanın bu dövlətlərə verdiyi dəstək istiqamətində praktiki addımlarını qeyd edib. Sammit bu dövlətlərin səslərinin daha da ucaldılmasına və eşidilməsinə şərait yaradır.

Söhbət zamanı Sahibə Qafarova qonağa noyabrın 16-17-də Milli Məclisin Parlamentlərarası İttifaq ilə birlikdə COP29 çərçivəsində təşkil edəcəyi Parlament Görüşü haqqında da məlumat verib. Qeyd olunub ki, iclasda müxtəlif ölkələrin parlamentlərindən və beynəlxalq təşkilatlardan 330-dək nümayəndə iştirak edəcək.

Millətlər Birliyinin Baş katibi Patrisiya Skotlend COP29 sədrliyini təhvil alması münasibətilə ölkəmizə təbriklərini çatdırıb, sədrlik dövründə fəaliyyətlərində uğurlar arzu edib. O, Azərbaycanın kiçik ada dövlətlərinə göstərdiyi dəstəyi yüksək qiymətləndirib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Xarici işlər naziri BMT-nin İnkişaf Proqramının regional bürosunun direktoru ilə görüşüb

Noyabrın 14-da Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində ölkəmizdə səfərdə olan BMT Baş katibinin köməkçisi, BMT-nin İnkişaf Proqramının (BMTİP) Avropa və MDB üzrə regional bürosunun direktoru İvana Jivkoviç ilə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan ilə BMTİP arasında mövcud əməkdaşlıq gündəliyində duran, habelə Azərbaycanın COP29 sədrliyindən irəli gələn məsələlər müzakirə edilib.

Azərbaycanın BMTİP ilə uğurlu qarşılıqlı faydalı əməkdaşlığının mövcudluğunu qeyd edən nazir Ceyhun Bayramov xüsusilə dayanıqlı inkişaf gündəliyinin irəlilədilməsi istiqamətində birgə layihələrin icrasını, ölkəmizin bu sahəyə sistematik yanaşmasının göstəricisi olaraq Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yaradıldığını, tərəfimizdən indiyədək 3 Könüllü Milli Hesabatın təqdim olunduğunu qeyd edib.

Həmçinin ölkəmizin işğaldan azad edilmiş ərazilərindəki mina təhdidi ilə mübarizə səylərindən ətraflı bəhs olunub.

Söhbət zamanı Azərbaycanın geniş "yaşıl enerji" potensialına əsaslanan inkişaf strategiyası, "yaşıl enerji" sahəsində regional və beynəlxalq layihələr, xüsusilə Xəzər və Qara dəniz hövzələrini birləşdirən "yaşıl enerji" dəhlizinin yaradılması təşəbbüsündən bəhs olunub. Bu istiqamətdə COP29 çərçivəsində imzalanmış "Azərbaycan Respublikası, Qazaxıstan Respublikası və Özbəkistan Respublikası hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in əhəmiyyəti vurğulanıb.

Görüşdə COP29 sədrliyimizin əsas prioriteti olan iqlim maliyyəsi mövzusunun irəlilədilməsi istiqamətində beynəlxalq təşkilatların, o cümlədən BMTİP-in fəal iştirakçılığının vacibliyi qeyd edilib. Bakıda keçirilən COP29 çərçivəsində ilk gündən etibarən Paris Sazişinin 6.4-cü maddəsi üzrə razılığın əldə olunması, İtki və Zərərlərə Cavab Fondunun işə başlamasını təmin edən irəliləyişlər, habelə çoxtərəfli inkişaf bankları tərəfindən iqlim maliyyəsi üçün öhdəliyin illik əsasda 75 milyarddan 170 milyard ABŞ dollarına qədər artırılması əhəmiyyətli uğur kimi qiymətləndirilib.

Qarşı tərəf Azərbaycan və BMTİP arasında müxtəlif sahələrdə əməkdaşlığın məmnunluq doğurduğunu, xüsusilə mina təhdidi ilə mübarizə sahəsinə BMTİP tərəfindən xüsusi əhəmiyyət verildiyini, bu istiqamətdə Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) ilə birgə Azərbaycanda Minalardan Təmizləmə üzrə Beynəlxalq Mükəmməllik və Təlim Mərkəzinin yaradılması üzərində birgə fəaliyyətin aparıldığı bildirilib.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Çin Azərbaycanla əməkdaşlığı genişləndirməkdə maraqlıdır

Noyabrın 14-də Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədr müavini Fatma Yıldırım və deputat Ziyad Səmədzadə Parlamentlərarası İttifaq və Milli Məclisin birgə təşkilatçılığı ilə COP29-da iştirak etmək üçün ölkəmizdə səfərdə olan Çin Xalq Respublikasının parlament nümayəndə heyəti ilə görüşüblər.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitə sədrinin müavini Fatma Yıldırım Çin Xalq Siyasi Məşvərət Şurasının Ətraf mühitin və resursların mühafizəsi komitəsinin sədr müavini Li Jinbinin rəhbərlik etdiyi nümayəndə heyətini salamlayaraq Çinin COP29-da geniştərkibli nümayəndə heyəti ilə iştirakını iqlim dəyişikliyi və ətraf mühit problemlərinə həssas yanaşmanın göstəricisi kimi yüksək qiymətləndirib. O, Azərbaycanla Çin arasında əlaqələrin artan dinamika ilə inkişaf etdiyini deyib, strateji xarakter daşıyan münasibətlərimizin bugünkü yüksək səviyyəyə çatmasında hər iki ölkənin dövlət başçılarının mühüm rolunu vurğulayıb, ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində, bir çox qlobal əhəmiyyətli layihələrdə uğurla əməkdaşlıq etməsinə toxunub, Azərbaycanın "yaşıl enerji" və "yaşıl texnologiya"ların tətbiqi və təşviqi ilə bağlı gördüyü işlər barədə danışıb.

Çin parlamentinin komitə sədrinin müavini Li Jinbin səmimi qəbul üçün təşəkkür edib, COP29 kimi mötəbər tədbirin yüksək səviyyədə təşkilindən məmnunluğunu bildirib, Çinin Azərbaycanla qarşılıqlı-faydalı əməkdaşlığı genişləndirməkdə maraqlı olduğunu diqqətə çatdırıb. O, ölkəmizin COP29-a sədrliyi dövründə qlobal miqyasda iqlim dəyişmələrinə qarşı dayanıqlılığın artırılması, iqlim maliyyələşdirilməsinin qlobal arxitekturasının inkişafı kimi sahələrdə mühüm nəticələrin əldə olunacağına inamını bildirib.

Görüş zamanı qlobal "yaşıl gündəliy"in təşviqi istiqamətində beynəlxalq səylərin əhəmiyyəti vurğulanıb, iqlim dəyişmələri ilə qlobal mübarizə imkanları müzakirə olunub.

Görüşdən sonra qonaqlar Milli Məclisin plenar iclas zalı və parlamentin foyesində yaradılmış Zəfər Guşəsi ilə tanış olublar.

Sonda görüş iştirakçıları xatirə şəkli çəkdiriblər.

*"Azərbaycan"*

COP29 Baku Azerbaijan

# YAP nümayəndə heyəti Qlobal Cənub Beyin Mərkəzlərinin İkinci Dialoqunda iştirak edib







Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyətinin Çin Xalq Respublikasına səfəri davam edir.

Səfər çərçivəsində noyabrın 14-də nümayəndə heyəti Qlobal Cənub Beyin Mərkəzlərinin İkinci Dialoqunun "Qlobal Cənub: bərabərlik, açıqlıq, əməkdaşlıq" mövzusunda keçirilən açılış mərasimi və plenar iclasında iştirak edib.

Çin Kommunist Partiyası Mərkəzi Komitəsi (ÇKP MK) Beynəlxalq əlaqələr şöbəsi müdirinin müavini, BRICS Beyin Mərkəzləri Əməkdaşlığının Çin Şurasının prezidenti Çen Jounun moderatorluğu ilə keçirilən tədbirdə ÇKP Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri, nazir Lyu Cyançao, ÇKP Szyansu vilayət komitəsinin katibi, Szyansu vilayəti Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin sədri Sin Çansin açılış nitqləri ilə çıxış ediblər. Xalqlar və dövlətlərə qarşı çoxsaylı təhdidlərin mövcud olduğu və qlobal kataklizmlərin hökm sürdüyü hazırkı vəziyyətdə Qlobal Cənub ölkələrinin dünyada sülh, təhlükəsizlik və dayanıqlı sosial-iqtisadi inkişafın təmin edilməsi, həmrəylik və qarşılıqlı anlaşma şəraitində əməkdaşlığın həyata keçirilməsi üçün səylərinin birləşdirilməsi və ardıcıl fəaliyyət göstərilməsinin əhəmiyyətindən bəhs edilib. Qlobal Cənub Beyin Mərkəzlərinin İkinci Dialoqunun Çin və tərəfdaş ölkələri bir araya gətirərək qlobal problemlərin həlli yollarının axtarılması, səmərəli fikir və təcrübə mübadiləsinin aparılması, yeni ideyaların irəli sürülməsi və aktual çağırışlardan irəli gələn təşəbbüslərin reallaşdırılması üçün son dərəcə önəmli platforma olduğu diqqətə çatdırılıb.

Plenar sessiyada nitq söyləyən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Qlobal Cənub Beyin Mərkəzlərinin İkinci Dialoqunda çıxış etməkdən böyük məmnunluq duyduğunu diqqətə çatdırıb: "Bu gün burada, Nankində bir araya gəlməyimiz qlobal prioritetlərin formalaşmasında, bərabərliyə və inklüzivliyə əsaslanan dünyanın yaranmasında Qlobal Cənubun artan rolunu və təsirini əks etdirir".

YAP Sədrinin müavini bildirib ki, dünya əhalisinin yarıdan çoxunu təmsil edən Qlobal Cənub özündə həm də ciddi siyasi və nəhəng iqtisadi resursları cəmləşdirir: "Qlobal Cənub Asiya, Afrika, Latın Amerikası və Karib hövzəsi boyunca yerləşən, xalqlarının müxtəlifliyi, mədəniyyətlərinin özünəməxsusluğu, siyasi və iqtisadi sistemlərinin rəngarəngliyi ilə xarakterizə olunan bir çox dövlətləri əhatə edən bir coğrafiyadır. Bu platformada təmsil olunan əksər ölkələrin xalqlarını keçmişdə məruz qaldıqları və bəzilərinə qarşı yeni simada davam edən müstəmləkəçilik və istismar siyasəti birləşdirir. Bununla belə, Qlobal Cənub son dövrlərdə yeni güc mərkəzinə, iqtisadi inkişafın, texnoloji innovasiyaların və sosial tərəqqinin lokomotivinə çevrilmişdir".

Tahir Budaqov vurğulayıb ki, mövcud beynəlxalq münasibətlər sisteminin böhranı şəraitində qlobal problemlərin artdığı müasir dünyada qarşılıqlı hörmət, ədalət və ortaq məqsədlərə əsaslanan yeni əməkdaşlıq modelinin formalaşması üçün Qlobal Cənub ilə Qlobal Şimalın konstruktiv işbirliyi olduqca vacibdir: "Bu kontekstdə Çin Xalq Respublikasının rolu xüsusilə diqqətəlayiqdir. Çinin irəli sürdüyü və bir çox ölkələr kimi Azərbaycanın da dəstəklədiyi "Bir kəmər, bir yol" layihəsi Qlobal Cənubla Şimalın qarşılıqlı faydalı tərəfdaşlığını xeyli genişləndirmək potensialına malikdir. Bu layihə qlobal ticarətin ənənəvi marşrutlarını yenidən canlandırmaqla bərabər, qlobal iqtisadiyyatdan tarixən təcrid olunmuş regionlara da infrastrukturun, əlaqələrin inkişafı, rifah səviyyəsinin artırılması üçün yeni imkanlar yaradır. Bu baxımdan, qədim tarixi köklərə söykənən Azərbaycan-Çin münasibətləri bərabərlik, qarşılıqlı faydalılıq və etibarlı tərəfdaşlığın parlaq nümunəsidir. Təsadüfi deyil ki, Çin BRICS təşkilatına Azərbaycanın daxil olmaq təşəbbüsünü dəstəkləyən ilk ölkələrdəndir. Qlobal Cənubun yüksəlişinin və yeni dünya nizamının formalaşmasının təzahürlərindən olan BRICS bərabərlik, açıqlıq və əməkdaşlıq prinsiplərinə söykənən ədalətli beynəlxalq münasibətlər sisteminin formalaşmasına töhfə verməkdədir".

YAP Sədrinin müavini əlavə edib ki, bugünkü dialoqu təşkil etməklə Çin inkişaf etməkdə olan ölkələrin səsini gücləndirmək, dünyada qarşılıqlı anlaşmanı təşviq etmək və hər kəsə faydalı olan strateji tərəfdaşlıq üçün zəmin yaratmağa sadiqliyini bir daha nümayiş etdirir: "Qlobal Cənub ölkələri dayanıqlı iqtisadi inkişaf, rəqəmsal transformasiya və sosial tərəqqi üçün yeni standartlar yaratmaq potensialına malikdir. Biz əməkdaşlıq edərək və həmrəylik nümayiş etdirərək bərabərsizlik, təcridetmə və haqsız rəqabət kimi problemləri həll etməklə yanaşı, daha balanslı və ədalətli beynəlxalq münasibətlər sisteminin formalaşmasına töhfə verə bilərik. Asiya ilə Avropanın kəsişməsində, Şərq və Qərb sivilizasiyalarının qovşağında yerləşən Azərbaycan Qlobal Cənub ilə Qlobal Şimal arasında körpü rolunu oynamaq missiyasını həm milli mənafelər, həm də ümumbəşəri maraqlar baxımından tarixi imkan və zərurət kimi dəyərləndirir. Ölkəmizin unikal coğrafi mövqeyi bizə birləşdirici qüvvə kimi çıxış etməyə, müxtəlif regionlar arasında dialoq və əməkdaşlığı təşviq etməyə imkan verir. Azərbaycan regionda əməkdaşlığı gücləndirən, tərəfdaşlığı inkişaf etdirən beynəlxalq əhəmiyyətli enerji və logistika layihələrinin təşəbbüskarı və əsas icraçısıdır. Ölkəmizin beynəlxalq əməkdaşlığa verdiyi töhfələr suverenlik və bərabərliyə hörmət əsasında şəffaf və etibarlı tərəfdaşlığa sadiqliyimizi nümayiş etdirir".

Tahir Budaqovun sözlərinə görə, BMT Təhlükəsizlik Şurasının uzun illər kağız üzərində qalan qətnamələrinin icrasını öz gücü hesabına təmin edərək ərazi bütövlüyünün bərpası ilə çoxillik münaqişəyə son qoyan Azərbaycan təkcə öz suverenliyinin deyil, bütün dünyada sülhün, ədalətin, bərabərliyin müdafiəçisi kimi mövqeyini aydın və qətiyyətlə ortaya qoyur. "Multikulturalizm və dini tolerantlığın ardıcıl tərəfdarı olan Azərbaycan 2020-2023-cü illərdə Qoşulmama Hərəkatına sədrliyi dövründə bunu əyani şəkildə nümayiş etdirmişdir və bu gün də müxtəlif siyasi və humanitar forumların təşəbbüskarı və təşkilatçısı kimi çıxış edir. Hazırda Azərbaycanda dünyanın hər yerindən çoxsaylı dövlət və hökumət başçılarının, yüksəksəviyyəli rəsmi şəxslərin, ekspertlərin, elmi dairələrin və kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirakı ilə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası keçirilir. Bu, bəşəriyyəti narahat edən qlobal problemlər ətrafında fikir mübadiləsi aparmaqla onların həlli yollarını tapmaq, ideya və təcrübə mübadiləsini həyata keçirmək məqsədilə beynəlxalq əməkdaşlığın möhkəmlənməsinə Azərbaycanın növbəti töhfəsidir. COP29 tədbiri həm də qlobal kataklizmlərlə mübarizədə səylərin birləşdirilməsi məqsədilə Qlobal Cənub və Qlobal Şimal arasında səmərəli dialoq üçün platformadır.

Bugünkü tədbirdə aparılan müzakirələrin beynəlxalq münasibətlərin bərabərlik, açıqlıq və əməkdaşlıq prinsipləri əsasında qurulması yönündə təşəbbüslərə töhfə verəcəyinə və faydalı nəticələrlə yadda qalacağına inanıram. Hər birinizə gələcək fəaliyyətinizdə uğurlar arzulayıram", - deyə YAP Sədrinin müavini əlavə edib.

Tədbirin sonunda Qlobal Cənub Beyin Mərkəzlərinin Alyansının yaradılması haqqında qərar qəbul olunub.

# YAP Sədrinin müavini ilə Szyansu vilayəti Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsi sədrinin müavini arasında görüş keçirilib

Noyabrın 14-də Çində səfərdə olan YAP nümayəndə heyətinin bu ölkənin Szyansu vilayəti Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsi sədrinin müavini Çjou Quançji ilə görüşü keçirilib.





YAP nümayəndə heyətini ölkəsində görməkdən məmnunluğunu ifadə edən Ç.Quançji əvvəlcə Szyansu vilayəti haqqında ətraflı məlumat verib. O, Azərbaycan ilə Çin arasında çoxşaxəli münasibətlərin strateji xarakter daşıdığını və uğurla inkişaf etdiyini bildirib. Azərbaycanın Çin Xalq Respublikasının dostu və Cənubi Qafqazda ən böyük ticarət tərəfdaşı olduğunu söyləyən Çjou Quançji hər iki ölkənin bir-birinin maraqlarına hörmətlə yanaşdığını və strateji tərəfdaş kimi əməkdaşlığı dərinləşdirməkdə maraqlı olduğunu bildirib.

Parlamentlərarası əlaqələrin inkişafının önəmindən söz açan sədr müavini iki dövlətin qanunverici orqanlarında dostluq qruplarının fəaliyyət göstərməsinin Azərbaycan-Çin münasibətlərinin inkişafına mühüm töhfə verdiyini diqqətə çatdırıb.

Hakim partiyalar arasındakı məhsuldar dialoq şəraitində əlaqələrin genişləndirilməsinin əhəmiyyətindən bəhs edən Çjou Quançji Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası (ÇKP) arasında əməkdaşlıq memorandumunun imzalanmasının dostluq və tərəfdaşlıq əlaqələrinin əsaslarını möhkəmləndirəcəyinə əminliyini ifadə edib. O diqqətə çatdırıb ki, memorandumdan irəli gələn vəzifələrin icra olunması uğurlu nəticələr verməklə qarşılıqlı faydalı işbirliyini daha da gücləndirəcək.



Səmimi qəbula və yüksək qonaqpərvərliyə görə təşəkkürünü bildirən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev ilə Çin Xalq Respublikasının Sədri, Çin Kommunist Partiyasının Baş katibi Si Cinpinin iki ölkə arasında əlaqələrin inkişafına xüsusi önəm verdiklərini, strateji tərəfdaşlığa əsaslanan münasibətlərin genişləndirilməsi istiqamətində məqsədyönlü addımlar atıldığını vurğulayıb.

Asiya ilə Avropanın kəsişməsində olduqca mühüm coğrafi-strateji mövqedə yerləşən, beynəlxalq dialoq və işbirliyi məkanı olan Azərbaycanın öz ərazi bütövlüyü və suverenliyini bərpa etməklə yaratdığı yeni reallıqların regionda sülh, sabitlik, təhlükəsizlik, inkişaf və əməkdaşlığa xidmət etməklə yanaşı, həm ölkəmizin, həm də tərəfdaş dövlətlərin qarşısında mühüm perspektivlər açdığını söyləyən YAP Sədrinin müavini respublikamızın dövlətlərarası münasibətlərin konstruktiv müstəvidə inkişafının tərəfdarı olduğunu bildirib.

Azərbaycan-Çin əməkdaşlığının genişləndirilməsində həm hakim partiyalar, həm də parlamentlər arasındakı səmərəli əlaqələrin mühüm rol oynadığını bildirən Tahir Budaqov qeyd edib ki, YAP ilə ÇKP-nin fəal dialoqu Azərbaycan-Çin strateji tərəfdaşlıq münasibətlərinin mühüm tərkib hissəsi kimi böyük önəmə malikdir: "Hakim partiyalar arasında imzalanan əməkdaşlıq memorandumu çərçivəsində görüləcək işlər həm partiyalarımız, həm də ölkələrimiz üçün faydalı olmaqla müştərək maraqlarımızı təmin edəcək".

Azərbaycanın regionlarının geniş potensiala və dinamik inkişafa malik olduğunu qeyd edən YAP Sədrinin müavini iki ölkənin bölgələri arasında da əməkdaşlığın perspektivliyini, bu məsələnin xüsusi diqqət mərkəzində saxlanılmasının əhəmiyyətini diqqətə çatdırıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə müzakirələr aparılıb.

Noyabrın 14-də YAP nümayəndə heyəti "Keyuan" intellektual elm və texnologiya şirkətini də ziyarət edib. Ziyarətçilər sənayenin müxtəlif sahələrində tətbiq edilən innovasiyalar barədə məlumatlandırılıblar.

COP29 Baku Azerbaijan

# Dünya Bakıda birləşir

# Özünə güvənənlər




**Özünəgüvənlik insanın ən dəyərli mənəvi keyfiyyətlərindən biri sayılır.**

*Özünəgüvənlik insanla birgə doğulmur, sonradan yaranır.*

*Lakin hər adama da nəsib olmur.*

Özünəgüvənliyi insan həyatda özü qazanır, onun formalaşması üçün çox addımlar ataraq, xeyli iş görməli olur.

**Müəyyən dövrdən sonra özünəgüvənlik insanda xarakterə çevrilir...**

**Sonrakı addım və fəaliyyətini stimullaşdıran xarakterə.**

*Özünəgüvənlik həm də dövlətlərə xas olan xüsusiyyətdir.*

Belə halda onun şərtləri, sınaq və çətinlikləri daha çox və əhatəli olur.

**Təkqütblü, beynəlxalq hüququn işləmədiyi, əksinə, ikili standartların hökm sürdüyü və ədalətsizliklərin baş alıb getdiyi hazırkı dünyada özünə güvənmək çox çətin, mürəkkəb, hətta bəzən təhlükəli işdir.**

*Hər dövlət bu qayda ilə mövcud olmağı, fəaliyyət göstərməyi bacarmaz.*

Bunun şərtləri, özünəgüvənliyi təmin edən amillərin sayı çoxdur.

Onlara nail olmaq, xüsusən kritik və həssas məqamlarda vəziyyətdən uğurla çıxmağı bacarmaq böyük zəka, uzaqgörənlik, zəngin siyasi təcrübə və imkanları ən qısa müddətdə toparlamağı, hədəfləri düzgün müəyyənləşdirərək düşünülmüş addımlar atmağı tələb edir.

*Bütün bunları isə hər dövlət, onun rəhbəri bacarmaz!*

❖ ❖ ❖

**Özünəgüvənliyin mühüm şərtlərindən biri müstəqil siyasət yürüdülməsidir!**

Yer kürəsi ərazicə böyükdür, dünya çoxsaylı dövlətlərdən ibarətdir.

Dünyanın 203-dən çox dövləti BMT-nin üzvüdür.

Bu dövlətlərin nəhəngi də, güclüsü, imkanlısı da, zəifi, kasıbı və qapazaltı olanı da var.

*Güclülər imkanı, təbii sərvətləri olub, zəif saydıqlarını öz maraqlarına tabe etməyi, həmin sərvətlərdən öz xeyirlərinə bəhrələnməyi ustalıqla bacarırlar.*

**Bundan ötrü uzun illərin, əsrlərin sınağından çıxmış üsul və alətlər, təzyiq və məcburetmə vasitələri "kəşf" edilmiş, ağalıq etmək istəyənlərin arzularını və tələblərini gerçəkləşdirməyə xidmət göstərəcək beynəlxalq qurum və təşkilatlar yaradılmışdır.**

"Demokratiya", "insan haqları", "sərbəst düşüncə", "sərbəst toplaşma azadlığı" və digər terminlər icad edilmişdir.

**Əslində, sivil cəmiyyətin əsaslarının ifadəsi kimi istifadə olunan belə terminlər bəzən hətta qərəzli şəkildə öz təyinatından kənarlaşdırılaraq, "itaət göstərməyən" dövlətlər üçün təzyiq, təsir vasitəsinə çevrilir.**

Belə bir vəziyyətdə müstəqil siyasət yürütmək, müxtəlif istiqamətlərdən, müxtəlif ünvanlardan və müxtəlif formalarda təzyiqlərə sinə gərmək o qədər də asan olmur.

*Üstəlik, qəsdən yaradılan gərgin şəraitdə dövlət başçısından təkcə siyasi manevr etmək, diplomatik bacarıqlar nümayiş etdirmək deyil, həm də mühüm fərdi keyfiyyətlər - qətiyyət, möhkəm iradə, cəsarətli və hesablanmış addımlar atılması da tələb olunur.*

❖ ❖ ❖

Müasir dünya özünü nə qədər demokratik göstərməyə can atsa da, hələ də "cəngəllik qanunları" yaşayır və fəaliyyət göstərir.

Başqa sözlə, güclü öz iradəsini, bəzən hətta "diktəsini" zəifə "demokratik pərdə"yə bükülmüş şəkildə qəbul etdirir və bunun çox müxtəlif, fərqli, təkmilləşdirilmiş formaları mövcuddur.

Söhbət təkcə "demokratiya", "insan haqları", "sərbəst toplaşmaq azadlığı" və sairənin "pozulmasından" getmir.

Əslində, bütün bunlar sanksiya tətbiqi üçün ortaya qoyulan "əsaslar"dan biridir.

*Zəifin (kasıbın) varlıdan (güclüdən) nə isə istəməsi (məsələn, kredit), yaxud hansısa xahişinin təmin olunması müqabilində irəli sürülən "dəmir şərtlər"in mövcudluğu da müstəqil siyasəti çətinləşdirən, bəzən mümkünsüz edən məqamlardandır.*

Belə təsir, təzyiq, təhdidlərə də əvvəlcədən hazır olmalısan.

❖ ❖ ❖

**Gəlib çatırıq əsl mətləbə: iqtisadi cəhətdən müstəqil olmayan, özünü daxili imkanları hesabına yaşada bilməyən dövlətin müstəqil siyasət yürütməsi mümkünsüzdür.**

Təbiidir ki, hər ölkə özünə lazım olan bütün xammal və materiallara malik olmur.

Lakin özündə olmayanı başqasındakı ilə "dəyişmək" imkanının mövcudluğu da vacib şərtlərdəndir.

*Bunu bir qədər sadələşdirsək, belə ifadə etmək mümkündür: dünya bazarından istədiyini almaq üçün hələlik hakim mövqe tutan kifayət qədər dollara sahib olmalısan.*

Həmin dolları qazanmaq üçün isə tezsatılan, necə deyərlər, "yerdə qalmayan" malın, məhsulun olmalıdır.

Bu baxımdan Azərbaycanın bəxti gətirib: Tanrı bizə neft-qaz kimi enerji daşıyıcıları qismət edib.

**Ulu Öndər Heydər Əliyevin uzaqgörənliyi sayəsində zamanında "Əsrin müqaviləsi"nin imzalanması, daha sonra Prezident İlham Əliyevin qabaqlayıcı tədbirləri hesabına "Cənub qaz dəhlizi"nin işə salınması ilə Azərbaycan daim özünə kifayət qədər valyuta ehtiyatı yarada bilir.**

❖ ❖ ❖

*İqtisadiyyatın inkişafı da mühüm şərtlər sırasındadır.*

**Azərbaycan nəinki güclü iqtisadiyyata malikdir, hətta onu uğurla şaxələndirmiş, əsas ehtiyaclarının daxili imkanlar hesabına ödənilməsinə nail olmuşdur.**

Fərəhli haldır ki, hələ də Ermənistanla sülh müqaviləsinin imzalanmasına nail ola bilməyən, yeni hərbi toqquşmanın mümkünlüyünü diqqətdə saxlayan ölkəmiz hərbi sənaye kompleksini də inkişaf etdirərək, bu sahədəki zəruri ehtiyaclarının ödənilməsinə nail olmuşdur.

**Ölkə daxilində möhkəm və davamlı sabitliyin təmini də mühüm məsələdir.**

- Vətəndaş məmnunluğunun təmin edilməsi Azərbaycan iqtidarının daim diqqətdə saxladığı məsələlərdəndir.
- İqtisadiyyatın, xüsusən sahibkarlığın inkişafına yaradılan şərait hesabına ölkə daxilində işsizlik və yoxsulluq 40-50 faizdən 4-5 faizədək endirilmişdir.
- Xalqın sosial rifahı mütəmadi şəkildə yüksəldilir.
- İnsanların mənəvi rahatlığının, fəaliyyət sərbəstliyinin təmini də diqqətdə saxlanılır.

Azərbaycanda vətəndaş cəmiyyəti formalaşdırılmış, mətbuat və söz azadlığı, fikir plüralizmi, çoxpartiyalı sistem qurulmuş, demokratiyanın təməl prinsipləri təmin edilmişdir.

**Dövlətimizin ən böyük uğuru isə Vətən müharibəsinin başlanması ərəfəsində böyük milli birliyin yaranması, üstəlik, əsas milli ideyanın həyata keçməsindən sonra onun daha da möhkəmlənməsi və sarsılmaz xarakter almasıdır.**

❖ ❖ ❖

*Vacib məqamlardan daha biri ölkənin yad təsirlərdən qorunması və xarici təhdidlərin qarşısının alınmasıdır.*

Yaxın illərin təcrübəsi göstərir ki, bəzən müstəqil siyasət yürütmək istəyənlərin, yaxud güclülərin tələblərinə əməl etməyənlərin cəzalandırılması da baş verir.

Söhbət bir zaman dəbdə olan, indi isə nisbətən səngiyən "rəngli inqilablar"dan və "ərəb baharları"ndan gedir.

**Belə "inqilab" və "baharlar"ın məqsədi güclü dövlətlərin təsir və təzyiqlərinə boyun əyməyən ölkə başçılarının dəyişdirilərək, daha "sərfəli"lərlə əvəzlənməsi olurdu.**

*Bunadək isə hədəfə alınan ölkələrdə "5-ci kolon" yetişdirilir, pul müqabilində öz dövlətlərinə qarşı çıxan manqurtlar formalaşdırılır və dirijor çubuğu ilə (qrantlarla) idarə edilirlər.*

Gürcüstan hadisələri bir daha göstərdi ki, möhkəm əqidəli, vətənpərvər gənclər nəslinin tərbiyələndirilməsi, milli-mənəvi dəyərlərə sadiq, xalqın tarixi ənənələrini qoruyub saxlayacaq insanların mövcudluğu dövlətin xarici siyasətinin etibarlılığına və davamlılığa təsir göstərən vacib amillər sırasında yer alır.

❖ ❖ ❖

Gürcüstan hadisələrindən söz düşmüşkən bir neçə məqama da diqqət çəkmək istərdik.

*Adətən kiçikyaşlı uşaqları konfetlə aldadırlar...*

*Yenicə müstəqillik qazanmış ölkələri isə Avropa İttifaqına qəbulla şirnikləndirirlər.*

Lakin bu "qəbul"un yolu o qədər uzun və dağıdıcıdır ki...

Uzun illər qardaş Türkiyə Avropa İttifaqının "qəbul otağı"nda gözləməli oldu.

Bir-birini əvəzləyən tələblər isə ölkəni dağılmağa doğru aparan məkrli oyunlardan başqa bir şey deyildi.

**Sonda aydın oldu ki, "xristian evi" ayamasını qazanan Avropa İttifaqında heç bir müsəlman dövlətinə yer yoxdur.**

Ukrayna hadisələri də göstərdi ki, orada heç xristian ölkəsini də sevmirlər.

*Daha çox bəd əməllərinə yarayanları alətə çevirərək, başqalarına qarşı dağıdıcı vasitə kimi istifadə edirlər.*

Avropa İttifaqı özü yaradıldığı məqsədə xidmət etmir, fəaliyyətində xeyli əcaib dəyişikliklər baş vermişdir.

**Kimlərinsə tapşırıqlarını icra etmək, obyektivlikdən uzaq düşmək, fəaliyyətində ayrı-seçkiliyə, qərəzə üstünlük vermək bu qurumun gündəlik işinə çevrilmişdir.**

*Otuzillik işğal və Zəfər müharibəsindən keçən dörd il ərzində biz Avropa İttifaqının əsl simasına, orada qəbul edilən və etdirilən sənədlərin mahiyyətinə dərindən bələd olduq.*

**Otuz ildə erməni işğalçılarının barbar, dağıdıcı əməlləri, xalqımızın tarixi, mədəni, dini irsinin yerlə yeksan edilməsi, mülki vətəndaşların hüquqlarının kütləvi şəkildə pozulması, girovlarla vəhşicəsinə rəftar, onların öldürülərək gizlincə basdırılması, soyqırımları barədə susan Avropa İttifaqı indi ermənidən betər ermənilik edərək Azərbaycan əleyhinə dalbadal qərəzli, həqiqətdən uzaq sənədlər qəbul edir.**

*Doğrudur, Azərbaycan üçün belə qeyri-obyektiv, qərəzli bəyanatlar boş kağızdan başqa bir şey deyil!*

- Söhbət həmin kağızların arxasında gizlənən qara niyyətlərdən gedir.
- Söhbət Cənubi Qafqazda yeni müharibə alovlandıraraq oranı kənar qüvvələrin təsir dairəsinə çevirmək istəyindən gedir.
- Söhbət Azərbaycanı da öz maraqlarının təminatçısı qismində görmək arzusundan gedir.

**Bu isə həmin niyyətə düşən məlum dövlətlərin xam xəyallarıdır.**

**Azərbaycan yolunu da, siyasətini də, nəyi necə edəcəyini də hamıdan yaxşı bilir!**

❖ ❖ ❖

Sonda sonuncu misal.

*BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının sessiyalarını keçirmək hər dövlətin bacaracağı iş deyil!*

Bunu dünyada hamı bilir.

- Belə sessiyalarda dünyanın ekoloji gələcəyi ilə bağlı məsələlər müzakirə olunur və müvafiq qərarlar çıxarılır.
- Belə sessiyalarda irqindən, millətindən, dinindən, dünyanın harasında yaşamasından asılı olmayaraq hər bir insanın həyatı, taleyi, əmlakı ilə bağlı məsələlər müzakirə edilir.
- Belə sessiyalarda bəşəriyyətin yaxın və uzaq gələcəyi ilə bağlı məsələlər gündəm olur.

**Dünya Azərbaycana inanaraq, son dövrdə xüsusilə aktuallaşan iqlim dəyişmələri ilə bağlı 29-cu sessiyanın keçirilməsini ona etibar edib.**

- Azərbaycan bu etibarı əvvəllər uğurla keçirdiyi dünya miqyaslı tədbirlərə verdiyi töhfələrlə qazanmışdır.
- Azərbaycan bu etibarı təkcə təcrübəsi ilə deyil, həm də mövcud imkanları, bazası, indiyədək ölkədə yaratdığı şəraitlə qazanmışdır.
- Azərbaycan bu etibarı iqlim kataklizmlərinin qarşısının öncədən alınmasına verdiyi töhfələrlə, "yaşıl enerji" istehsalında son illər gördüyü və gələcəkdə görəcəyi işlərin miqyası ilə qazanmışdır.
- Azərbaycan həm də belə möhtəşəm və genişmiqyaslı tədbiri yüksək səviyyədə keçirməyə qadir olduğuna inanaraq, özünə güvənərək öhdəsinə götürmüşdür.

**Azərbaycanofob qüvvələr nə qədər əks-təbliğat kampaniyası aparsalar da, mənasızdır.**

**Azərbaycan bütün zəruri işləri vədəsində və yüksək keyfiyyətlə icra edib, COP29-u da uğurla başa vuracaqdır!**

Bu həm də ölkəmizin növbəti beynəlxalq uğuru olacaqdır.

❖ ❖ ❖

Ermənistanı "əl quzusu" edən ABŞ-nin və Qərbin niyyəti Gürcüstanı da orbitindən çıxarmaq, iki "qərbpərəst" dövlət hesabına Cənubi Qafqazı qan çanağına çevirməklə ələ keçirmək idi.

Lakin əlləri boşda qaldı.

Gürcü xalqı Avropa İttifaqına üzvlüyün ona nəyə başa gələcəyini anlayaraq yarı yoldan geriyə qayıtdı.

Dövlət müstəqilliyini və ənənəvi dəyərlərini hər şeydən yüksək qiymətləndirən gürcü xalqı "Gürcü Arzusu" partiyası ətrafında birləşərək düzgün seçimini etdi.

Gürcüstanı bulandırmaq istəyənlər mənfur niyyətlərindən əl çəkməsələr də, artıq gecdir.

*Beləliklə, ABŞ-nin və Qərbin daha bir mənfur niyyəti iflasa uğradı.*

*Məqsəd həm də "ipə-sapa" yatmayan Azərbaycanı ram etmək idi.*

**Cənubi Qafqazın iki dövlətini ələ keçirdikdən, burada da Ukrayna variantını tətbiq etdikdən sonra Azərbaycanı çıxılmaz vəziyyətdə qoymaqla təkləmək, istədiklərinə nail olmaq niyyəti güdülürdü.**

*Azərbaycan Prezidentinin uzaqgörən və qətiyyətli addımları, prinsipial mövqeyi, üstəlik, gürcü xalqının doğru seçimi Cənubi Qafqazı alova bürümək istəyində olanların arzusunu gözündə qoydu.*

İndi regionda təklənən tam müstəqil siyasət yürüdən Azərbaycan yox, özünə təzə ağa tapmış Ermənistandır.

Azərbaycanla Gürcüstanın dostluq və əməkdaşlıq əlaqələrinə xələl gətirmək isə kimsəyə nəsib olmayacaqdır!

**Bəxtiyar SADIQOV**

COP29 Baku Azerbaijan

# COP-ların ən mükəmməli 29-cusu oldu

# İlham Əliyevin qlobal liderliyinin etirafı



**Azərbaycan tarixinin ən möhtəşəm məqamlarından birini yaşayır. Ölkəmiz tarixində ən geniştərkibli, ən nəhəng tədbirini keçirir - COP29-a evsahibliyi edir.**

**Azərbaycan beynəlxalq tədbirlərin təşkilatçısı kimi artıq dünyada sayılıb-seçilən dövlətlər sırasındadır. Ölkəmiz indiyədək keçirdiyi konfranslarda, sammitlərdə xüsusi nümunələr göstərib, modellər yaradıb və təsadüfi deyil ki, COP29-a evsahibliyi məsələsinin müzakirəsində məhz bu mükəmməl təcrübələri nəzərə alınaraq 200 ölkənin dəstəyi ilə bu şərəfli missiya Azərbaycana həvalə olunub.**

**COP29-a evsahibliyi etmək səlahiyyətinin Azərbaycana verilməsi ilk növbədə ölkəmizə olan hörmətin əlaməti, beynəlxalq arenada oynadığımız fəal rolun dəyərləndirilməsidir. Bu, bir daha təsdiq etdi ki, Şimal ilə Cənubun, Qərb ilə Şərqin qovşağında yerləşən ölkə kimi Azərbaycan müxtəlif beynəlxalq iştirakçılar arasında siyasi, mədəni, enerji, ticari və nəqliyyat körpüləri yaradır. Azərbaycanın həyata keçirdiyi nəhəng enerji və nəqliyyat layihələri Avrasiyanın enerji xəritəsini dəyişib, yeni məhsuldar, çoxtərəfli əməkdaşlıq formatları ərsəyə gətirib.**

## Azərbaycan COP29-u yalnız tədbir xatirinə keçirmir

COP29 BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının sessiyasıdır və iştirakçı sayına görə dünyada ən böyük tədbirdir. Təsadüfi deyil ki, COP29-da iştirak etmək üçün Azərbaycana 196 ölkədən 72 min iştirakçı gəlib. Onların sırasında 80 prezident, vitse-prezident və baş nazir var. Hər gün isə sammitə qatılanların sayı 20 min nəfərdən artıq olur.

COP29-da müxtəlif peşə sahibləri iştirak edir, futbolçulardan tutmuş ekoloqlara, siyasətçilərdən iqtisadçılara, sənət adamlarından hüquqşünaslara qədər bütün sferaların təmsilçiləri əhatə olunur.

Azərbaycan COP29-u yalnız tədbir xatirinə keçirmir. Cənubi Qafqazın lider ölkəsi bu sammitdə iqlim dəyişikliyi ilə mübarizə üçün təkliflərini, "yaşıl enerji" sahəsindəki mövcud potensialını təqdim edir, eləcə də COP29 çərçivəsində iqlim maliyyələşməsi üçün ortaq məxrəcin əldə olunması üçün çalışır.

Azərbaycanın "yaşıl gündəliyi" və alternativ enerji mənbələrinin inkişaf etdirilməsi istiqamətində həyata keçirdiyi siyasətə nəzər yetirsək görərik ki, ölkənin bərpaolunan enerjidə texniki potensialı quruda 135 giqavat, dənizdə isə 157 giqavat təşkil edir. 2030-cu ilə qədər təxminən altı giqavatlıq günəş, külək və hidroenerji stansiyalarının tikilməsini planlaşdırır. 10 giqavatlıq bərpaolunan enerji layihələri üzrə müqavilələr və anlaşma memorandumları imzalanıb. BƏƏ-nin "Masdar" şirkəti, Səudiyyə Ərəbistanının "Acwa Power" şirkəti və Birləşmiş Krallığın BP şirkəti ilə həyata keçirilən layihələr də bunun əyani təzahürüdür. Bu layihələrdən xüsusi olaraq Avropaya "yaşıl enerji"ni ixrac etmək üçün Xəzər dənizindən başlayaraq Qara dənizin dibi ilə enerji kabelinin çəkilməsi dünyada analoqu olmayan layihələrdəndir.

Bununla yanaşı, Naxçıvan Muxtar Respublikası, Qarabağ və Şərqi Zəngəzur regionları "yaşıl enerji" zonaları elan edilib.

## Dünya liderlərindən Azərbaycana verilən yüksək dəyər

Ümumiyyətlə, Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının yüksək səviyyədə keçirilməsi müxtəlif ölkələri təmsil edən qonaqlar, rəsmi şəxslər, media nümayəndələri və ekspertlərlə yanaşı, dünya liderləri tərəfindən də qiymətləndirilir, tədbirlərin səviyyəsindən məmnunluq ifadə olunur. Yüksəksəviyyəli rəsmi nümayəndələr COP29 çərçivəsində keçirilən plenar iclaslarda, eləcə də digər tədbir və görüşlərdə, müsahibələrdə Azərbaycanın yüksək təşkilatçılıq qabiliyyətini, qonaqpərvərliyini və peşəkarlığını təqdir edir, COP29 danışıqlarının uğurla nəticələnəcəyinə ümidvar olduqlarını bildirirlər.

COP29-un plenar iclasında çıxış edən Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif Bakıda iqlim sammitinin uğurla keçirilməsi münasibətilə Prezident İlham Əliyevi təbrik edib. Pakistan hökumətinin başçısı əminliklə bildirib ki, COP29 mütləq tarixə düşəcək. Misir Ərəb Respublikasının Baş naziri Mustafa Mədbuli yüksək təşkilatçılığa görə Azərbaycana təşəkkür edib və uğurlar arzulayıb. Hökumət başçısı iqlim maliyyələşməsinin vacibliyini vurğulayaraq ölkəsinin bu istiqamətdə gördüyü işlərdən danışıb.

İtaliyanın Baş naziri xanım Ciorcia Meloni Azərbaycanı COP29-un sədri kimi görməkdən çox məmnun olduğunu bildirib və COP29-un təşkilinə görə ölkəmizə təşəkkürünü ifadə edib.

Gürcüstanın Baş naziri İrakli Kobaxidze də yüksək təşkilatçılıq səviyyəsinə görə Azərbaycan Prezidentinə dərin minnətdarlığını bildirib. COP-un Qafqazda ilk dəfə ölkəmizdə keçirildiyini xüsusi vurğulayan Baş nazir bu mötəbər beynəlxalq tədbirə peşəkarlıqla evsahibliyi edən Azərbaycana uğurlar arzulayıb. Konqo Demokratik Respublikasının Baş naziri Cudit Suminva Tuluka Bakının bütün bəşəriyyət üçün belə mühüm tədbirə evsahibliyi etdiyinə görə Azərbaycana və şəxsən dövlətimizin başçısı İlham Əliyevə minnətdarlığını bildirib. "Ola bilsin ki, yalnız gələcək nəsillər bu gün burada etdiklərimizin və müzakirə etdiyimiz məsələlərin tam mənasını anlayacaqlar. Amma ilk növbədə biz nəticələr əldə etməliyik", - deyə Baş nazir COP29-un mühüm əhəmiyyətini bir daha vurğulayıb.



Moldovanın Prezidenti Maya Sandu da çıxışında COP29-un Bakıda yüksək səviyyədə keçirilməsinə görə Prezident İlham Əliyevə və Azərbaycan hökumətinə dərin minnətdarlığını bildirib.

## Prezident İlham Əliyevdən inkişaf etmiş ölkələrə çağırış

Noyabrın 13-də Bakıda COP29 çərçivəsində inkişaf etməkdə olan kiçik ada dövlətlərinin (SIDS) sammitində isə dünya bir daha Azərbaycanın müstəqil siyasətinə, söz sahibinə çevrildiyinə şahid oldu.

Sammitdə çıxış edən Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan COP29-a ev sahibi olduqdan sonra inkişaf edən kiçik ada dövlətləri ilə münasibətləri yeni, daha yüksək səviyyəyə qalxıb. Kiçik ada dövlətlərinin səsi qlobal arenada eşidilməlidir.

Ali tribunadan inkişaf etmiş bütün ölkələrə, xüsusən də müstəmləkə keçmişi olanlara müraciət edən Prezident kiçik ada dövlətlərinə maddi və texniki dəstək göstərilməsinin vacibliyini söyləyərək dedi ki, bu dəstək sayəsində onlar ölkələrini iqlim dəyişmələrinin fəsadlarından qoruya bilərlər.

Dövlət başçısı son illərdə iqlim dəyişikliyinin yaratdığı fəsadların Azərbaycandan da yan keçmədiyini sammit iştirakçılarının diqqətinə çatdırdı. Bunu Xəzər dənizinin ildən-ilə dayazlaşması faktı ilə dünyaya təqdim etdi: "İqlim dəyişmələri hər bir ölkəyə, o cümlədən Azərbaycana təsir göstərir. Görürük ki, Xəzər dənizi ilbəil daha da dayazlaşır. Görürük ki, çaylarımızda daha az su, dağlarımızda daha az qar var. Əfsuslar ki, keçmişdə heç vaxt görmədiyimiz daşqınlar və kəskin yağışlar bu gün reallıqdır. Bir sözlə, hər bir ölkə təsirə məruz qalır, lakin kiçik ada dövlətləri üçün bu ekzistensial təhlükədir", - deyə cənab Prezident vurğuladı.

Azərbaycan kiçik ada dövlətlərinə özünün birmənalı dəstəyini nümayiş etdirir. Ölkəmiz fəlakət qarşısında zəif olan bir sıra ölkələrə qasırğa, zəlzələ və daşqınların təsirini azaltmaq üçün yardım göstərib. Azərbaycan həmçinin su təchizatı, qida təhlükəsizliyi və mədəni irsin bərpası layihələrinə dəstək verib. Ondan çox kiçik ada dövləti Azərbaycan universitetlərində təhsil almaq üçün tələbə təqaüdü proqramından yararlanıb. Qoşulmama Hərəkatında dördillik sədrliyi dövründə Azərbaycan 80-dən artıq ölkəyə, o cümlədən 20 kiçik ada dövlətinə maliyyə və humanitar yardım göstərib. Həmin ölkələrin üzləşdiyi çağırışların aradan qaldırılması COP29-da Azərbaycanın göstərdiyi səylərin əsasını təşkil edir. Azərbaycan Millətlər Birliyinin kiçik ada dövlətlərindəki birgə layihələrini dəstəkləmək üçün 10 milyon ABŞ dolları məbləğində vəsait ayırır. Ətraf mühitin monitorinqi və qiymətləndirilməsi üçün Azərbaycanın Kosmik Agentliyi - "Azərkosmos"dan peyk məlumatlarından istifadə etmək üçün Millətlər Birliyi ilə Anlaşma Memorandumu imzalanıb.

Möhtərəm Prezidentin söylədiyi fikirlər bir daha onu təsdiqlədi ki, Azərbaycanın yalnız öz gücünə reallaşdırdığı layihələr ölkəmizin iqtisadi qüdrətinin göstəricisidir.

Dünya liderlərinin, inkişaf etməkdə olan kiçik ada dövlətlərinin sammitində çıxış edən rəhbər şəxslər də COP29-un təşkilinə görə Azərbaycana minnətdarlıq ifadə edib, iqlim dəyişmələrinin böyük fəlakətlərə səbəb olduğu bu ölkələr üçün iqlim maliyyələşməsinin və uğurlu danışıqların əhəmiyyətini vurğulayıblar. Onlar COP29 çərçivəsində kiçik ada dövlətlərinin problemlərinin müzakirə olunduğu yüksəksəviyyəli tədbirin təşkilinin önəmini xüsusilə qeyd ediblər.

Noyabrın 13-də COP29 çərçivəsində iqlim dəyişmələrindən ən çox əziyyət çəkən kiçik ada dövlətlərini dəstəkləmək məqsədilə "Kiçik ada dövlətlərinin səslərinin gücləndirilməsinə dair Bakı Bəyannaməsi"nin qəbul olunması da Azərbaycanın COP29-a sədrliyinin növbəti uğurudur.

## COP29-a Mehriban Əliyevanın töhfəsi

Azərbaycanın beynəlxalq toplantılarda, xarici ölkələrdə daha çox tanınması, ölkəmizin qlobal nüfuzunun yüksəlməsi istiqamətində mühüm layihələr reallaşdıran ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva COP29 çərçivəsində bir daha uğurlu missiyasını davam etdirib.

COP29 çərçivəsində "yaşıl zona"da "Gənclər iqlim fəaliyyətlərinin ön cəbhəsində" mövzusunda konfrans təşkil olunub. Konfransda məqsəd Azərbaycanın iqlim dəyişikliyi ilə mübarizəyə verdiyi önəmi beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmaq və bu dövlətlərin gənclərini iqlim gündəliyinə cəlb etməklə beynəlxalq öhdəliklər istiqamətində görülən tədbirləri təqdim etmək olub.

Konfransda çıxış edən birinci xanım Mehriban Əliyeva bildirib ki, COP29 çərçivəsində əməkdaşlıq, təcrübə mübadiləsi, gənc nəsil tərəfindən birgə layihələrin müəyyənləşdirilməsi üçün platformanı yaratmaq imkanı olacaq:

"COP29 ölkəsi seçilmək bizim üçün böyük şərəfdir. Biz fərəhlənirik ki, Cənubi Qafqazda, Mərkəzi Asiyada və daha geniş regionda ilk COP konfransı məhz Azərbaycanda keçirilir". Həqiqətən də, qürurlu, fərəhləndirici haldır ki, COP konfransı məhz Azərbaycanda keçirilir. Bu, Azərbaycana, onun liderinin yürütdüyü siyasətə, ölkəsində yaratdığı daxili sabitliyə verilən yüksək dəyərdir.

Birinci xanım həmçinin bildirmişdir ki, dünya biosferin çirklənməsi, içməli suyun qıtlığı, tez-tez baş verən quraqlıq və ərzaq təhlükəsizliyində artan risklər kimi ciddi ətraf mühit çağırışları ilə üz-üzədir. Azərbaycan da bu problemdən istisna deyil.

Azərbaycanin "yaşıl gündəliy"ini təqdim edən Mehriban xanım Əliyeva qlobal istixana tullantılarının 0,1 faizinin ölkəmizin payına düşdüyünü, havaya tullantıların azaldılması və təmiz enerjiyə keçidin həyata keçirilməsi kimi milli hədəflərimizə doğru irəlilədiyimizi bildirdi.

Birinci vitse-prezident bəyan etdi ki, COP29-a evsahibliyi edən ölkə kimi Azərbaycan ətraf mühit məsələlərindən xeyli uzaq olan mülahizələr hesabına ədalətsiz hücum dalğası, yalan hekayətlər və ikili standartlar ilə üzləşib. Azərbaycan COP29-a evsahibliyi etmək öhdəliyini üzərinə götürməklə Qlobal Cənub və Qlobal Şimal, eləcə də inkişaf etmiş və inkişaf edən ölkələr arasında körpülər salmağa çalışır. Məqsəd bu məsələnin həllinə verilən töhfəni ortaq gələcəyə veriləcək töhfəyə çevirməkdən ibarətdir. Müəyyən ölkələrin təsiri altında olan bəzi iri media platformaları göstəriş ilə Azərbaycan haqqında mənfi hekayətləri yaymağa başlayıblar. Yalan hekayətlər və riyakarlıq nəinki reallığı səhv göstərir, o cümlədən ədalət və düzgünlük, ləyaqət və məsuliyyət kimi fundamental konsepsiyaları sual altına qoyur. Səhv informasiyanın yayılmasında, ölkələrə qarşı qarayaxma kampaniyalarının aparılmasında mediadan istifadə həmin ölkələrə o qədər zərər vurmur, nəinki mənəvi dəyərlərin mahiyyətini dəyərsizləşdirir, etimadı zəiflədir və parçalanma yaradır.

"Yadda saxlasınlar ki, COP29 siyasi hücumlar arenası deyil. O, iqlim böhranı qarşısında hamımızın birləşdiyi məkandır. Yalnız ədalətli əməkdaşlıq və real tədbirlərə hazırlıq bizi uğura aparacaq". Birinci vitse-prezident bu fikirləri ilə antiazərbaycançı şəbəkənin çirkin kampaniyasına layiqli cavab verdi.

## Prezident İlham Əliyevdən tarixi dərs

Noyabrın 13-də kiçik ada dövlətlərinin (SIDS) sammitində çıxış edən Prezident İlham Əliyev bir daha Azərbaycana qarşı qarayaxma kampaniyasının başında duran Fransa və Niderlanda tarixi dərs keçdi. Belə ki, möhtərəm Prezident sammit iştirakçılarının diqqətinə çatdırdı ki, neokolonializm və iqlim dəyişmələri - Fransa və Niderlandın xüsusən də Karib dənizi və Sakit Okean regionundakı dırnaqarası dəniz əraziləri iqlim dəyişmələrinin ən ciddi təsirinə məruz qalanlar sırasındadır. Artan dəniz səviyyəsi, kəskin hava şəraiti və biomüxtəlifliyin pozulması həmin regionlara ciddi təhlükə yaradır. Həmin icmaların səsi bir çox halda onların metropoliyalarındakı rejimləri tərəfindən susdurulur.

Yeni Kaledoniya, Fransa Polineziyası, Mayot, Vallis və Futuna, Korsika, Reunion, Qvadelupa, Martinika, Fransa Qvianası, Sen-Pyer və Mikelon, Sent-Mert və Sent Varfolomey kimi Fransa müstəmləkələrinin xalqları, eləcə də Niderlandın Aruba, Kurasao, Sent-Maarten, Boneyr, Sent Yefstaxiy və Saba kimi müstəmləkələrinin xalqları bu gün XXI əsrdə də müstəmləkə hakimiyyətindən əziyyət çəkirlər. Hazırda Fransa Polineziyası və Yeni Kaledoniya 1946-1947-ci illərdə BMT tərəfindən qeyri-özünü idarə edən ərazilər kimi tanınır. Bununla belə onların dekolonizasiya prosesi hələ də yubanır.

Dövlət başçısı həmçinin xatırlatdı ki, 1966-1996-cı illər ərzində Fransa Polineziyası Fransanın apardığı 193 nüvə sınağı səbəbindən ətraf mühitin ciddi pozulması ilə üzləşib. Fransa orada torpaq və suyun kəskin dərəcədə zəhərlənməsi və radiasiyasına görə məsuliyyət daşıyır. Radiasiya səviyyəsi 4900 faizi keçib. Əgər buna Fransanın Əlcəzairdə illər boyu işğalı zamanı həyata keçirdiyi 17 nüvə sınağını əlavə etsək, həmin ölkə tərəfindən planetin ekosisteminə hansı zərərin vurulduğunu görmək olar. Fransanın dırnaqarası dəniz ərazilərində törətdiyi cinayətlər siyahısı göstərir ki. rejimin bu yaxınlarda insan hüquqlarının pozulmasından danışması tam absurddur. Prezident Makronun rejimi Yeni Kaledoniyada kanakların builki legitim etiraz aksiyasında 13 nəfərin həyatına son qoyub, 169 nəfəri yaralayıb. 1700 insan həbs edilib. Həmçinin bu il Martinika və Qvadelupada etirazlar zamanı 38 nəfər həbs olunub. Bütün bunlarla yanaşı, Fransa nə Avropa Komissiyası, nə Avropa Parlamenti, nə də ki, Avropa Şurasının Parlament Assambleyası tərəfindən pislənildi. Bu, siyasi riyakarlıqdır. Siyasi korrupsiya rəmzinə çevrilmiş iki təsisat - Avropa Parlamenti və Avropa Şurası Parlament Assambleyası günahsız insanların qətlinə görə Prezident Makronun hökuməti ilə məsuliyyəti bölüşürlər. Fransadakı bütün siyası məhbuslar dərhal azad olunmalıdır.

Möhtərəm Prezidentimiz maraqlı müqayisə də apararaq Avropa təsisatlarının bənzətməsini də etdi: "Əgər Avropanın əsas diplomatı Cozep Borel Avropanı bağ, dünyanın qalan hissəsini isə cəngəllik adlandırırsa, onda Avropa Parlamenti ilə Avropa Şurası Parlament Assambleyasından daha nə gözləmək olar?! Əgər biz cəngəlliyiksə, onda bizdən kənar durun və işlərimizə qarışmayın. Azərbaycan Qoşulmama Hərəkatının sədri kimi kiçik ada dövlətlərinə dəstək verib, COP29-un sədri kimi onları dəstəkləyəcək və gələcəkdə dostlarımızı dəstəkləməkdə davam edəcək".

Göründüyü kimi, Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən cənab İlham Əliyev tam müstəqil siyasəti ilə istənilən basqıya, yalana, iftiraya layiqli cavab verməklə gücünü, qüdrətini dünyaya nümayiş etdirir. COP29-a uğurlu evsahibliyi ilə cənab İlham Əliyev Azərbaycanın gücünə güc qatacaq.

BMT Təhlükəsizlik Şurasına, Qoşulmama Hərəkatı və Türk Dövlətləri Təşkilatı kimi beynəlxalq təsisatlara uğurlu sədrlik edən, Avropa Oyunlarının standartlarını müəyyənləşdirən, İslam Həmrəyliyi Oyunlarına, siyasi-iqtisadi sahələrə həsr edilən beynəlxalq forumlara, konfranslara ən layiqli şəkildə evsahibliyi ilə nüfuzunu artıran Azərbaycan indi müstəqillik tarixinin ən böyük tədbirinə - BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu qlobal sessiyasına uğurla evsahibliyi edir.

Bütün dünyanın nəzəri Azərbaycana çevrilib. Dünya ölkələri səbirsizliklə COP29-da alınacaq qərarları gözləyirlər.

*Əlbəttə ki, irimiqyaslı beynəlxalq tədbirlərin keçirilməsi ölkəmizin üzərinə böyük məsuliyyət qoyur. Ancaq dövlətimizin təcrübəsi yetərlidir ki, bu beynəlxalq konfransı da ən yüksək səviyyədə keçirsin. Ölkəmizin artıq bir neçə gündür yüksək səviyyədə evsahibliyi etdiyi bu beynəlxalq sammit Azərbaycanın istənilən konfransı keçirmək gücünə sahib olduğunu dünyaya nümayiş etdirir.*

**Səttar MÖHBALIYEV,**
*Milli Məclisin deputatı*

COP29 Baku Azerbaijan

# COP29 çərçivəsində Mərkəzi Asiya ölkələri iqlim dəyişikliyi və buzlaqların qorunması üzrə birgə bəyannamə imzalayıblar





BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) çərçivəsində "Mərkəzi və Qərbi Asiyada buzlaqların əriməsinin qarşısının alınması" üzrə birgə sessiya keçirilib.

AZƏRTAC xəbər verir ki, sessiyada buzlaqların əriməsinin törətdiyi problemlər müzakirə olunub.

Nəzərə çatdırılıb ki, buzlaqların əriməsi insanların miqrasiyasına səbəb olur, kənd təsərrüfatının və ümumilikdə iqtisadiyyatın inkişafdan geri qalmasına gətirib çıxarır. Müzakirələrdən sonra BMT-Mərkəzi Asiya ölkələrinin nazirləri "İqlim Dəyişikliyi, Buzlaqlar və Transsərhəd Əməkdaşlıq üzrə Tərəfdaşlıq" mövzusunda birgə Bəyannamə imzalayıblar.

Tədbirdə Azərbaycan, Qırğızıstan, Qazaxıstan və Özbəkistanın ətraf mühit nazirləri, həmçinin Asiya İnkişaf Bankı (AİB) və Yaşıl İqlim Fondunun nümayəndələri iştirak ediblər. Həmçinin Yaşıl İqlim Fondu və AİB tərəfindən maliyyələşdirilməsi nəzərdə tutulan "Buzlaqlardan Təsərrüfatlara" (G2F) proqramının icrasına başlanılması müzakirə olunub.

Azərbaycanın su çatışmazlığı və iqlim dəyişikliyindən artan təsirləri nəzərə alınaraq, G2F proqramı ölkənin milli maraqlarına uyğun olaraq xüsusi əhəmiyyət kəsb edir. İmzalanmış bəyannamə məlumat və təcrübə mübadiləsini, erkən xəbərdarlıq sistemlərinin inkişafını və iqlimə uyğun həllərin tətbiqini təşviq edir. Bu bəyannamə Mərkəzi və Qərbi Asiya regionunda buzlaqların qorunması və iqlim dəyişikliyinə qarşı tədbirlərin gücləndirilməsi istiqamətində mühüm addım olaraq dəyərləndirilir.

# COP29 çərçivəsində TDT dövlətləri ekologiya üzrə "Nazirlər Bəyannaməsi" imzalayıb

COP29 çərçivəsində Türk Dövlətləri Təşkilatına (TDT) üzv dövlətlərin ətraf mühit və ekologiya nazirlərinin ilk görüşü "Nazirlər Bəyannaməsi"nin imzalanması ilə yekunlaşıb.



AZƏRTAC xəbər verir ki, 2024-cü ilin iyulunda Şuşada TDT-nin Dövlət başçılarının Zirvə görüşündə imzalanmış "Qarabağ Bəyannaməsi"nin davamı olaraq TDT-yə üzv dövlətlər nazirlər səviyyəsində birgə ekoloji problemlərin həlli və dayanıqlı inkişafın təmin edilməsi istiqamətində əməkdaşlığı gücləndirmək niyyətlərini təsdiqləyiblər.

Görüşdə ətraf mühit sahəsində ortaq çağırışların həllinə nail olmaq üçün fikir mübadiləsi aparılıb, dayanıqlı inkişafı təşviq edən önəmli addımların vacibliyi, regional və beynəlxalq ekoloji problemlərin həllində birgə yanaşmanın əhəmiyyəti vurğulanıb.

Eyni zamanda TDT-yə üzv dövlətlər birgə mövqe və ortaq fəaliyyət planı yaratmaq istiqamətində perspektivləri müəyyənləşdiriblər.

Tərəflər dayanıqlı və davamlı gələcək naminə aktiv əməkdaşlığın davam etdirilməsi niyyətlərini ifadə ediblər.

Ətraf mühit və dayanıqlı inkişaf sahəsində COP29-da səslənən planetar çağırışların və təşəbbüslərin həlli istiqamətində TDT tərəfindən birgə fəaliyyət haqqında "Nazirlər Bəyannaməsi"nin Bakıda imzalanması COP29-a evsahibliyi edən Azərbaycanın beynəlxalq və regional səviyyədəki liderliyini daha da möhkəmləndirir.

COP29 çərçivəsində keçirilən görüşdə TDT-yə üzv dövlətlərin - Azərbaycan, Özbəkistan, Qazaxıstan, Qırğızıstan və Türkiyənin ekologiya və təbii sərvətlər nazirləri, həmçinin TDT-nin Baş katibi iştirak edib.

# Bakıda "Ədalətli keçid üçün sərmayələrin təşviqi" mövzusunda Yüksək Səviyyəli Dialoq təşkil edilib

COP29 sədrliyi tərəfindən konfransın dördüncü günündə "Ədalətli keçid üçün sərmayələrin təşviqi" mövzusunda Yüksək Səviyyəli Dialoq təşkil edilib.



AZƏRTAC xəbər verir ki, tədbirdə COP29 sədri adından Azərbaycan Respublikası energetika nazirinin müavini, COP29-un baş icraçı direktoru Elnur Soltanov çıxış edib. Bildirib ki, bu Yüksək Səviyyəli Dialoq ədalətli keçidə sərmayələrin yatırılması yollarının müzakirəsi üçün fürsətdir. O qeyd edib ki, aşağı karbonlu iqtisadiyyata keçid yalnız enerji sistemlərinin, sənaye proseslərinin, kənd təsərrüfatı fəaliyyətinin və torpaq istifadəsinin transformasiyasını deyil, həm də imkanların ədalətli paylanmasını tələb edən mürəkkəb, çoxölçülü bir mərhələdir.

"Just Transition Finance Lab"ın icraçı direktoru Nik Robins "Ədalətli Keçid Məqsədlərinə uyğunlaşmaq üçün maliyyənin səfərbər edilməsi" mövzusunda təqdimatla çıxış edib. Bildirib ki, az karbonlu iqtisadiyyata qlobal keçid böyük investisiyalar tələb edir. Bu keçid balanslı, əhatəli və ədalətli olmalıdır. Bu yüksəksəviyyəli dialoq sektorlar və regionlar arasında ədalətli keçid üçün maliyyənin səfərbər edilməsinə, inkişaf etməkdə olan ölkələr, xüsusilə iqlim dəyişikliyinin mənfi təsirlərinə həssas ölkələr və icmalar üçün sadələşdirilmiş çıxışın təmin edilməsinə yönələcək. Müzakirələr həm dövlət, həm də özəl sektorun maliyyələşdirmə mexanizmləri və çoxtərəfli əməkdaşlığın rolu üzərində cəmləşəcək.

Daha sonra COP29 sədrliyinin nümayəndəsi Jalə İbrahimovanın moderatorluğu ilə "Maliyyə bazarları, inkişaf bankları və hökumətlər uzunmüddətli, əhatəli keçid investisiyaları üçün kapitaldan necə istifadə edə bilərlər?" mövzusunda ikinci sessiya keçirilib. Sessiya iştirakçıları - Asiya İnfrastruktur İnvestisiya Bankının (AIIB) prezidenti Jin Liqun, Misir Ərəb Respublikasının planlaşdırma, iqtisadi inkişaf və beynəlxalq əməkdaşlıq naziri Rania al-Mashat, Filippinin Ətraf Mühit və Təbii Sərvətlər Departamenti katibinin müavini Maria Luvalhati Dorotan-Tiuseco, Cənubi Afrika Respublikasının Prezident yanında İqlim Komissiyasının icraçı direktoru Crispian Olver, Böyük Britaniyanın iqlim üzrə xüsusi nümayəndəsi xanım Rachel Kyte, Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyası Baş katibinin müavini Erik Mwezi Manzi mövzu ətrafında müzakirələr aparıblar.

Müzakirələrdə müxtəlif iqtisadiyyatlarda ədalətli keçid üçün lazım olan əsas maliyyə mexanizmləri və alətlərdən səmərəli istifadə, ədalətli keçidin maliyyələşdirilməsi üçün sektora xas problemlər və onların həll yollarının araşdırılması və digər istiqamətlərə toxunulub. Həmçinin inkişaf etməkdə olan ölkələrin maliyyə ehtiyaclarını ödəmək üçün beynəlxalq əməkdaşlığı təşviq etmək və keçid planlarını dəstəkləmək barədə fikirlər irəli sürülüb.

Tədbirin sonuncu hissəsində müxtəlif dövlətlərin və beynəlxalq təşkilatların nümayəndələri fikir mübadiləsi aparıblar.

# COP29 çərçivəsində İqlim, innovasiya, "yaşıl iqtisadiyyat" və ticarət üçün TDT Tərəfdaşlığına dair nazirlər görüşü keçirilib

Azərbaycanın evsahibliyi etdiyi COP29 çərçivəsində İqlim, innovasiya, "yaşıl iqtisadiyyat" və ticarət üçün Türk Dövlətləri Təşkilatı (TDT) Tərəfdaşlığına dair Nazirlər Görüşü keçirilib.





Bu barədə AZƏRTAC-a İqtisadiyyat Nazirliyindən bildirilib. Tədbirdə iqtisadiyyat naziri Mikayıl Cabbarov Azərbaycanın türk dövlətləri ilə əməkdaşlığı yüksək qiymətləndirdiyini və ölkələrimiz arasında inteqrasiya proseslərinə dəstək verdiyini vurğulayıb. Qeyd olunub ki, birgə təşəbbüslər iqlim fəaliyyəti və "yaşıl iqtisadiyyat" kimi istiqamətlərdə müsbət dəyişikliklərə nail olunmasına mühüm töhfələr verəcək. Bu məqsədlə üzv dövlətlərin yaşıl iqtisadi keçidini dəstəkləmək üçün platforma kimi İqlim, innovasiya, "yaşıl iqtisadiyyat" və ticarət üçün TDT Tərəfdaşlığı yaradılır. Bu təşəbbüs iqlimə uyğun "ağıllı inkişaf" və ədalətli "yaşıl keçid" üçün daha sıx əməkdaşlığın təşviqi məqsədi daşıyır. Bu çərçivədə milli "yaşıl inkişaf" strategiyalarının hazırlanması, "yaşıl enerji" zonalarının yaradılması, iqlimin maliyyələşdirilməsi mexanizmlərinin təkmilləşdirilməsi, yaşıl KOB subyektlərinin və startapların yaradılmasını dəstəkləmək və s. mühüm işlərin reallaşdırılması hədəflənir.

Tədbirdə TDT-nin Baş katibi Kubanıçbek Ömüralıyev, Beynəlxalq İslam Ticarət Maliyyə Korporasiyasının əməliyyatlar üzrə baş direktoru Nazim Nurdali, Qazaxıstanın Baş nazirinin müavini və milli iqtisadiyyat naziri Nurlan Baybazarov, Özbəkistanın investisiya, sənaye və ticarət naziri Ləziz Kudratov, Qırğızıstanın iqtisadiyyat və ticarət naziri Sanjarbek Bolotov, Türkiyənin ticarət nazirinin müavini Mustafa Tuzcu, Azərbaycanın Xarici İşlər Nazirliyinin departament rəhbəri Elmar Məmmədov çıxış ediblər. Çıxışlarda türk ölkələrində həyata keçirilən iqlim və "yaşıl iqtisadiyyat" siyasəti barədə məlumat verilib. Müxtəlif istiqamətlər üzrə ölkələrarası tərəfdaşlığın və inteqrasiya proseslərinin güclənməsinin ümumi rifah və qlobal çağırışlara adekvat yanaşma baxımından vacibliyi vurğulanıb. Bildirilib ki, tərəfdaşlıq vasitəsilə üzv dövlətlər davamlı inkişafa, iqlim problemlərinin həllinə və regional iqtisadi artımın təşviqinə sadiqliklərini nümayiş etdirirlər. Azərbaycanın türk dövlətləri arasında tərəfdaşlığın güclənməsinə mühüm töhfələri vurğulanıb.

Tədbirdə təşkilata üzv dövlətlərin müvafiq dövlət qurumlarının rəhbərlərinin İqlim, innovasiya, "yaşıl iqtisadiyyat" və ticarət üçün TDT Tərəfdaşlığının yaradılmasına dair Bakı Nazirlər Bəyanatı imzalanıb. Bəyanat innovasiya, davamlılıq və yaşıl inkişafın rəhbərlik etdiyi gələcək üçün ortaq baxışı ortaya qoyur.

# Energetika naziri moldovalı və mərakeşli həmkarları ilə görüşüb

Energetika naziri Pərviz Şahbazov COP29 tədbiri çərçivəsində Moldovanın energetika naziri Viktor Parlikov ilə görüşüb.




AZƏRTAC Energetika Nazirliyinin yaydığı məlumata istinadən xəbər verir ki, görüşdə ikitərəfli enerji gündəliyinin aktual məsələlərinə dair müzakirələr aparılıb.

Azərbaycanda "yaşıl enerji" keçidi və müxtəlif istiqamətlərdə həyata keçirilən "yaşıl enerji" dəhlizləri ilə bağlı fikir mübadiləsi edilib. Bərpaolunan enerji, enerji səmərəliliyi və enerji tənzimlənməsi sahələrində əməkdaşlığın genişləndirilməsi üçün imkanlar dəyərləndirilib. Enerji səmərəliliyi, bərpaolunan enerji mənbələrinin təşviqi və enerji tənzimlənməsi sahələrində əməkdaşlıq memorandumlarının imzalanması razılaşdırılıb. Nazir Mərakeşin enerji keçidi və dayanıqlı inkişaf naziri Leila Benali ilə də görüşüb. Görüşdə hər iki ölkədə enerji sektorunda inkişaf prosesləri və yaşıl enerji keçidi təcrübəsi bölüşülüb. Bərpaolunan enerji, qaz infrastrukturu və perspektivli layihələr üzrə əməkdaşlıq potensialı nəzərdən keçirilib. COP29-un enerji təşəbbüslərinə dəstək ifadə olunub.

# COP29 çərçivəsində "Metan emissiyalarının azaldılması məqsədilə 6-cı maddəyə əsaslanan iqlim maliyyəsi" mövzusunda tədbir olub

Bakıda keçirilən COP29 çərçivəsində SOCAR-ın təşkilatçılığı ilə "Metan emissiyalarının azaldılması üçün iqlim maliyyəsi haqqında maddə 6-dan faydalanmaq" mövzusunda tədbir keçirilib.



AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən Azərbaycan energetika nazirinin müavini Elnur Soltanov metan emissiyasının azaldılması barədə həyata keçirilən işlərdən danışıb.

Qeyd olunub ki, metan emissiyasının azaldılması istiqamətində görülən işlərin maliyyələşməsi əhəmiyyətlidir. Sərmayədarlar, yerli və beynəlxalq maliyyə institutları bu məsələni diqqətdə saxlayaraq problemin aradan qaldırılmasında yaxından iştirak etməlidirlər.

SOCAR-ın vitse-prezidenti Əfqan İsayev çıxış edərək təmsil etdiyi şirkətin metan emissiyasının azaldılması üçün maliyyə mənbələrinin inkişafı barədə danışıb. Qeyd olunub ki, hər bir şirkət bu məsələni gündəlikdə saxlamalı və emissiyanın azaldılması üçün maliyyə ayırmalıdırlar. Sonra metan emissiyasının azaldılması haqqında təqdimat olub.

Dünyada və ayrı-ayrı iri şirkətlər tərəfindən görülən tədbirlər, metanın ekoloji mühitə təsiri, onun azaldılması və sıfır emissiyaya nail olmağın yolları barədə məlumat verilib. Nəzərə çatdırılıb ki, metan qazının tullantıları temperaturun yüksəlməsinə səbəb olan amillərdən biridir və onun atmosferə atılmasının qarşısı tədricən alınmalı və sıfır emissiyaya doğru irəliləmək lazımdır. Bu işdə yeni texnologiyaların tətbiqi də zəruridir.

Təqdimatdan sonra müzakirələr başlayıb. Müzakirələrdə "SOCAR Trading" şirkətinin nümayəndəsi Taleh Musayev, Beynəlxalq Ətraf Mühitin Mühafizəsi Fondunun vitse-prezidenti Mark Brovensten, "Standard Chattered" bankının davamlılıq üzrə rəhbəri Marisa Diruy, Neft və Qaz İqlim Təşəbbüsü Təşkilatının (OGCİ) icraçı direktoru Julyen Peres və başqaları iştirak ediblər.

Müzakirələrdə nəzərə çatdırılıb ki, hazırda metan emissiyası 19 faiz təşkil edir ki, bu da çox problemlidir. Bu faizin azaldılması üçün mütləq maliyyələşmə lazımdır.

COP29 Baku Azerbaijan

# Yaşıl Rəqəmsal Fəaliyyətin yüksəksəviyyəli açılış sessiyası keçirilib





Rəqəmsal texnologiyalar sənayesində davamlılıq üzrə əməkdaşlığı gücləndirmək üçün COP29 çərçivəsində Yaşıl Rəqəmsal Fəaliyyət trekinin yüksəksəviyyəli açılış sessiyası keçirilib.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən AZƏRTAC-a bildirilib ki, nazir Rəşad Nəbiyev iqlim dəyişikliyi ilə mübarizədə güclü vasitə olan rəqəmsallaşmanın potensialından tam yararlanmaq üçün dayanıqlı infrastruktura və ətraf mühitə təsirə üstünlük verən balanslaşdırılmış yanaşmaya ehtiyac olduğunu vurğulayıb: "Yalnız rəqəmsallaşma vasitəsilə davamlı gələcəyi təmin etmək üçün lazım olan sürət, dəqiqlik və çevikliyə nail ola bilərik".

Müzakirələrdə texnologiya sektorunda emissiyaların azaldılmasının zəruriliyi və ekoloji həllərdə texnologiyanın rolu vurğulanıb. Sessiya rəqəmsallaşma və iqlim fəaliyyətinə dair tematik müzakirələrlə davam edib, uğurlu əməkdaşlığı nümayiş etdirib. Belə ki, il ərzində çoxtərəfli Yaşıl Rəqəmsal Fəaliyyətin əsas nəticələri və tərəqqi yeniləmələri diqqətə çatdırılıb.

Çıxış edənlər bu sessiyanın ekoloji problemlərin həllində və hamı üçün dayanıqlı gələcəyin qurulmasında rəqəmsal həllərin oynaya biləcəyi mühüm rolu vurğulayan dinamik proqramın başlanğıcı olduğunu bildiriblər. Beləliklə, COP29-da Yaşıl Rəqəmsal Fəaliyyət treki fəal iştirakı, mənalı dialoqu təşviq etmək və birgə iqlim fəaliyyətində innovativ ideyaları oyatmaq üçün nəzərdə tutulub.

Qeyd olunub ki, müzakirələr və seminarlar silsiləsi davamlılıq standartlarının əhəmiyyəti, "Xalis Sıfır" İKT sektoruna aparan yol, iqlim dəyişikliyi ilə mübarizə və erkən xəbərdarlıq sistemləri üçün süni intellektdən istifadə edilməsinə yönələcək.

Məlumat üçün bildirək ki, Yaşıl Rəqəmsal Fəaliyyət təşəbbüsü COP29 sədrliyinin Fəaliyyət Gündəliyinə daxil olan 14 qlobal təşəbbüsdən biridir. Bu təşəbbüs tək bir hadisə deyil, həm də innovasiya və dayanıqlığa əsaslanan rəqəmsallaşmanın gələcək COP-larda prioritet olaraq qalmasını təmin edərək davamlı sürət yaratmağa çağırışdır. COP29 çərçivəsində təşəbbüsün yekun tədbiri - Yaşıl Rəqəmsal Fəaliyyət üzrə yüksəksəviyyəli "dəyirmi masa" COP29 çərçivəsində ilk Rəqəmsallaşma Günündə - noyabrın 16-da keçiriləcək. Tədbirdə dünyanın bir sıra ölkələrindən dövlət və özəl sektor nümayəndələri, o cümlədən İKT sahəsi üzrə qlobal miqyasda aparıcı tərəfdaşlar iştirak edəcəklər.

"Dəyirmi masa"da bir sıra kritik mövzular, o cümlədən rəqəmsal innovasiyanın iqlim strategiyalarına inteqrasiyası, iqlim monitorinqinin rəqəmsal alətlərlə artırılması, rəqəmsal inklüzivliyin təşviqi və rəqəmsal texnologiyaların ətraf mühitə təsirlərinin azaldılması müzakirə ediləcək. "Dəyirmi masa"nın sonunda dayanıqlı və yaşıl dünya naminə bütün maraqlı tərəflərin iştirakı ilə yekun sənəd - Yaşıl Rəqəmsal Fəaliyyət üzrə Bəyannamənin qəbul edilməsi gözlənilir.

Yaşıl Rəqəmsal Fəaliyyət üzrə Bəyannamə rəqəmsal texnologiyaların iqlim dəyişikliyi ilə mübarizədəki potensialını tanımaqla yanaşı, dayanıqlı və inklüziv praktikaların təşviqinə də əhəmiyyətli bir addımdır.

Sessiya Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (RİNN), COP29 sədrliyi, Beynəlxalq Telekommunikasiya İttifaqı (BTİ) və BMT-nin Rəqəmsal Texnologiyalar Agentliyi tərəfindən təşkil olunub.

# COP29 çərçivəsində iqlim fəaliyyətinin inkişaf maliyyəsinə inteqrasiyası müzakirə edilib







Bakıda keçirilən COP29 çərçivəsində noyabrın 14-də "İqlim fəaliyyətinin inkişaf maliyyəsinə inteqrasiyası" mövzusunda müzakirə təşkil edilib.



AZƏRTAC xəbər verir ki, tədbir İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) İnkişaf Yardımı Komitəsinin sədri Karsten Sauerin moderatorluğu ilə keçirilib.

COP29-un baş danışıqçısı, Azərbaycanın xarici işlər nazirinin müavini Yalçın Rəfiyev bildirib ki, iqlim və inkişaf fəaliyyətinin inteqrasiyası davam edən prosesdir. Biz inkişaf sahəsində əməkdaşlıq sektorunun necə dəyərli təcrübə qazandığını, prioritetlərin və siyasətlərin uyğunlaşdırılması, ssenarilərin maksimum səviyyəyə çatdırılması ilə bağlı yaxşı nümunələr gördük. İqlim məqsədləri üçün rəsmi inkişaf yardımı son on ildə tədricən artaraq 2022-ci ildə ümumi inkişaf yardımının üçdəbirinə çatıb. İqlim dəyişmələrinin inkişaf maliyyəsinə daxil edilməsi barədə ümumi fikrin olması çox əhəmiyyətlidir. İnkişaf maliyyəsi və iqlim maliyyəsi bir-birini əvəz edə bilməz. İnkişaf maliyyəsinin təminatçıları kollektiv təcrübəmizə əsaslanaraq, xüsusilə də iqlimin digər Dayanıqlı İnkişaf Məqsədlərinin mühüm hərəkətverici amil olduğunu nəzərə alaraq onun mövcud işlər siyahısına daxil olunmasını davam etdirməlidir.

"Qəbul etməliyik ki, ən az inkişaf etmiş ölkələr üçün inkişaf yardımının bir hissəsi olaraq özəl maliyyənin payı çox aşağıdır. Buna görə də ən az inkişaf etmiş ölkələr üçün də daxil olmaqla müvafiq iqlim fəaliyyətinin inkişaf strategiyalarını necə genişləndirə biləcəyimiz barədə fikirlərinizi eşitməyi səbirsizliklə gözləyirik. Açıq şəkildə qeyd edim ki, iqlim maliyyəsini təmin etmək iqlim məqsədlərimizə çatmaq üçün mühüm amildir. Biz müvafiq mənbələrdən maliyyəni sürətlə genişləndirməli, inkişaf edən ölkələr üçün ictimai maliyyənin artırılmasından əlavə onun kritik rolunu nəzərə almalıyıq", - deyə Yalçın Rəfiyev bildirib.

COP29-un baş danışıqçısı diqqətə çatdırıb ki, müvafiq mənbələrdən təmin edilən maliyyənin həcmi sürətlə genişləndirilməli, inkişaf edən ölkələr üçün ictimai maliyyənin artırılmasından əlavə, onun kritik rolu nəzərə alınmalıdır.

İnkişaf etməkdə olan ölkələr üçün dövlət maliyyəsini artırmaqdan başqa, bütün beynəlxalq maliyyə strukturunun sistem miqyaslı yanaşmaların qəbulu da daxil olmaqla gələcək iqlim maliyyəsi hədəfləri və inkişaf nəticələrinin səmərəliliyini maksimum səviyyəyə çatdırmasının önəmini vurğulayan Yalçın Rəfiyev deyib: "İqlim Dəyişmələri üzrə Hökumətlərarası Panelin iqlim dəyişikliyinin mənfi təsirləri ilə bağlı ssenariləri hər il iqlim fəlakətləri ilə üst-üstə düşür. Son aylarda təkcə Karib dənizində Beverli qasırğasını, Hindistanda, Banqladeşdə, Nigeriyada, Çadda və ən son İspaniyada ölümcül daşqınları gördük. Gəlin, bu pilot layihəyə əməkdaşlıq və qətiyyət ruhu ilə yanaşaq ki, iqlim və inkişafla bağlı maliyyəni artıra bilək. COP29-un qlobal səyləri iqlim dəyişikliyi ilə mübarizəyə səfərbər etməkdə Paris Sazişinin effektivliyini vurğulayaraq, hamımızı bu məqamda qətiyyətli və dəqiq addımlar atmağa çağırıram".

Azərbaycan Respublikasının Beynəlxalq İnkişafa Yardım Agentliyinin rəisi Elməddin Mehdiyev bildirib ki, ölkəmiz beynəlxalq cəmiyyətin etibarlı və məsuliyyətli üzvü kimi müxtəlif coğrafiyalarda davamlı inkişafın təşviqinə böyük əhəmiyyət verir, qlobal miqyasda hərtərəfli tərəqqinin stimullaşdırılması üçün beynəlxalq səylərə sadiq qalır. E.Mehdiyev xatırladıb ki, Azərbaycanın müstəqilliyin ilk illərində üzləşdiyi münaqişənin ağır nəticələri, o cümlədən ərazilərimizin 20 faizinin işğalı və bir milyondan çox insanın məcburi köçkün vəziyyətinə düşməsi ölkənin sosial-iqtisadi vəziyyətinə sarsıdıcı təsir göstərib. Ancaq uğurlu daxili və xarici siyasət, davamlı tərəqqi və dinamik iqtisadi inkişaf nəticəsində Azərbaycan qarşıya qoyulmuş maneələri dəf edə bildi və uğurla donor ölkəyə çevrildi. Həmrəylik ruhu, qlobal rifah, eləcə də ölkələr və millətlər arasında dostluq münasibətlərinin gücləndirilməsinə töhfə vermək Azərbaycanın xarici siyasətinin ayrılmaz hissəsidir.

Sonra OECD-nin inkişaf əməkdaşlığı üzrə direktoru xanım Mariya del Pilar Qarrido Qonzalonun tədbir iştirakçılarına videomüraciəti nümayiş etdirilib. Müraciətdə iqlim dəyişikliyi ilə mübarizənin dayanıqlı inkişafla birbaşa əlaqəli olduğunu bildirən direktor dünya ölkələrinin davamlı inkişafının təmin olunmasında bu sahədə fəaliyyətin mühüm rol oynadığını diqqətə çatdırıb.

Tədbir mövzu ətrafında müzakirələrlə davam edib. Qeyd olunub ki, iqlimlə bağlı görülən işlərin əksəriyyəti mövcud beynəlxalq maliyyə sistemi vasitəsilə həyata keçirilə bilər.

# COP29 çərçivəsində Gənclərin Beynəlxalq Dayanıqlı İnnovasiya Sammiti reallaşıb

COP29 çərçivəsində noyabrın 14-də Gənclərin Beynəlxalq Dayanıqlı İnnovasiya Sammiti keçirilib.

AZƏRTAC xəbər verir ki, sammitdə dayanıqlı inkişaf və iqlim dəyişikliyi ilə mübarizədə gənclərin rolunun vacibliyi vurğulanıb.

Tədbirdə Gənclərin Beynəlxalq Dayanıqlı İnnovasiya Sammitinin gənclər səfiri Annie Bai gənclərin dayanıqlılıq sahəsində innovativ həllər irəli sürmək potensialına malik olduğunu vurğulayıb və onların səylərinin qlobal miqyasda əhəmiyyətli təsir göstərə biləcəyini qeyd edib. O, həmçinin gənclərin bilik və bacarıqlarının artırılmasının, onların liderlik qabiliyyətlərinin inkişaf etdirilməsinin vacibliyini diqqətə çatdırıb.

İqlim üzrə Qlobal Universitetlər Alyansının gənclər üzrə baş məsul şəxsi Alis Ho müxtəlif ölkələrdən olan gənclərin bir araya gəlməsinin və təcrübə mübadiləsinin əhəmiyyətinə toxunub. O, xüsusilə texnologiya sahəsindəki innovasiyaların Dayanıqlı İnkişaf Məqsədlərinə çatmaqda mühüm rol oynaya biləcəyini vurğulayıb.

Milli İqlim Dəyişməsi Strategiyası və Beynəlxalq Əməkdaşlıq Mərkəzinin sədr müavini Çen Cihua, Gənclərin Beynəlxalq Dayanıqlı İnnovasiya Sammitinin həmtəsisçisi Şanzi Cianq, İqlim Gələcəyi Qlobal İnnovasiya Laboratoriyasının təsisçi direktoru, Qida Sistemi Keçidi Qlobal Sürətləndiricisinin sədri, Pekin Universiteti Karbon Neytrallığı İnstitutunun dosenti və tədqiqat professoru Binbin Vanq, Qlobal SDG-lər və Liderlik İnkişaf Mərkəzinin nümayəndəsi Cek Huanq, eləcə də innovasiya məsləhətçisi Vanq Yanmin çıxışlarında gənclərin iqlim dəyişikliyi ilə mübarizədə mühüm rol oynadıqlarını vurğulayıblar. Onlar iqlim dəyişmələrinə qarşı mübarizədə beynəlxalq əməkdaşlığın əhəmiyyətini qeyd edərək, bu işbirliyi çərçivəsində gənclərin təşəbbüslərinin vacibliyinə diqqət çəkiblər. Dayanıqlı inkişaf istiqamətində gənclərin innovativ həllərə töhfə vermələrinin zəruriliyi vurğulanıb və sammitin bu sahədə gənclərə imkanlar yaratmaqda xüsusi əhəmiyyət daşıdığı qeyd edilib.

Sammit dayanıqlı inkişaf və iqlim dəyişikliyi ilə bağlı gənclərə təcrübə və ideyalarını paylaşmaq üçün geniş imkanlar yaradan platforma kimi yüksək qiymətləndirilib.

Sonda gənclər arasında qlobal problemlərə dair müxtəlif innovativ həll yolları müzakirə olunub və davamlı əlaqələrin qurulmasına dair təşəbbüslər irəli sürülüb.

# COP29 sədrliyi və Çoxtərəfli İqlim Fondları iqlim təsirinin fəsadları ilə bağlı birgə tədbir olub

Noyabrın 14-də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası çərçivəsində COP29 Sədrliyi və MCF-nin (Çoxtərəfli İqlim Fondları) "İqlim təsirini sürətləndirmək" adlı birgə tədbiri keçirilib.





AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən COP29-un baş danışıqçısı Yalçın Rəfiyev bu gün iqlim dəyişmələri ilə mübarizənin ən mühüm aspektlərinin birinin - iqlim maliyyəsinin müzakirə edildiyini bildirib. Qeyd edib ki, iqlim maliyyəsi qlobal enerji keçidini, eləcə də karbon emissiyasının azaldılmasını və iqlimə davamlı gələcəyi təmin etmək üçün olduqca zəruridir. Adətən iqlim layihələrinə riskli investisiya kimi baxılır və bu zaman da maliyyə xərcləri artır, ancaq investisiyalar azalır. Y.Rəfiyev bu məsələdə Çoxtərəfli İqlim Fondunun çox böyük rolu olduğunu qeyd edib. O diqqətə çatdırıb ki, MCF özündə çoxlu sayda iqlimlə bağlı fondları birləşdirir: "Bu illər ərzində bu fondlar birlikdə iqlimə 50 milyard dollardan çox investisiya ediblər".

COP29-un baş danışıqçısı Çoxtərəfli İqlim Fondunun öz fəaliyyətini dərin əməkdaşlığa fokuslanaraq davam etdirəcəyinə əmin olduğunu deyib.

Yaşıl İqlim Fondunun (Green Climate Fund) icraçı direktoru Mafalda Duarte bildirib ki, COP konfranslarında iqlim maliyyə fondları ikinci dəfə bir araya gəlir: "COP28-də biz vacib çağırışla çıxış etdik. Bu çağırışda biz gələcək planlarımıza nəzər saldıq. Mən uzun illərdir ki, iqlim sahəsində çalışıram və öz təcrübəmə əsasən deyə bilərəm ki, bizə lazım olan ən mühüm məsələ inkişaf etməkdə olan ölkələrin iqlim maliyyəsi ilə bağlı ehtiyacını qarşılamaqdır".

M.Duarte uzun müddətdir ki, iqlim maliyyəsinə çıxış imkanlarının çətinliyindən bəhs edildiyini vurğulayaraq deyib: "İqlim maliyyəsi milyonlarla təşkilatları əhatə edir. Qeyd edim ki, iqlim maliyyəsi ilə təkcə iqlimlə bağlı təşkilatlar məşğul olmur. Ən vacib məqam bundan ibarətdir ki, biz bütün maraqlı tərəflər bir araya gələrək iqlim maliyyəsinə asan çıxışları təmin etməliyik".

Adaptasiya Fondunun sədri Mikko Ollikaynen uzun illərdən bəri müxtəlif iqlim maliyyə fondları ilə birlikdə fəaliyyət göstərdiyini qeyd edib: "İqlim böhranının artdığı bir vaxtda biz iqlim maliyyəsinə asan çıxış yollarını təmin etməliyik. Bu sahədə əldə etdiyimiz nəticələrdən məmnunam. Əlimizdə olan bütün resursları iqlim maliyyəsinə yönləndirməliyik. Bizim Adaptasiya Fondumuz da iqlim maliyyəsinə lazım olan töhfəni verməyə hazırdır və bu sahədə də biz başqa fondlarla da əməkdaşlıq edirik".

COP29 Baku Azerbaijan



## FIFA prezidenti COP29-un təşkilinə görə Prezident İlham Əliyevə təşəkkür edib

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) iştirak etmək üçün Bakıya gələn FIFA prezidenti Canni İnfantino dəvətə görə Prezident İlham Əliyevə təşəkkür edib.

AZƏRTAC xəbər verir ki, funksioner Azərbaycana səfəri ilə bağlı sosial şəbəkə hesabında video paylaşıb. Ali futbol qurumunun rəhbəri bildirib ki, dünya liderlərinin iqlim dəyişikliyi ilə bağlı qlobal problemi həll etmək məqsədilə toplaşdığı COP29-a dəvət almaq onun üçün şərəfdir.

C.İnfantino Prezident İlham Əliyev və digər dövlət başçıları, hökumət nümayəndələri ilə planetin, eləcə də futbolun gələcəyi barədə müzakirələr apardığını vurğulayıb: "FIFA beynəlxalq təşkilat olaraq, ətraf mühitin və iqlimin qorunmasına ciddi yanaşır. Biz yüksəkkeyfiyyətli müxtəlif beynəlxalq sertifikatlaşdırılmış layihələrə investisiyalar etməklə iqlimlə bağlı fəaliyyətə dəstək olmaq, eləcə də bu mübarizəyə töhfə vermək məqsədilə proqramlar həyata keçirmişik. Bu tədbirdə iştirak edən hər kəsin ortaq məqsədi var: uşaqlarımız və onların birgə gələcəyi. FIFA iqlim dəyişikliyi ilə bağlı mühüm qlobal məsələdə öz rolunu oynamağa davam edəcək. Prezident İlham Əliyevə, AFFA-ya və Azərbaycandakı hər kəsə təşəkkür edirəm".

# "ASAN xidmət" COP29-da "yaşıl idarəetmə" ilə bağlı beynəlxalq forum təşkil edib

Noyabrın 14-də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 çərçivəsində Yaşıl Qabaqcıl İdarəetmə üzrə Nazirlər Forumu keçirilib.

Bakı Olimpiya Stadionunda "mavi zona"da baş tutan tədbir Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin, BMT-nin Asiya və Sakit Okean üzrə İqtisadi və Sosial Komissiyasının (UN ESCAP) və "Apolitical Group Limited"in birgə təşkilatçılığı ilə reallaşdırılıb.

AZƏRTAC xəbər verir ki, forum interaktiv dialoqu və əməkdaşlığı təşviq etmək üçün hökumətlərin, beynəlxalq təşkilatların, aparıcı ekspertlərin və akademik dairələrin nümayəndələrini bir araya gətirib. Ümumilikdə 7 beynəlxalq təşkilatın və 20-yə yaxın ölkədən aidiyyəti nazirliklərin rəhbərləri və müxtəlif şirkətlərin, elmi-tədqiqat institutlarının nümayəndələri iştirak ediblər.

Açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev, BMT Baş katibinin müavini, Asiya və Sakit Okean üzrə İqtisadi və Sosial Komissiyanın icraçı katibi Armida Salsiah Aliscahbana, ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malik, "Apolitical Group Limited"in icraçı direktoru Robin Skot və İslam İnkişaf Bankının vitse-prezidenti Zamir İqbal çıxış ediblər.






Çıxışçılar "yaşıl texnologiya"ların genişləndirilməsində, qabaqcıl idarəçiliyin inkişaf etdirilməsində və dövlət xidmətlərinin ətraf mühitə, sosial davamlılığa uyğunlaşdırılmasında beynəlxalq əməkdaşlığın əhəmiyyətini vurğulayıblar. "ASAN xidmət" modeli kimi innovativ modellərin davamlı infrastruktura, inklüzivliyin təşviqinə və iqlim dəyişikliklərinə cavab vermək üçün beynəlxalq əməkdaşlığa necə töhfə verə biləcəyi diqqətə çatdırılıb.

İlk sessiya "Ekoloji çağırışlara cavab üçün dövlət xidmətlərində innovasiyaların təkmilləşdirilməsi" mövzusuna həsr olunub. Sessiyada Braziliyanın, Zimbabvenin, Barbadosun, Keniyanın və Qambiyanın müvafiq nazirliklərinin rəhbərləri çıxış ediblər. Əsas müzakirələr "yaşıl idarəetmə"də davamlılığın və səmərəliliyin təmin edilməsi məqsədilə dövlət qulluqçularının bacarıqlarının artırılması, dövlət xidmətlərinin inkişafı proseslərinin qlobal iqlim məqsədləri ilə inteqrasiyası və bu çərçivədə innovativ yanaşmalar olub.

İkinci sessiya isə "Yaşıl idarəetmədə qlobal əməkdaşlığın rolu" mövzusuna həsr edilib. Sessiyada BMT-nin, İslam Ölkələrinin Statistik, İqtisadi və Sosial Araşdırmalar və Təlim Mərkəzinin (SESRIC), Serbiyanın, Qazaxıstanın, Seneqalın müvafiq qurumlarının rəhbərləri çıxış ediblər. Əsas müzakirələr dövlət xidmətlərinin göstərilməsində davamlılığın təmin edilməsi və fəaliyyətin səmərəliliyinin optimallaşdırılması, bu istiqamətdə "yaşıl texnologiya"ların inkişafı və tətbiqinin təşviqi, dövlət qurumlarının milli səviyyədə müəyyən edilmiş töhfələr və beynəlxalq iqlim öhdəliklərinin həyata keçirilməsində rolu olub.

Forum zamanı Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının, eləcə də Uqandanın, Efiopiyanın aidiyyəti nazirliklərinin rəhbərləri müvafiq istiqamətdəki qabaqcıl təcrübələrə dair təqdimatlar ediblər.

Süni intellekt təcrübələri mövzusuna həsr olunmuş xüsusi sessiyada isə Misirin müvafiq qurumunun və Rumıniyanın sözügedən sahə üzrə ixtisaslaşmış təşkilatının rəhbərləri çıxış ediblər.

Moderatoru məşhur jurnalist, futuroloq (CNN, TEDx, Forbes) İan Xan olan forum bağlanış nitqləri və müzakirələrlə yekunlaşıb.

Tədbirdə "ASAN xidmət" mərkəzlərində alternativ enerji mənbələrinə keçid" layihəsi ilə bağlı məlumat diqqətə çatdırılıb və bununla əlaqədar videoçarx da nümayiş etdirilib.

## "Caspian Energy" jurnalının COP29-a həsr olunmuş xüsusi buraxılışı Bolqarıstan Prezidentinə təqdim olunub

Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində "Caspian Energy Club"ın sədri və qrupun baş icraçı direktoru Təlman Əliyev Bolqarıstan Respublikasının Prezidenti Rumen Radevə jurnalın COP29-a həsr olunmuş xüsusi buraxılışı təqdim edib.

Bu barədə AZƏRTAC-a "Caspian Energy Club"ın Mətbuat xidmətindən bildirilib.

Qeyd edilib ki, "Caspian Energy" jurnalının xüsusi buraxılışında Rumen Radev ilə eksklüziv müsahibə yer alıb. Bu müsahibədə dövlət başçısı Azərbaycan, Bolqarıstan, Rumıniya, Macarıstan və Slovakiya arasında reallaşması nəzərdə tutulan "Həmrəylik halqası" layihəsi, eləcə də Bolqarıstan ilə Azərbaycan arasında ikitərəfli əməkdaşlığın geniş imkanları haqqında ətraflı məlumat verib.

Bolqarıstan Prezidenti "Caspian Energy Club"ın dəstəyi ilə nəşr edilən "Caspian Energy" jurnalının qlobal enerji və iqlim problemlərinə dair aktual məlumatların yayılmasında verdiyi töhfəni yüksək qiymətləndirib. Onun sözlərinə görə, bu, "Caspian Energy" jurnalının Xəzər, Qara dəniz və Baltikyanı ölkələrin iş dünyası üçün mühüm məlumat mənbəyi olduğunu bir daha təsdiqləyir. Prezident həmçinin jurnalda dərc olunan məqalələrin davamlı inkişaf üçün dəyərli fikir və təkliflər təqdim etdiyini bildirib. Sonda Bolqarıstan Prezidenti əməkdaşlığın daha da dərinləşəcəyinə ümidvar olduğunu deyib və jurnalın beynəlxalq aləmdə nüfuzunu gücləndirməsini arzulayıb.

"Caspian Energy Club"ın dəstəyi ilə dünyanın 70 ölkəsində nəşr edilən "Caspian Energy" jurnalının hər buraxılışında müxtəlif ölkələrin prezidentləri və Baş nazirləri, habelə iri transmilli şirkətlərin başçıları ilə müsahibələr, aparıcı ekspertlərin şərhləri və analitik materiallar dərc olunur. Müxtəlif hesablamalara görə, "Caspian Energy" jurnalı Xəzər-Qara dəniz və Baltik regionlarının investisiyalar, "yaşıl iqtisadiyyat", ənənəvi və "yaşıl enerji", sənaye və innovativ texnologiyalar üzrə beş aparıcı nəşr sırasındadır. Jurnal həmin regionlarda öz fəaliyyətini müəyyənləşdirmək istəyən bir çox sərmayədarlar üçün oriyentirdir.

"Caspian Energy Club" dünyanın 50 ölkəsindən 5000-dən çox şirkəti birləşdirən dinamik və inkişaf edən regional təşkilatdır. Biznes-hökumət dialoqunun fəal iştirakçısı olan "Caspian Energy Club"ın əsas məqsədi Azərbaycanda və "Caspian Energy Club"ın fəaliyyət göstərdiyi digər ölkələrdə investisiya və işgüzar mühitin yaxşılaşdırılmasından, həmçinin B2G, B2B və B2C formatlarında dialoqların stimullaşdırılmasından və onlarda fəal iştirak etməkdən ibarətdir.

Biznes-"networking" üçün beynəlxalq platforma olan "Caspian Energy Club" mütəmadi olaraq müxtəlif tədbirlər təşkil edir.

Mənzil-qərargahı Bakıda yerləşən "Caspian Energy Club"ın əsas fəaliyyəti Mərkəzi Dəhliz ölkələrini əhatə edir. "Caspian Energy Club"ın həmçinin Almaniya, BƏƏ, Böyük Britaniya, Çexiya, Estoniya, Finlandiya, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Latviya, Özbəkistan, Polşa, Türkiyədə rəsmi nümayəndəlikləri, habelə dünyanın müxtəlif ölkələrində səlahiyyətli nümayəndələri var.

"Caspian Energy Club International" 2023-cü ildə "Caspian Energy Club"ın beynəlxalq layihələrini idarə etmək məqsədi ilə yaradılmışdır. 5 il ərzində "Caspian Energy Club International" dünyanın 100 ölkəsində "Caspian Energy Club"ın fiziki ofislərini açmağı planlaşdırır. "Caspian Energy Club International"ın əsas funksiyalarından biri, klubun fəaliyyətinin müxtəlif ölkələrdə idarə edilməsi və "Caspian Energy Club" qrupuna daxil olan bütün xarici ofislər və şirkətlər üçün "yaşıl iqtisadiyyat", "yaşıl energetika", "yaşıl maliyyə", rəqəmsal transformasiya və "yaşıl və innovativ texnologiya"ların tətbiqi sahələrində layihələrin lobbiləşdirilməsi və təşviqi üzrə vahid strateji planın formalaşdırılmasıdır.

## İqlim, innovasiya və ticarət üzrə CAREC Tərəfdaşlığına dair Bakı Bəyannaməsi imzalanıb

**COP29 çərçivəsində İqtisadiyyat Nazirliyinin təşkilatçılığı ilə təşkil edilən İqlim, İnnovasiya və Ticarət üzrə CAREC Tərəfdaşlığına həsr olunmuş Yüksək Səviyyəli Sessiya keçirilib.**

AZƏRTAC xəbər verir ki, Asiya İnkişaf Bankının Mərkəzi və Qərbi Asiya üzrə Əməkdaşlıq və İnteqrasiya Departamentinin regional başçısı Ləzizə Sabirovanın moderatorluğu ilə keçirilən tədbirdə iqtisadiyyat naziri Mikayıl Cabbarov CAREC Proqramının regionun inkişafına töhfələrini vurğulayıb.

Qeyd olunub ki, proqram müxtəlif sektorlar üzrə yüksəkkeyfiyyətli layihələrə, o cümlədən prioritet istiqamətlərə sərmayə qoymaqla regional əməkdaşlığın gücləndirilməsini dəstəkləyir. Diqqətə çatdırılıb ki, regionda mühüm nəqliyyat qovşağı olan Azərbaycan transsərhəd və tranzit prosedurlarının, logistikanın davamlı olaraq təkmilləşdirilməsində və ticarətin rəqəmsallaşmasında önəmli rol oynayır. Azərbaycanın CAREC ölkələri ilə ticarət və investisiya əlaqələrinin gücləndirilməsi üçün səylərin davam etdirildiyi bildirilib: "2024-cü ilin doqquz ayı ərzində Azərbaycan ilə CAREC-ə üzv dövlətlər arasında ticarət dövriyyəsi təqribən 4 milyard dollara çatıb, CAREC ölkələrinin Azərbaycanın ümumi xarici ticarətində payı isə 11,5 faiz təşkil edib". Qeyd edilib ki, tədbir çərçivəsində imzalanan "İqlim, İnnovasiya və Ticarət üzrə CAREC Tərəfdaşlığına dair Bakı Bəyannaməsi" regionda sosial, iqtisadi və ekoloji sahələrdə təşəbbüsləri dəstəkləyən yeni platforma formalaşdıracaq. Həmçinin bu çərçivədə yeni "yaşıl prinsip"lərin qəbul edilməsi prosesləri asanlaşacaq, ticarət və iqlim dəyişikliyi üzrə dialoq təşviq ediləcək.

Asiya İnkişaf Bankının prezidenti Masatsuqu Asakava, Asiya İnkişaf Bankının Mərkəzi və Qərbi Asiya Departamentinin baş direktoru Yevgeni Jukov, 2024-cü il üzrə CAREC Proqramına sədrlik edən Qazaxıstanın Baş nazirinin müavini, milli iqtisadiyyat naziri Nurlan Baybazarov CAREC ölkələrinin tərəfdaşlığı, iqlim dəyişikliyinin mənfi təsirlərinə qarşı birgə tədbirlər, "yaşıl layihə"lərin reallaşdırılması imkanları barədə fikirlərini bildiriblər. Sessiyada CAREC İqlim Dəyişikliyi Fəaliyyət Planı, CAREC İqlim və Davamlılıq Layihəsinə Hazırlıq Fondu və İqlim, İnnovasiya və Ticarət üzrə CAREC Tərəfdaşlığına dair təqdimatlar olub.

Tədbirdə iqlim riskinə hazırlıq, su, enerji və qida təhlükəsizliyi, aşağıkarbonlu həllər, iqlim fəaliyyəti istiqamətində tərəfdaşlığın gücləndirilməsi ətrafında müzakirələr aparılıb. Proqrama üzv olan ölkələr arasında İqlim, innovasiya və ticarət üzrə CAREC Tərəfdaşlığına dair Bakı Bəyannaməsi imzalanıb.

## COP29 çərçivəsində enerji keçidinin maliyyələşdirilməsində suveren sərvət fondlarının roluna dair müzakirələr aparılıb

Noyabrın 14-də Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) Suveren Fondların Beynəlxalq Forumu (SFBF) ilə birgə COP29 çərçivəsində Maliyyə Gününə həsr olunmuş "Enerji keçidinin maliyyələşdirilməsində suveren sərvət fondlarının rolu" mövzusunda yüksəksəviyyəli panel təşkil edib.

AZƏRTAC xəbər verir ki, COP29 sədrliyinin tədbirlər siyahısında yer alan və "mavi zona"da baş tutan bu mühüm tədbir qlobal liderləri bir araya gətirərək, suveren sərvət fondlarının (SSF-lərin) dayanıqlı maliyyənin inkişafına və aşağıkarbonlu iqtisadiyyata keçid prosesinə dəstəyini, o cümlədən bu istiqamətdə fəaliyyətin genişləndirilməsini müzakirə etmək məqsədi daşıyıb.

Tədbirdə "Ithmar Capital" şirkətinin icraçı direktoru - SFBF-nin sədri Obaid Amrane və ARDNF-in İcraçı direktoru - SFBF-in sədr müavini İsrafil Məmmədov açılış çıxışları ediblər. Çıxışlarda SSF-lərin iqlim dəyişikliyinin qarşısını almaqda uzunmüddətli investisiya strategiyaları ilə oynadığı əhəmiyyətli rola xüsusi diqqət çəkilib.

Obaid Amrane diqqətə çatdırıb ki, sərvət fondları davamlı inkişafa xidmət edəcək kapitalın cəlb olunmasında nümunə yaratmaq üçün geniş imkanlara malikdir: "Bu gün COP29 çərçivəsində əməkdaşlığımız uzunmüddətli və strateji investisiyalar vasitəsilə enerji keçidinin maliyyələşdirilməsində və iqlim problemlərinin həllində ortaq öhdəliyimizi bir daha əks etdirir".

İsrafil Məmmədov bildirib ki, Azərbaycanın dövlət büdcəsinə əhəmiyyətli töhfə verən ARDNF ölkənin dayanıqlı inkişaf gündəliyinin və enerji keçidinin maliyyələşdirilməsində də mühüm rol oynayır: "Biz Santyaqo Prinsiplərinə uyğun olaraq güclü idarəetməni təmin etməklə iqtisadi sabitliyi möhkəmləndirməyə və dayanıqlı gələcəyə doğru irəliləyişə sadiqliyimizi nümayiş etdiririk".

Tədbirin moderatoru, "Franklin Templeton" şirkətinin qlobal dayanıqlılıq üzrə rəhbəri Anne Simpson SSF-lərin maliyyə mandatlarını qorumaqla portfellərinin enerji keçidi məqsədlərinə uyğunlaşdırılmasından və bu kontekstdə maliyyə öhdəliklərinin yenidən qiymətləndirilməsindən danışıb.

Panelin iştirakçıları investisiya mühitində keçid maliyyəsinin inteqrasiyası, emissiyaların azaldılması, aktivlərin bölgüsü, risk-gəlir gözləntilərinin idarə edilməsi və digər mövzularda fikir mübadiləsi aparıblar. Müzakirələrdə keçid maliyyəsinin geniş miqyasda tətbiqində qarşıya çıxan əsas tənzimləmə, struktur və bazar çətinlikləri müzakirə olunub və dayanıqlı investisiyaların genişləndirilməsi istiqamətində müxtəlif maliyyə modellərinin tətbiqi kimi həll yollarından bəhs edilib.

Müzakirələrdən sonra SFBF üzv fondların portfellərinin dekarbonizasiyasını dəstəkləmək, dayanıqlı maliyyə üçün tərəfdaşlıqları gücləndirmək və iqlim maliyyələşdirilməsini genişləndirmək öhdəliyini bir daha təsdiqləyən kommünike elan edib. Kommünikedə xüsusilə inkişaf etməkdə olan ölkələrdə innovativ maliyyə alətlərinin yaradılmasının, şəffaflığın təşviqinin və ədalətli enerji keçidinin əhəmiyyəti vurğulanıb. Sənəddə həmçinin qeyd olunub ki, SFBF iqlim dəyişikliyi ilə mübarizəyə kapital cəlb etmək üçün fəaliyyətlərini davam etdirəcək. Bu istiqamətdə növbəti tədbirlər Belen, Braziliyada keçiriləcək COP30 və qarşıdakı BMT-nin İqlim Dəyişikliyi konfransları çərçivəsində baş tutacaq.

COP29 sədrliyinin tədbirlərindən biri kimi bu panel qlobal iqlim gündəliyinin hədəflərinə dəstək olmaqda SSF-lərin unikal və strateji rolunu ön plana çıxarıb. ARDNF və SFBF tərəfindən təşkil olunan bu platforma qlobal əməkdaşlıq və məsuliyyətli investisiyalar vasitəsilə dayanıqlı gələcəyin formalaşdırılmasında SSF-lərin potensialını bir daha nümayiş etdirib.

COP29 Baku Azerbaijan

# COP29 çərçivəsində müstəmləkəçiliyin Afrikada investisiya perspektivlərinə mənfi təsirləri ilə bağlı tədbir keçirilib

Bakı Təşəbbüs Qrupu (BTQ) və SAHEL Konfederasiyasını təmsil edən ASRAD təşkilatı COP29 çərçivəsində "Müstəmləkəçiliyin Afrikada investisiya perspektivlərinə mənfi təsirləri" mövzusunda tədbir keçirib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Afrikada kolonial keçmişin yaratdığı dərin sosial-iqtisadi problemlər və onların qitədə investisiya imkanlarına mənfi təsiri müzakirə olunub.

Tədbirdə Fransanın Afrikadakı keçmiş müstəmləkələrindən, digər fransız dənizaşırı ərazilərindən, Niderland koloniyalarından olan nümayəndələr, xarici və yerli jurnalistlər iştirak ediblər.

Çıxışlarda müstəmləkəçilikdən miras qalan qeyri-bərabərlik, resursların ədalətsiz və qanunsuz istifadəsi, qitənin inkişafını ləngidən səbəblər barədə ətraflı fikir mübadiləsi aparılıb. Həmçinin investisiya sahəsində yaranan problemlər, dayanıqlı inkişaf və kənar müdaxilə olmadan Afrikada investisiyaların perspektivləri müzakirə olunub.

Tədbirdə müstəmləkəçiliyin hazırda planetimizin üzləşdiyi dağıdıcı iqlim böhranına mənfi təsirləri xüsusi vurğulanıb. Müstəmləkəçiliyin Afrika ölkələrinin, dənizaşırı ərazilərin artıq daha tez-tez üzləşdiyi dağıdıcı iqlim hadisələrinə dərin və davamlı mənfi təsirlərinin gözardı edilməsi şiddətlə qınanıb. Müstəmləkəçiliyin Afrika ölkələrində, eləcə də dənizaşırı ərazilərdə bütün sahələrdə, o cümlədən iqtisadiyyatda, mədəniyyətdə, siyasətdə, ətraf mühitdə dərin mənfi izlər qoyduğu qeyd edilib. Bildirilib ki, müstəmləkəçiliyin



bu ölkələrdə yaratdığı sosial və siyasi nizamsızlıq, iqtisadi istismar və yoxsullaşma, yerli xalqların mədəniyyətlərinin və milli kimliyinin itirilməsi, etnik bölünmə və icmalar arasında gərginliyin yaradılması siyasəti, ətraf mühitin deqradasiyası, iqtisadi və siyasi asılılığın mirası kimi bir çox mənfi təsirlər artıq dözülməz həddə çatıb. Buna baxmayaraq, yerli xalqlar iqlim dəyişikliyinin dağıdıcı təsirləri ilə bağlı müstəqil qərarlar qəbul edə bilmirlər. Müstəmləkəçilik bu ölkələrin strukturunu dağıdıb, onları xaricdən idarə olunan sistemlə əvəzləyib. Nəticədə həmin xalqların qərar qəbuletmə səlahiyyətləri onlardan alınıb.

Çıxışlarda qeyd olunub ki, müstəmləkəçiliyin əsas məqsədi Afrika ölkələrinin və dənizaşırı ərazilərin zəngin təbii ehtiyatlarını istismar etməkdir. Müstəmləkə istismarı ətraf mühiti çirkləndirən intensiv kənd təsərrüfatı və mədənçilik sahələrində daha ağır nəticələr doğurur. Monokultura torpağı tükəndirib, bəzi ölkələrdə və ərazilərdə səhralaşmaya səbəb olub. Müstəmləkə dövründə başlayan bu ekoloji deqradasiya bu gün də kənd təsərrüfatına və dolanışıq vasitələrinə təsir edir, ərzaq təhlükəsizliyi üçün ciddi təhdid yaradır.

Tədbir iştirakçıları Fransanın və Niderlandın müstəmləkəsi altında olan ölkə və ərazilərdə ətraf mühitə ziyan vuran bütün qeyri-qanuni fəaliyyətlərin dayandırılması, yerli xalqların hüquqlarına hörmətlə yanaşılması ilə bağlı çağırış ediblər.

# Monteneqro Prezidenti Yakov Milatoviç Heydər Əliyev Mərkəzi ilə tanış olub

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) iştirak etmək üçün Azərbaycanda səfərdə olan Monteneqro Respublikasının Prezidenti Yakov Milatoviç noyabrın 14-də Heydər Əliyev Mərkəzində olub.

AZƏRTAC xəbər verir ki, ali qonağa dünya memarlığının nadir incilərindən sayılan Heydər Əliyev Mərkəzi haqqında geniş məlumat verilib.

Qeyd olunub ki, mərkəzin fəaliyyəti Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsinin, azərbaycançılıq ideologiyasının və Ulu Öndərin irsinin dərindən öyrənilməsinə və tədqiq edilməsinə yönəlib. Mərkəzin həyata keçirdiyi layihələr Azərbaycan tarixinin, dilinin, mədəniyyətinin və digər milli sərvətlərin beynəlxalq aləmdə təbliğinə, elmin, təhsilin, mədəniyyətin, səhiyyənin, idmanın, ekologiyanın və iqtisadiyyatın müxtəlif sahələrinin dəstəklənməsinə və inkişafına xidmət edir.

Monteneqronun Prezidenti əvvəlcə Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə - 1969-cu ildən 2003-cü ilə qədər - rəsmi istifadəsində olan avtomobillərə baxıb.

Ümummilli Liderin həm sovet hakimiyyəti dövründə, həm də müstəqillik illərində həyata keçirdiyi fəaliyyət konsepsiyasının müxtəlif dövrlərini əks etdirən eksponatlar, fotoşəkillər və multimedia zalı qonaqda böyük maraq doğurub.

"Azərbaycan inciləri" sərgisi ilə də tanış olan Yakov Milatoviçə bu sərgidə ölkəmizin tükənməz təbii sərvətləri, çoxəsrlik tarixi, mədəni irsi ilə bağlı nadir eksponatların nümayiş etdirildiyi bildirilib. Burada qədim peşələrin, o cümlədən Azərbaycan xalçaçılıq məktəbinin nadir nümunələrinin sərgiləndiyi, qədim çalğı alətlərimizin orijinal şəkildə - səsli formada təqdim olunduğu diqqətə çatdırılıb. Qeyd olunub ki, Azərbaycan milli geyimlərinin, qədim sikkələrin nümayiş etdirildiyi sərgiyə gələnlər burada müxtəlif dillərdə müqəddəs kitabları da görə bilərlər.

Monteneqro Prezidenti Heydər Əliyev Mərkəzindən xoş təəssüratla ayrılıb.







# İnkişaf etməkdə olan kiçik ada dövlətləri üçün innovativ iqlim maliyyələşdirmə təşəbbüsünə dair beynəlxalq tədbir

"Azərbaycan Sənaye Təhlükəsizliyi Assosiasiyası" İctimai Birliyi və "Henley and Partners" şirkətinin birgə təşkilatçılığı ilə "İnkişaf etməkdə olan kiçik ada dövlətləri üçün innovativ iqlim maliyyələşdirmə təşəbbüsü" adlı beynəlxalq tədbir uğurla baş tutub.

AZƏRTAC xəbər verir ki, tədbirin keçirilməsində əsas məqsəd COP29-un iqlim maliyyələşdirilməsi üzrə əsas mövzularını müzakirə etmək, inkişaf etməkdə olan kiçik ada dövlətlərinin (SIDS) və digər həssas ölkələrin dayanıqlıq təşəbbüslərinə investisiyaların cəlb edilməsində rol oynamaq, bioloji müxtəlifliyi qorumaq, innovativ maliyyə səfərbərliyi strategiyalarını irəli sürmək və iqlim dəyişikliyinin pisləşən qlobal təsirlərinə qarşı kollektiv məsuliyyəti gücləndirmək olub.

Tədbiri "Qlobal Humanitar Təşəbbüslər" (HGI) təşkilatının direktoru Enola-Qey Edvard açıb. O, iqlim maliyyəsinin əhəmiyyətini vurğulayaraq beynəlxalq ictimaiyyətin inkişaf etməkdə olan ölkələrə dəstəyinin zəruriliyini önə çəkib və maliyyə resurslarının artırılmasının vacibliyindən bəhs edib.



Nauru Respublikasının iqlim dəyişikliyi və milli davamlılıq naziri Asterio Appi çıxışında Naurunun iqlim dəyişikliyinə qarşı mübarizədə yaşadığı çətinliklərdən və bu sahədə innovativ maliyyə mexanizmlərinin əhəmiyyətindən söz açıb. O, bu maliyyə təşəbbüsünün, həmçinin Nauru İqtisadi və İqlim Davamlılığı Vətəndaşlıq Proqramının Cənubi Sakit Okean regionunda davamlılıq layihələrinə və ekosistemlərin qorunmasına dəstək baxımından əhəmiyyətli olduğundan bəhs edib.

Tədbirdə növbəti çıxışı Nauru İqtisadi və İqlim Davamlılığı Vətəndaşlıq Proqramı Ofisinin uyğunluq direktoru İsa Seouya edib. O, vətəndaşlıq proqramlarının davamlılıq təşəbbüslərinə dəstək üçün təmin etdiyi maliyyə imkanlarından bəhs edib, proqramın sadələşdirilmiş yolla həm Nauru, həm də ekoloji davamlılığa investisiya cəlb edərək töhfə verdiyini qeyd edib.

Maldiv Respublikasının sabiq prezidenti və Həssas İqlim Forumunun Baş katibi Məhəmməd Naşid çıxış edərək, kiçik ada dövlətlərinin qlobal iqlim dəyişikliyinin təsirlərinə qarşı mübarizədə daha böyük maliyyə dəstəyinə ehtiyacı olduğunu vurğulayıb. O, beynəlxalq ictimaiyyətin bu ölkələrə maliyyə yardımlarını artırmasının vacibliyindən danışıb və kiçik ada dövlətlərinin üzləşdiyi iqlim təhdidlərinə diqqət çəkib.

"Azərbaycan Sənaye Təhlükəsizliyi Assosiasiyası" İctimai Birliyinin sədr müavini Cabir Süleymanlı çıxışında qeyd edib ki, Prezident İlham Əliyev də inkişaf etməkdə olan kiçik ada dövlətlərinə Azərbaycanın dəstək göstərməsini mənəvi borc hesab edir. O, Azərbaycanın bu ölkələrə həm maddi, həm də siyasi dəstək verdiyini və bu istiqamətdə səylərin davam etdirildiyini qeyd edib. Sədr müavini həmçinin bildirib ki, Azərbaycanın COP29-a sədrliyi dövründə kiçik ada dövlətlərinin ehtiyaclarına xüsusi diqqət yetirilir və onların səsinin yüksək səviyyədə eşidilməsi təmin edilir. O qeyd edib ki, bu yanaşma Azərbaycanın qlobal iqlim dəyişikliyi ilə mübarizədə həmrəyliyə və əməkdaşlığa verdiyi önəmi göstərir.

Tədbirin sonunda jurnalistlər üçün sual-cavab sessiyası keçirilib və müzakirə olunmuş mövzulara dair suallar cavablandırılıb.

# Dövlət komitəsinin sədri Şirvanda vətəndaşlarla görüşüb

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov noyabrın 14-də Şirvan şəhərində vətəndaşları qəbul edib.

Dövlət komitəsindən AZƏRTAC-a bildirilib ki, qəbul zamanı Şirvan şəhəri, Hacıqabul, Salyan, Neftçala, Biləsuvar rayonlarından olan vətəndaşlar islam dininə aid ibadət yerlərinə din xadiminin təyinatı, dini təhsil, dini icmanın dövlət qeydiyyatı, məscidin dini ədəbiyyatla təmin olunması və digər məsələlərlə bağlı müraciət ediblər.

Dövlət komitəsinin aidiyyəti struktur bölmə rəhbərlərinin iştirakı ilə keçirilmiş qəbulda vətəndaşların müraciət və təklifləri diqqətlə dinlənilib, müvafiq tədbirlərin görülməsi ilə bağlı tapşırıqlar verilib.

# Afrika ölkələri və dənizaşırı ərazilərin nümayəndələri Bakıda dinc aksiya təşkil ediblər

Fransa və Niderlandın müstəmləkəsi altında olan Afrika ölkələrinin və dənizaşırı ərazilərin nümayəndələri Bakıda "Yaşıl və müstəmləkəsiz dünya naminə həmrəylik" adlı dinc aksiya keçiriblər.

AZƏRTAC-ın məlumatına görə, COP29 çərçivəsində təşkil olunan aksiyanın iştirakçıları bildiriblər ki, müstəmləkəsiz və yaşıl dünya naminə həmrəylik davamlı inkişafın və müstəmləkə ölkələrinin muxtariyyətinin ayrılmaz olduğu ideyasına əsaslanır.

Onilliklər boyu müstəmləkəçilikdən, iqtisadi istismardan, mədəniyyətlərinə və ətraf mühitlərinə hücumlardan əziyyət çəkən bu ölkələr istər iqlim dəyişikliyi, istərsə də meşələrin qırılması və ya torpağın deqradasiyası kimi mövcud ekoloji böhranlara ən həssas ölkələrdir. Bu xalqlarla həqiqi həmrəylik onların təbii ehtiyatlarına, ənənəvi biliklərinə və suverenliyinə hörmət edən hüququnu dəstəkləmək deməkdir.

Aksiyaçılar təbii sərvətlərinin müstəmləkəçi güclərin xeyrinə talan edilməsinə, yerli əhalinin yoxsullaşdırılmasına, ekosistemlərin zəiflədilməsinə etirazlarını bildiriblər. Onlar Fransa və Niderland kimi müstəmləkəçi dövlətlərin və transmilli korporasiyaların deqradasiya etdiyi ekosistemlərin bərpası üçün məsuliyyət daşıdıqlarını və buna görə ekoloji təzminat ödəməli olduqlarını vurğulayıblar.

Müstəmləkə altında olan bu ölkələrin nümayəndələri "yaşıl texnologiya"lara bərabər çıxışı tələb edirlər. İnkişaf etmiş ölkələrdə müstəmləkəçiliyin təsirləri və əvvəllər müstəmləkə olmuş ölkələrin üzləşdiyi ekoloji problemlər haqqında məlumatlılığın artırılması və insanların maarifləndirilməsinə çağırış ediblər.

## Britaniyalı nazir:

# "COP29-da iştirak etmək böyük bir imtiyazdır"

"Britaniyanın iqlim naziri olaraq ilk dəfə COP29-da iştirak etmək mənim üçün böyük bir imtiyazdır. İndi hərəkət etmək daha vacibdir".

AZƏRTAC xəbər verir ki, bu sözləri Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının beynəlxalq enerji və iqlim üzrə naziri Keri Makkarti özünün "X" sosial media şəbəkəsində paylaşıb.




Nazir həmçinin son günlər İspaniyada baş verən faciəvi hadisələrin iqlim dəyişikliyinin təsirlərini bir daha göstərdiyini vurğulayıb və bu məsələnin Birləşmiş Krallığın milli maraqları üçün xüsusi əhəmiyyət kəsb etdiyini bildirib.

# Çin Hərbi Hava Qüvvələri ilə hərbi və hərbi-texniki əməkdaşlığın perspektivləri müzakirə edilib

Azərbaycanın müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Namiq İslamzadənin rəhbərlik etdiyi nümayəndə heyəti Çin Xalq Respublikasının Cuhai şəhərində keçirilən 15-ci Çin Beynəlxalq Aviasiya və Aerokosmik Sərgisində iştirak etmək üçün bu ölkəyə işgüzar səfər edib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, dünyanın 100-dən çox ölkəsinin Hərbi Hava Qüvvələri (HHQ) komandanları və digər səviyyədə rəsmiləri, region və beynəlxalq təşkilatlardan rəsmi nümayəndə heyətlərinin iştirak etdiyi sərgidə general-leytenant N.İslamzadə Çin Xalq Azadlıq Ordusunun Hərbi Hava Qüvvələri komandanı general-polkovnik Çan Dinqyu ilə görüşüb.

Görüşdə Azərbaycan və Çin Hərbi Hava Qüvvələri arasında hərbi və hərbi-texniki əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub. General-leytenant N.İslamzadə sərgiyə dəvətə görə çinli həmkarına minnətdarlığını bildirib.

Çinə işgüzar səfər çərçivəsində Belarus və İran Hərbi Hava Qüvvələri komandanları, Rusiya Federasiyasının Hərbi Hava Qüvvələri komandanının müavini, həmçinin Çinin Dövlət Müdafiə Sənayesi Kompleksinə daxil olan bir sıra şirkət rəhbərləri ilə görüşlər keçirilib.

Görüşlərdə qarşılıqlı maraq doğuran məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, beynəlxalq sərgidə Çin Müdafiə Sənayesi Korporasiyalarının ümumilikdə 260 növ döyüş təyyarəsi, helikopter, pilotsuz uçuş aparatı, HQ-9BE zenit-raket kompleksi, YJ-12E markalı gəmi əleyhinə qanadlı hipersonik raketlər, dron əleyhinə sistemlər, texnikalar və digər avadanlıqlar nümayiş etdirilib.

COP29 Baku Azerbaijan

# Dünya ekoloqlarının Bakı sammiti
















# Maliyyə, investisiya və ticarət günü

## COP29-un dördüncü günü "mavi zona"da əsas mövzu iqlim maliyyələşməsinə həsr olundu

**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının əsas müzakirə mövzusu olan iqlim maliyyələşməsi ilə bağlı noyabrın 14-də müxtəlif panel müzakirələr və sessiyalar baş tutdu.**

Konfransın dördüncü - Maliyyə, investisiya və ticarət günündə bir sıra yüksəksəviyyəli tədbirlər keçirildi. "ASAN xidmət" tərəfindən Yaşıl idarəetmə üzrə Nazirlər Forumu, Hesablama Palatası tərəfindən Hökumətlərin iqlim fəaliyyətləri nə yerdədir? - "ClimateScanner" qiymətləndirməsinin ilk nəticələri, bundan başqa, dayanıqlı maliyyə, iqlim maliyyəsi, iqlim dəyişikliyi ilə mübarizədə regional və transsərhəd əməkdaşlığın maliyyələşdirilməsi, COP29 sədrliyi və Almaniyanın birgə təşkilatçılığı ilə özəl sektora güvənin təmin edilməsi mövzularında "mavi zona"da yerləşən Azərbaycan pavilyonunda müzakirələr keçirildi.

### Qlobal iqlimlə mübarizə üçün hər il 8 trilyon dollara ehtiyac var

Braziliya Ali Audit Orqanı tərəfindən təqdim edilən İqlim Skanerinin ilkin nəticələrinə əsasən, maliyyə sahəsi, həmçinin daxili, beynəlxalq və özəl iqlim maliyyəsi üzrə mövcud mexanizmlərin və həyata keçirilən fəaliyyətlərin gücləndirilməsinə zərurət yüksəkdir. Nəticələrə əsasən, qlobal iqlimlə mübarizə üçün hər il təxminən 8 trilyon ABŞ dolları lazımdır. Hazırda izlənilən məbləğ 1,3 trilyon dollar təşkil edir ki, bunun da 49 faizi özəl mənbələr üzrədir. Maliyyəyə ehtiyacı olan əksər ölkələr üzrə qiymətləndirmə mexanizmləri və ya mümkün maliyyə mənbələrinin xəritəsi mövcud deyil. Ölkələrin 73 faizi iqlim xərclərini işarələmir və ya yalnız daxili iqlim maliyyəsini izləmək üçün mexanizmlərə malikdir. Bu isə hökumətin birbaşa və dolayı iqlim xərclərinin izlənməsini zəiflədir. Eyni zamanda iqlim fəaliyyətinə cəlb olunan özəl sektorun investisiyaları üzrə də çatışmazlıqlar mövcuddur. Bir çox ölkədə bu istiqamətdə şəffaflıq yetərli deyil. Belə ki, 41 faiz ölkədə bu istiqamətdə hesabatlara rast gəlinmir.

"Mavi zona"da özündə əsasən maliyyə məsələlərini ehtiva edən yüksəksəviyyəli plenar iclaslar da keçirildi. Ümumilikdə, əksər müzakirələr iqlim maliyyəsinə asan çıxış yollarının təmin edilməsi, iqlimlə bağlı layihələrə investisiyaların yatırılmasına təşəbbüslərin artırılması istiqamətində idi.

Bununla yanaşı, gün ərzində rəsmi tədbirlər zonasında 2030-a doğru Maliyyə Fəaliyyəti - Biznes, İnvestisiya və Xeyriyyəçilik İqlim Platforması, İqlim Maliyyə İnvestisiyaları və Ticarət Dialoqu üzrə Bakı Təşəbbüsü çərçivəsində nazirlərin görüşü, maliyyələşdirmə vasitəsilə "yaşıl inkişaf"ın irəlilədilməsi, TDT-nin İqlim, İnnovasiya, Yaşıl İqtisadiyyat və Ticarət Tərəfdaşlığı üzrə nazirlər toplantısı, İqlim Fəaliyyəti üzrə Maliyyə Nazirləri Koalisiyasının nazirlər toplantısı, İqlim maliyyəsi estafet yarışı, İqlim Fəaliyyətinin İnkişaf Maliyyəsinə inteqrasiyası, Uyğunlaşma Fondunun Yüksək Səviyyəli Töhfə Dialoqu 2024 və digər mövzularda xüsusi toplantı və müzakirələrin şahidi olduq.

Əvvəlcədən də qeyd olunduğu kimi, COP29-da prioritet olan maliyyə məsələləri ilə bağlı noyabrın 14-də keçirilən tədbirlərin əksəriyyətinin bu mövzuya həsr olunması bu baxımdan təsadüfi deyildi.

### Həmrəylik, sülh, birgə fəaliyyət

Ötən gün həmçinin Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin ekologiya nazirlərinin bəyannaməsi imzalandı. Bu məqsədlə "mavi zona"da yerləşən Özbəkistan pavilyonunda təşkilata üzv dövlətlərin ekologiya və ətraf mühit nazirlərinin görüşü baş tutdu.

Nazirlər və TDT-nin Baş katibi BMT-nin hazırkı iqlim gündəliyinə tam dəstəyini ifadə edərək, COP29-un ilk günlərində qeyd olunan məqsədlərə əməl olunmasına dair öhdəliklərini təsdiqlədilər.

Ümumilikdə, Bakıda keçirilən forum dünya ölkələrini bu istiqamətdə həmrəyliyə, səyləri birləşdirməyə səsləyir. İqlim maliyyəsinin müəyyənləşməsi isə COP29 çərçivəsində əsas hədəfdir. Bu baxımdan BMT-nin Baş katibi Antonio Quterreş hələ Liderlər Sammitinin açılışında COP29-un iqlim maliyyəsi sahəsində sədləri aşmalı olduğunu vurğulamışdı. O, həmçinin inkişaf etməkdə olan ölkələri Bakıdan əliboş getməməyə çağırmışdı.

Planetin iqlim dəyişikliyi ilə mübarizə sahəsindəki tələbatını ödəyə biləcək 5 əsas element müəyyən olunub. Birincisi, ekoloji cəhətdən təmiz elektrik enerjisinin istehsalına dövlət maliyyəsinin güzəştli şərtlərlə cəlb olunması, ikincisi, ayrı-ayrı dövlətlərin inkişaf etməkdə olan ölkələrə ayrılmalı olan trilyonlarla dolların təminatına hazır olması, üçüncü element innovativ maliyyə mənbələrindən istifadənin təminatı, yəni gəmiçilik, aviasiya və faydalı qazıntı hasilatından əlavə pul vəsaitinin alınması, dördüncüsü, iqlim maliyyəsi sahəsində hesabatlılığın təmin olunması ilə pulların mənimsənilmədiyinə əminlik yaratmaq, beşinci element isə böyük, çoxtərəfli bankların kredit imkanlarının artırılmasıdır. Bütün bunlar isə kifayət qədər kapital tələb edir ki, buna da Azərbaycanın evsahibliyi etdiyi Tərəflər Konfransının 29-cu sessiyasında nail olunması üçün iştirakçı dövlətlər həmrəy olmalıdır.

Ümumilikdə, iqlim dəyişikliklərinin yaratdığı fəsadlardan hər bir ölkənin əziyyət çəkdiyini nəzərə alsaq, bu ümumbəşəri məsələdə bütün tərəflərin birgə fəaliyyəti ən vacib faktordur. Xüsusilə atmosferə istixana qazlarının buraxılmasında xüsusi seçilən ölkələr iqlim maliyyələşməsində daha fəal olaraq, ekologiyaya vurduqları zərəri müəyyən qədər kompensasiya etməyə çalışmalı, ümumilikdə "yaşıl iqtisadiyyat"a keçidi daha yüksək səviyyədə dəstəkləməlidirlər.

Beləliklə, dünyanın həm iştirakçı sayına, həm də statusuna görə ən böyük və mötəbər tədbirlərindən sayılan COP-un 29-cu sessiyasının dörd günü artıq geridə qaldı. Dünyanın diqqətinin ölkəmizdə olduğu bir vaxtda paytaxtımızda müzakirə olunan vacib məsələlərin həllini tapacağına ümid böyükdür. Çünki Bakının təşəbbüsləri həmrəylik, sülh və birgə fəaliyyətdir.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***









COP29 Baku Azerbaijan

# Bakıdan dünyaya ədalət çağırışı

# İlham Əliyevdən antiazərbaycançı şəbəkəyə "yaşıl dərs"

## Ölkəmizə qarşı növbəti qarayaxma kampaniyası iflasa uğradıldı

**Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) öz işini uğurla davam etdirir. Dünyanın gələcəyi üçün narahat olan ölkə və təşkilatların on minlərlə üzvü Azərbaycana toplaşaraq iqlim dəyişmələrinin fəsadlarının aradan qaldırılması üçün müxtəlif həll yolları arayır, çağırışlar edirlər.**







Bu çağırışların əsasını isə dayanıqlı iqlim maliyyələşməsinin formalaşdırılması təşkil edir. Xüsusilə varlı dövlətlərin bu istiqamətdə üzərlərinə düşən öhdəlikləri yerinə yetirmələri istənilir.

### Siyasi riyakarlıq

Bu iqlim tədbirinin hansı ölkədə keçirilməsindən asılı olmayaraq xidmət etdiyi məram Yer kürəsindəki bütün insanları birbaşa maraqlandıran problemlərə vaxt itirilmədən çarələrin tapılmasıdır. Ancaq bəzi Qərb ölkələri - xüsusilə də Fransa məhz Azərbaycanda keçirildiyi üçün COP29-a mahiyyətindən tamamilə uzaq anlam yükləyərək, qərəzli yanaşma sərgiləyirlər. Paris bu tədbirdə "yaşıl dünya naminə" əldə edilən nailiyyətlərin sanki Fransaya aidiyyəti yoxmuş kimi davranır, özünün iqlim fəsadlarının aradan qaldırılmasına töhfə vermək məcburiyyətinin olmamasını göstərir. Bəşəriyyətin dünyanın xilasını düşündüyü bir zamanda belə cılız ambisiyasından əl çəkməyən Fransa özündən xeyli uzaqda yerləşən və Cənubi Qafqazı koloniyasına çevirmək kimi mənfur planlarını alt-üst edən Azərbaycana qarşı ermənipərəst mövqe sərgiləyir.










COP29-un açılış mərasimindəki nitqində "Əfsuslar olsun ki, ikili standartlar, digər ölkələrə dərslər vermək adəti və siyasi riyakarlıq bəzi Qərb ölkələrindəki bir sıra siyasətçilər, dövlət nəzarətində olan QHT-lər, yalan xəbər mediası üçün fəaliyyət metoduna çevrilib" deyən Prezident İlham Əliyev yuxarıda qeyd etdiyimiz məqamlara diqqət çəkdi. Dövlət başçısı dünyanın 192 ölkəsindən Azərbaycana gələn ali səviyyəli qonaqların, iqlim aktivistlərinin iştirak etdiyi bu tədbirdə bildirdi ki, Azərbaycan COP29-a ev sahibi seçildikdən dərhal sonra ölkəmiz əlaqələndirilmiş və yaxşıca təşkil olunmuş qarayaxma və böhtan kampaniyasının hədəfinə çevrildi.

Azərbaycan haqqında yayılan qərəzli məlumatları nəzərdən keçirəndə isə o qədər absurd fikirlərlə rastlaşırsan ki, bəzən hətta söyləməyə söz belə tapmırsan. COP29-a sədrlik edən Azərbaycana qarşı hücumların səbəblərindən biri, ölkəmizə Tanrı tərəfindən bəxş edilən təbii sərvətlərin olduğunu görürsən.

Açılış mərasimində Azərbaycana qarşı absurd ittihamlarla bağlı da danışan Prezident İlham Əliyev diqqətə çatdırdı ki, iki il əvvəl Azərbaycan və Avropa Komissiyası enerji sahəsində strateji tərəfdaşlıq bəyannaməsinə imza atdılar: "Lakin bu, bizim ideyamız deyildi. Onlar bizdən yardım xahiş etdilər. Biz razılaşdıq. Əgər yardımımıza ehtiyac varsa, biz hər zaman kömək etməyə hazırıq. Dedik, yaxşı, biz enerji təhlükəsizliyində Avropaya kömək edəcəyik".

### Qarşıya qoyulan hədəflərə nail olunur

COP29-a Azərbaycanın sədrlik edəcəyini bildikləri andan etibarən Fransanın başçılıq etdiyi riyakar Qərb ölkələri bizə qarşı təşkilatlanmış formada antitəbliğata start verdilər. İqlim konfransını siyasiləşdirmək cəhdləri etdilər, pulla ələ aldıqları beynəlxalq media vasitələri ilə respublikamızla bağlı olmazın yalan, iftira, böhtan xarakterli məlumatlar uydurub tirajlamağa başladılar. Necə deyərlər, öz gözlərində tiri görməyənlər Azərbaycanda xırda nöqtə axtarmağa başladılar.

Noyabrın 12-də Bakıda 80 prezident, vitse-prezident və baş nazirin iştirak etdiyi BMT-nin nüfuzlu tədbirinin açılışında dövlətimizin başçısı söylədi ki, bu gün də bizi neft dövləti adlandıranlar yaxşı olardı ki, ən azı özlərinə və Azərbaycandan 10 dəfə artıq neft hasil edən özlərinin qonşuluğundakı ölkəyə baxsınlar: "Qərbin yalan xəbər mediası, dırnaqarası müstəqil QHT-ləri və bəzi siyasətçiləri sanki ölkəmiz haqqında dezinformasiya və səhv məlumatın yayılmasında yarışa çıxıblar. Neftimizin olmasında bizi ittiham etmək bir növ Bakıda il ərzində 250-dən artıq günəşli günün olmasında bizi suçlamağa bənzəyir".

Ancaq bütün bu çirkin təbliğatlar nə Azərbaycanı haqq yolundan döndərə, nə də ölkəmizin dünyadakı nüfuzuna zərrə qədər zərbə vura bilər.

Bir neçə gündür öz işinə başlayan COP29-da artıq mühüm nailiyyətlər əldə olunub.

Beynəlxalq maliyyə korporasiyaları və bank strukturlarının açıqlamaları var ki, iqlim dəyişikliklərinin fəsadlarına qarşı mübarizə məqsədilə öz maliyyə töhfələrini artıracaqlar. Nümunə üçün deyək ki, Dünya Bankı maliyyə töhfəsini 170 milyarda çatdıracağını bildirib. Eyni zamanda COP29-un ilk günündə Paris Sazişinin 6.4 maddəsi üzrə razılaşmaya nail olunub.

Bütün bunlar onu göstərir ki, COP Bakıda qarşısına qoyduğu hədəflərə bir-bir nail olur. Bu həm də təkzibolunmaz şəkildə ortaya qoyur ki, Azərbaycanın "yaşıl səylər"i uğurlu bəhrəsini verir və eyni zamanda Qərbdə formalaşmış antiazərbaycançı şəbəkənin ölkəmizə qarşı növbəti qarayaxma kampaniyası iflasa uğradılır.

*Yasəmən MUSAYEVA, "Azərbaycan"*

# COP29-da Azərbaycanın sərt tələbi



## Prezident İlham ƏLİYEV: "Kiçik ada dövlətlərinin səsi qlobal arenada eşidilməlidir"

Dünya qlobal ekoloji problemlərlə üz-üzə qalıb. İqlim dəyişmələri hər bir ölkəyə öz mənfi təsirini göstərir. Belə ki, çayların suyu azalır, dağlara daha az qar yağır. Daşqınlar, sellər isə əvvəllər olduğundan çoxdur.




İqlim dəyişmələrinin yaratdığı təhlükədən ən çox kiçik ada dövlətləri əziyyət çəkir. Azərbaycan həmin dövlətlərə daim dəstək nümayiş etdirir. Ölkəmiz indiyədək fəlakət qarşısında zəif olan bir sıra ölkələrə qasırğa, zəlzələ və daşqınların təsirini azaltmaq üçün yardım göstərib. Biz onların həmçinin su təchizatı, qida təhlükəsizliyi və mədəni irsin bərpası layihələrinə dəstək vermişik. 10-dan çox kiçik ada dövləti Azərbaycan universitetlərində təhsil almaq üçün tələbə təqaüdü proqramımızdan yararlanıb. Qoşulmama Hərəkatına dördillik sədrliyi dövründə Azərbaycan 80-dən artıq ölkəyə, o cümlədən 20 kiçik ada dövlətinə maliyyə və humanitar yardım göstərib. Təsadüfi deyil ki, bu, COP29 çərçivəsində inkişaf etməkdə olan kiçik ada dövlətlərinin (SIDS) sammitində də qeyd olunub. Bildirilib ki, Prezident İlham Əliyev Azərbaycan iqtisadiyyatının tam və yaddaqalan transformasiyasına nail olub: "Biz onun iqlim fəaliyyətində rolunun artmasının, daha güclü beynəlxalq tərəfdaşlığın qurulmasının, xüsusən də BMT, Qoşulmama Hərəkatı və Millətlər Birliyi kimi təşkilatlar vasitəsilə əməkdaşlığı gücləndirdiyinin şahidiyik. Həmin təşkilatlarda Azərbaycan dayanıqlı iqtisadi artım və müqavimət gücünü təşviq edib".

Bu ölkələrin üzləşdiyi çağırışların aradan qaldırılması COP29-da Azərbaycanın göstərdiyi səylərin əsasını təşkil edir. Prezident İlham Əliyevin SIDS sammitindəki çıxışı deyilənlərin daha bir təsdiqidir.

Əvvəla xatırladaq ki, hələ bu ilin mayında COP-la bağlı planlarını müzakirə etmək üçün Baham adalarının, Tonqanın və Tuvalunun rəhbərləri Azərbaycanda səfərdə oldular. Qəbul olunmuş Bakı Kommünikesində COP29-da mənalı nəticələrin əldə olunmasına çağırış edilir və əlçatan iqlim maliyyəsinin vacibliyi qeyd olunur. Bu ilin sentyabrında isə İtki və Zərərə Cavab Fondunun fəaliyyətə başlaması ilə bağlı Bakıda ciddi irəliləyiş əldə olunub. Dövlət başçısı sözügedən çıxışında bunları da qeyd edərək bildirdi ki, hazırda proses ehtiyac duyan ölkələrə, xüsusən də kiçik ada dövlətlərinə maliyyənin verilməsi üçün tamamlanmalıdır: "Bu yay Azərbaycan Tonqada Millətlər Birliyi ilə birgə bəyannamə imzaladı. Biz Millətlər Birliyinin kiçik ada dövlətlərindəki birgə layihələrini dəstəkləmək üçün 10 milyon ABŞ dolları məbləğində vəsait ayırırıq. Ətraf mühitin monitorinqi və qiymətləndirilməsi üçün Azərbaycanın Kosmik Agentliyi - "Azərkosmos"dan peyk məlumatlarından istifadə etmək üçün Millətlər Birliyi ilə Anlaşma Memorandumu imzalanmışdır".

Bir sözlə, Azərbaycan COP29-a ev sahibi olduqdan sonra inkişaf edən kiçik ada dövlətləri ilə münasibətlərimiz yeni, daha yüksək səviyyəyə qalxıb. COP29-un tribunasından isə Prezidentimiz dünyaya belə bir çağırış da etdi: "Kiçik ada dövlətlərinin səsi qlobal arenada eşidilməlidir. Mən inkişaf etmiş bütün ölkələrə, xüsusən də müstəmləkə keçmişi olan ölkələrə müraciət edirəm ki, kiçik ada dövlətlərinə maddi və texniki dəstək göstərsinlər ki, onlar ölkələrini iqlim dəyişmələrinin fəsadlarından qoruya bilsinlər".

Qaldırılan mühüm məsələlərdən biri də neokolonializm və iqlim dəyişmələridir. Belə ki, Fransa və Niderlandın xüsusən də Karib dənizi və Sakit Okean regionundakı dırnaqarası dəniz əraziləri iqlim dəyişmələrinin ən ciddi təsirinə məruz qalanlar sırasındadır. Artan dəniz səviyyəsi, kəskin hava şəraiti və biomüxtəlifliyin pozulması həmin regionlara ciddi təhlükə yaradır. Həmin icmaların səsi bir çox halda onların metropoliyalarındakı rejimləri tərəfindən susdurulur. Dövlət başçısı bunları deməklə yanaşı, sammitdəki çıxışında auditoriyanı Yeni Kaledoniya, Fransa Polineziyası, Mayot, Vallis və Futuna, Korsika, Reunion, Qvadelupa, Martinika, Fransa Qvianası, Sent-Pyer və Mikelon, Sent-Mert və Sent-Varfolomey kimi Fransa müstəmləkələrinin xalqları, eləcə də Niderlandın Aruba, Kurasao, Sənt-Maarten, Boneyr, Sent-Yefstaxiy və Saba kimi müstəmləkələrinin xalqlarını alqışlamağa çağırdı: "Gəlin, həmin ərazidəki xalqları alqışlayaq, - bu gün XXI əsrdə də müstəmləkə hakimiyyətindən əziyyət çəkirlər. Hazırda Fransa Polineziyası və Yeni Kaledoniya 1946-1947-ci illərdə BMT tərəfindən qeyri-özünü idarə edən ərazilər kimi tanınır. Bununla belə onların dekolonizasiya prosesi hələ də yubanır. 1966-1996-cı illər ərzində Fransa Polineziyası Fransanın apardığı 193 nüvə sınağı səbəbindən ətraf mühitin ciddi pozulması ilə üzləşib. Fransa orada torpaq və suyun kəskin dərəcədə zəhərlənməsi və radiasiyasına görə məsuliyyət daşıyır. Radiasiya səviyyəsi 4900 faizi keçib. Əgər buna Fransanın Əlcəzairdə illər boyu işğalı zamanı həyata keçirdiyi 17 nüvə sınağını əlavə etsək, biz həmin ölkə tərəfindən planetin ekosisteminə hansı zərərin vurulduğunu görərik".

Eləcə də Fransanın dırnaqarası dəniz ərazilərində indiyədək törətdiyi cinayətlər, rejimin elə bu yaxınlarda da insan hüquqlarını pozması halları qeyd edildi. Belə ki, Prezident Makronun rejimi Yeni Kaledoniyada kanakların builki legitim etiraz aksiyasında 13 nəfərin həyatına son qoyub, 169 nəfər yaralanıb, 1700 insan həbs edilib. Həmçinin bu il Martinika və Qvadelupada etirazlar zamanı 38 nəfər həbs olunub. Bununla belə Fransa istər Avropa Komissiyası, istər Avropa Parlamenti, istərsə də Avropa Şurasının Parlament Assambleyasının heç biri tərəfindən pislənilməyib.

"Bu, siyasi riyakarlıqdır. Siyasi korrupsiya rəmzinə çevrilmiş iki təsisat - Avropa Parlamenti və Avropa Şurası Parlament Assambleyası günahsız insanların qətlinə görə Prezident Makronun hökuməti ilə məsuliyyəti bölüşür. Fransadakı bütün siyası məhbuslar dərhal azad olunmalıdır. Əgər Avropanın əsas diplomatı Cozep Borel Avropanı bağ, dünyanın qalan hissəsini isə cəngəllik adlandırırsa, onda Avropa Parlamenti ilə Avropa Şurası Parlament Assambleyasından daha nə gözləmək olar?! Əgər biz cəngəlliyiksə, onda bizdən kənar durun və işlərimizə qarışmayın", - deyə Azərbaycan Prezidenti bildirib və bəyan edib ki, ölkəmiz Qoşulmama Hərəkatının sədri kimi kiçik ada dövlətlərinə dəstək verib, COP29-un sədri kimi onları dəstəkləyəcək və gələcəkdə də dostlarımızı dəstəkləməkdə davam edəcəyik.

*Flora SADIQLI, "Azərbaycan"*

COP29 Baku Azerbaijan

## Qarabağ Zəfərindən qlobal "yaşıl həmrəyliy"ədək

# Xankəndidə möhkəmlənən qardaşlıq

**Dünyanın ən böyük və ən mötəbər iqlim tədbiri Azərbaycanda uğurla davam edir. Birləşmiş Millətlər Təşkilatının (BMT) İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının (COP29) 29-cu sessiyasında iştirak etmək üçün müxtəlif ölkələrin dövlət başçıları, baş nazirləri, nazirlər və digər rəsmilər ölkəmizə gəliblər. Bəşəriyyət üçün xüsusi önəm daşıyan ətraf mühitin mühafizəsi və iqlim dəyişmələrinin fəsadlarının aradan qaldırılması məsələləri müzakirə olunur, problemlərdən çıxış yolları aranır.**




Digər qardaş türk dövlətləri kimi, Özbəkistan da Bakıda keçirilən COP29-da ən yüksək səviyyədə təmsil olunur. Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev noyabrın 11-də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında iştirak etmək məqsədilə Azərbaycana səfər edib.

Qeyd edək ki, türkdilli dövlətlərin başçıları BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında fəal iştirak edəcəklərini bir sıra tədbirlərdə, həmçinin bu ilin iyulunda Şuşada keçirilən Türk Dövlətləri Təşkilatına daxil olan ölkələrin dövlət rəhbərlərinin qeyri-rəsmi Zirvə görüşündə bildirmişdilər. O zaman Özbəkistan Prezidenti Şavkat Mirziyoyev qeyd etmişdi: "Biz bu nüfuzlu tədbirə fəal şəkildə qatılmağa və bu məsələdə Azərbaycana mümkün olan hər cür yardımı göstərməyə hazırıq".

Noyabrın 12-də Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının Liderlər Sammitinin plenar iclasında çıxışında Özbəkistan Prezidenti müasir iqlim çağırışlarına qarşı mübarizədə beynəlxalq əməkdaşlığın genişləndirilməsi istiqamətində Azərbaycan tərəfinin fəal səylərinə dəstəyini ifadə edib.

Şavkat Mirziyoyev bu gün iqlim dəyişmələrinin əsas qlobal çağırışa çevrilərək, geosiyasi gərginliyin artmasına birbaşa təsir göstərdiyini vurğulayıb: "İqlim dəyişmələrinin fəsadları Mərkəzi Asiya regionunda kəskin hiss olunur. Onlar əhalinin həyat keyfiyyətinin yüksəldilməsinə və milli inkişaf strategiyalarının həyata keçirilməsinə maneə törədir".

Noyabrın 13-də Azərbaycan Prezidenti İlham Əliyevin, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin və Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin üçtərəfli görüşü olub. Azərbaycanın, Qazaxıstanın və Özbəkistanın dövlət başçıları "Azərbaycan Respublikası, Qazaxıstan Respublikası və Özbəkistan Respublikası hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində Strateji tərəfdaşlıq haqqında Saziş"i imzalayıblar.

Görüşdə Azərbaycan Prezidenti sözügedən sazişin imzalanmasının tarixi əhəmiyyətini vurğulayıb: "Biz ölkələrimiz arasında qardaşlıq münasibətlərini daha da möhkəmləndiririk və "yaşıl enerji" sahəsində fəal əməkdaşlıq edəcəyik. Həmçinin deyərdim ki, imzaladığımız bugünkü saziş Mərkəzi Asiya və Qafqaz regionlarının əməkdaşlığında yeni imkanlar açır". Dövlətimizin başçısı bildirib ki, mahiyyət etibarilə Mərkəzi Asiya və Qafqaz regionlarında inteqrasiya prosesləri, nəqliyyat, energetika, ticarətlə bağlı proseslər bu gün deməyə imkan verir ki, bu iki region bir çox məsələlərdə, o cümlədən "yaşıl enerji"nin inkişafı sahəsində sinxron fəaliyyət göstərir: "Biz Özbəkistanda, Qazaxıstanda və Azərbaycanda bərpaolunan enerji mənbələrinin yaradılması üzrə artıq əldə edilmiş böyük planlar və nəticələr haqqında bilirik. Yəni biz, belə demək mümkünsə, paralel kursla gedirik və Xəzərin dibi ilə elektrik kabelinin çəkilməsi təkcə üç ölkəmiz arasında deyil, həm də daha geniş miqyasda əməkdaşlıqdır".





Prezident İlham Əliyev qeyd edib ki, Qarabağın bərpasında bizə ilk yardım edən ölkələr Özbəkistan və Qazaxıstandır: "Füzulidə Mirzə Uluqbəy adına məktəb, Kurmanqazı adına yaradıcılıq mərkəzi bu gün qardaşlığımızın bariz sübutudur. Əminəm ki, biz gələcəkdə də həmişə bir yerdə olacağıq və bir-birimizi dəstəkləyəcəyik".

Üçtərəfli görüşdə çıxışında Özbəkistan Prezidenti vurğulayıb ki, Birləşmiş Millətlər Təşkilatının (BMT) İqlim Sammitinin uğurla keçirilməsi Azərbaycanın nüfuzunun göstəricisidir: "Regionumuzda ilk dəfədir ki, belə möhtəşəm tədbir keçirilir və bu, Azərbaycanın qlobal miqyasda ən yüksək nüfuzunun bariz göstəricisidir. Bu gün biz Avropaya birlikdə yeni "yaşıl enerji dəhlizi" yaradırıq. Bu da tarixi hadisədir". Özbəkistan Prezidenti qeyd edib ki, bərpaolunan enerji təkcə iqtisadi məqsəd deyil: "Bu, bizim gələcəyə verdiyimiz töhfədir, gələcək nəsillər qarşısında məsuliyyət hissimizin nəticəsidir".

Daha sonra Azərbaycan, Qazaxıstan və Özbəkistan prezidentlərinin iştirakı ilə Azərbaycan, Qazaxıstan, Özbəkistan, Səudiyyə Ərəbistanı Krallığı arasında "Yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində əməkdaşlıq üzrə Azərbaycan Respublikasının, Qazaxıstan Respublikasının, Özbəkistan Respublikasının və Səudiyyə Ərəbistanı Krallığının Energetika nazirlikləri arasında İcra Proqramı"nın imzalanması mərasimi olub.

Noyabrın 13-də Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistan Prezidenti Şavkat Mirziyoyev ilə görüşü olub. Şavkat Mirziyoyev COP29-un uğurla keçirilməsi münasibətilə təbriklərini çatdıraraq, bu tədbirin çox yüksək səviyyədə təşkil olunduğunu vurğulayıb. Bildirib ki, Özbəkistan Azərbaycana dost, qardaş və müttəfiq ölkə olaraq buna sevinir. Şavkat Mirziyoyev Özbəkistanda Azərbaycana xüsusi münasibət olduğunu bildirib. O, ikitərəfli münasibətlərimizin inkişafında tarixi bir dövrün olduğunu vurğulayıb. Ölkələrimiz arasında bu il imzalanan müttəfiqlik münasibətləri haqqında müqaviləni qeyd edib. Deyib ki, nümayəndə heyətlərimiz yaxından işləyir, qarşıya qoyulan layihələr uğurla icra edilir.

İmzalanan sənədlərin əhəmiyyətinə toxunan Prezident İlham Əliyev "yaşıl enerji"nin inkişafı və ötürülməsi layihələrinin həyata keçirilməsinin mahiyyətini diqqətə çatdırıb.

Dövlətimizin başçısı Xankəndi şəhərində tikiş fabrikinin inşası ilə bağlı layihəyə görə minnətdarlığını bildirib. Burada xeyli sayda insanın işlə təmin olunacağının önəmini vurğulayıb.

Söhbət zamanı Bakıda Özbəkistan Evi, Özbəkistanda isə Azərbaycan Evi layihələrinin icrasından məmnunluq ifadə olunub. Özbəkistanda ölkəmizin ticarət nümayəndəliyinin açılması, təhsil, maşınqayırma, inşaat, mədən, əczaçılıq, pambıqçılıq, turizm sahələrində layihələrlə bağlı fikir mübadiləsi aparılıb.

Sonra Azərbaycan və Özbəkistan prezidentlərinin iştirakı ilə Xankəndi şəhərində tikiş fabrikinin videobağlantı vasitəsilə açılış mərasimi olub.

Azərbaycan Prezidenti bu fabrikin birliyimizin daha bir rəmzi olduğunu diqqətə çatdırıb: "Mən qardaşım Şavkat Miromonoviçə minnətdarlığımı bildirirəm ki, bizim özbək dostlarımız qısa müddətdə Xankəndidə minlərlə insanın çalışacağı və təbii ki, mütləq əksəriyyəti qadınlardan ibarət gözəl müəssisənin yaradılmasına kömək göstərdilər. Bu, məşğulluqdur, bu, istehsaldır, bu, Qarabağın inkişafıdır. Özbək qardaşlarımız isə yenə burada birincidirlər. Füzulidə məktəb tikməkdə bizə ilk yardımçı oldular, işğaldan azad edilmiş ərazilərdə belə böyük bir müəssisə yaratmaqda bizə ilk köməyi göstərdilər".

Diqqətə çatdıraq ki, Azərbaycan-Özbəkistan birgə müəssisəsi olan tikiş fabriki iki ölkə arasında uğurlu əməkdaşlığın rəmzidir. Ölkəmizdə yüngül sənayenin inkişafına yeni imkanlar yaradan, dostluq, iqtisadi tərəfdaşlıq əlaqələrimizi möhkəmləndirən bu müəssisə Azərbaycan və Özbəkistan arasında iqtisadi və investisiya əməkdaşlığının dərinləşdirilməsinə dair iki ölkə prezidentlərinin tapşırıqlarına əsasən inşa edilib. Layihənin ümumi investisiya dəyəri 11 milyon manat təşkil edir. Fabrikin xammal tədarükü üçün birgə sənaye əməkdaşlığı həyata keçirilir. Həm yerli, həm də Özbəkistan xammalı əsasında fəaliyyət göstərəcək, regionda qeyri-neft ixracının artımına əhəmiyyətli töhfə verəcək fabrikdə istehsal ediləcək məhsulların 80 faizi müxtəlif ölkələrə ixrac olunacaq. Burada ümumilikdə 800 iş yeri yaradılacaq.

Layihənin ilkin mərhələsi üzrə peşəkar təlim almış 250 nəfər hazırda işlə təmin edilib. Müəssisədə işğaldan azad edilmiş ərazilərə qayıdan və ətraf rayonlarda yaşayan vətəndaşların məşğulluğuna xüsusi diqqət yetirilib.

*Zöhrə FƏRƏCOVA, "Azərbaycan"*

# Azərbaycanın təşəbbüsü dəstək qazanır

## "Yaşıl nəqliyyat" ekoloji təhlükəsizliyə mühüm töhfədir




Hazırda ölkəmizdə keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) dünyanı təhdid edən ekoloji fəsadların aradan qaldırılması istiqamətində reallaşdırılan önəmli tədbirdir. Tədbir çərçivəsində sağlam gələcək naminə müzakirə edilməsi nəzərdə tutulan mövzulardan biri də şəhər nəqliyyatının "yaşıllaşdırılması"dır.

Dünya iqlim dəyişikliyinin ağır təsirləri ilə mübarizə apararkən "Yaşıl nəqliyyat" ətraf mühitə dəyən zərərli təsirləri minimuma endirməyi nəzərdə tutur. Noyabrın 20-də COP29 çərçivəsində nazirlərin bu mövzuda "dəyirmi masa"sı keçiriləcək. "Dəyirmi masa"da şəhər nəqliyyatının davamlılığını artırmaq məqsədilə həmin sistemlərin milli, regional və lokal planlama çərçivələrinə inteqrasiya strategiyalarının ətraflı müzakirəsi planlaşdırılır.

Konfransda keçirilən və keçiriləcək bu kimi tədbirlər dövlətlər arasında birgə planlaşdırmaya, dayanıqlı infrastrukturun inkişafına şərait yaradacaq, şəhər nəqliyyatının dekarbonizasiyasını sürətləndirmək üçün daha sıx əməkdaşlıqlara təşviq edəcək.

### Elektromobillərin istifadəsini stimullaşdıran önəmli addımlar atılır

Azərbaycan qlobal iqlim dəyişikliyinin fəsadlarının minimuma endirilməsi ilə bağlı irəli sürdüyü əhəmiyyətli layihələrin təşəbbüskarı kimi yalnız regionda deyil, dünyada da qabaqcıl ölkələr sırasındadır. Son illərdə ölkəmizdə atmosferi çirkləndirən, ekologiyaya zərər vuran nəqliyyat vasitələrindən, yanacaqlardan istifadənin azaldılması, elektromobillərə üstünlük verilməsi ilə bağlı dövlət tərəfindən stimullaşdırıcı tədbirlər həyata keçirilir. Mövzu ilə bağlı qəzetimizə açıqlama verən nəqliyyat məsələləri üzrə ekspert Eldəniz Cəfərovun sözlərinə görə, hazırda dünyada "yaşıl hərəkat" var. Azərbaycan da bu hərəkatın fəal üzvlərindən biridir: "2024-cü ilin ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" kimi qeyd edilməsi də bunun bariz göstəricisidir. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də də 2030-cu ilə qədər Azərbaycanın təmiz ətraf mühit və yaşıl artım ölkəsinə çevrilməsi qarşıya qoyulan hədəflərdən biridir. Elə bu səbəbdən də ölkədə atmosferə buraxılan zərərli qazların, əsasən də karbon qazı emissiyasının azaldılması istiqamətində bir sıra işlər görülür. Buna nümunə kimi bərpaolunan təmiz enerjiyə keçid, parkların salınması, ekoloji cəhətdən təmiz nəqliyyat vasitələrinin istismarı ilə bağlı aparılan stimullaşdırıcı, həvəsləndirici addımları sadalaya bilərik. Təbii ki, bütün bu kompleks tədbirlər ətraf mühiti çirkləndirən müəyyən amillərin qarşısını alacaq, ətraf mühitə, ekologiyaya müsbət təsir edəcək".

Ölkəmizdə elektrik mühərrikli avtomobil istifadəçilərinin sayının artdığını söyləyən ekspert bildirib ki, bunun əsas səbəbi elektromobillərin ölkə daxilində istifadəsini stimullaşdıran önəmli addımların atılmasıdır: "Ölkəyə idxal olunan yeni elektromobillər gömrük rüsumundan və vergidən azaddırlar. Bu həm sahibkarlar, həm də istehlakçılar üçün olduqca yaxşı fürsətdir. Belə ki, elektromobilləri ölkəyə gətirsinlər, vətəndaşlar üçün nisbətən əlçatan olsun. Elektromobillərlə yanaşı, hibrid avtomobillərin də gömrükdə əlavə dəyər vergisindən azad olunması müsbət haldır".

Bir müddət əvvələ qədər ölkəmizdə elektromobillərdə enerjidoldurma ilə bağlı müəyyən çətinliklər olsa da, hazırda bu problem tamamilə aradan qaldırılıb. Eldəniz Cəfərov qeyd edib ki, bunun əsas səbəbi ölkəyə idxal olunan elektrik mühərrikli nəqliyyat vasitələrinin infrastrukturunun inkişafı ilə bağlı qərarların verilməsidir: "Elektromobillər üçün nəzərdə tutulmuş enerjidoldurma məntəqəsində istifadə olunan avadanlıq və cihazlar da idxal zamanı demək olar ki, rüsumlardan azad edilib. Bu da şərait yaradır ki, özəl sektor da bu məsələyə cəlb olunsun, sahibkarlar ölkədə enerjidoldurma məntəqələrinin açılmasında fəaliyyət göstərsinlər. Bu proses dövlət-biznes dialoqu çərçivəsində qurulub. Dövlət özü də "Azərişıq" qismində ölkə üzrə enerjidoldurma məntəqələrini quraşdırır. Hər ay ən azı bir neçə enerjidoldurma məntəqəsinin yaradılmasının şahidi oluruq".

### Şəhər mobilliyinə də təkan veriləcək

Bu gün dünyada olduğu kimi, ölkəmizdə də avtomobil sıxlığının qarşısının alınması məqsədilə mikromobillik vasitələrindən istifadənin təbliği istiqamətində işlər aparılır. Paytaxtın küçə və prospektlərində mobillik imkanlarının yaxşılaşdırılması qlobal istiləşməyə səbəb olan karbon emissiyaları istehsalının qarşısını almaqla havanın çirklənməsinə də mane olur. Eldəniz Cəfərov bildirib ki, indiyədək paytaxtda velosipedlər və digər mikromobillik vasitələrindən nəqliyyat vasitələri kimi deyil, idman və əyləncə vasitəsi kimi istifadə olunurdu: "Velosiped və e-skuterlər nəqliyyat vasitələri kimi populyarlaşdıqca bu, şəhər mobilliyinə də təkan verəcək. Şəhər mobilliyi istər piyada, istər sürücü, bir sözlə, hər kəsin hərəkətinin sərbəst, maneəsiz olması deməkdir. Hazırda Bakıda 20 kilometr məsafəni əhatə edən mikromobillik zolağı təşkil edilib. Görülən işlər çərçivəsində əlçatanlığın təmin edilməsi üçün panduslar inşa olunub, təhlükəsizlik məqsədilə yol nişanları quraşdırılıb, müvafiq nişanlama işləri aparılıb və mövcud işıqforlarda 25 velosiped bölməsi quraşdırılıb. Bu addımlar atılarkən inklüzivliyə də xüsusi diqqət yetirilib, əlilliyi olan şəxslərin rahat hərəkət edə bilməsi üçün müvafiq şərait yaradılıb".

"Yaşıl nəqliyyat"a keçid iqlim fəsadlarının aradan qaldırılmasına öz töhfəsini verəcək. COP29 bir sıra yeni layihələrə təkan verəcək ki, bu da bəhrəsini təkcə nəqliyyat sahəsində deyil, digər sahələrdə də göstərəcək.

*Ülkər XASPOLADOVA, "Azərbaycan"*

COP29 Baku Azerbaijan

# Kütləvi iştirak, böyük ictimai maraq, peşəkar təşkilatçılıq






# "Yaşıl zona"da "yaşıl əməkdaşlıq"

Noyabrın 11-də Bakıda Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Sazişinin Tərəflər Konfransının 29-cu sessiyasının təntənəli açılış mərasimi keçirildi.

Bütün dünya bu mərasimi böyük maraqla izlədi. Belə mötəbər, dünya üçün böyük əhəmiyyət daşıyan bir tədbirin ölkəmizdə keçirilməsi Azərbaycana olan yüksək hörmətin nəticəsidir.

Noyabrın 12-də isə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının Liderlər Sammitinin açılış mərasimi keçirildi. Azərbaycan Prezidenti İlham Əliyev Liderlər Sammitinin açılış mərasimində proqram xarakterli nitq söylədi. Azərbaycanın "yaşıl enerji" sahəsində reallaşdırdığı nəhəng layihələrdən danışdı.

Birləşmiş Millətlər Təşkilatının Baş katibi Antonio Quterreş isə çıxışı zamanı iqlim dəyişmələrinin qarşısını almaq üçün vaxtın az olduğunu bildirdi və bunun üçün ayrılan maliyyənin həcmini artırmağa çağırış etdi.

Ölkəmizə gələn həm dövlət başçıları, həm də sadə nümayəndələr tədbirin çox yüksək səviyyədə təşkil olunduğunu bildirdilər, təşkilatçılıq işlərindən razılıq etdilər. "Bakıda COP29 sammiti yüksək səviyyədə təşkil olunub və Braziliya növbəti COP30 sammitində Azərbaycanın təcrübəsindən faydalanacaq" deyən Braziliyanın vitse-prezidenti Jeraldu Alkmin qeyd edib ki, COP30 sammitində COP29-da müzakirə edilən əsas məsələlər yenidən gündəmə gətiriləcək və daha da təkmilləşdiriləcək. Vitse-prezidentin sözlərinə görə, Azərbaycanın evsahibliyi etdiyi COP29 sammiti gələcək tədbirlər üçün nümunə olacaq. Təbiidir ki, ölkəmizin paytaxtına gəlmiş qonaqlardan xalqımızın, dövlətimizin ünvanına xoş sözləri eşitmək hər birimizi qürurlandırır.

COP29-un yüksək səviyyədə təşkil olunduğuna hər kəs canlı şahidlik edir. Həm qonaqların, həm də ziyarətçilərin tədbirin keçirildiyi ünvana getməsi üçün rahat şərait yaradılıb. Əvvəlcədən avtobusların hərəkət cədvəli müəyyənləşdirilib. Metronun "Koroğlu" stansiyasından tədbirin keçirildiyi Bakı Olimpiya Stadionuna müntəzəm olaraq avtobuslar işləyir.

Biz də metronun "Koroğlu" stansiyasındakı əlverişli şəraiti olan dayanacağa yaxınlaşdıq. Sənədlərin ciddi yoxlanışından sonra avtobusun salonuna keçib rahat oturacaqda əyləşdik. Burada həm ziyarətçilər, həm də qonaqlar var idi. Avtobus dövrə vurub "yaşıl zona"nın qarşısında dayandı. Ətrafda xeyli sıxlıq var idi. İnsanlar böyük maraqla pavilyonları ziyarət etməyə, müxtəlif ölkələrin, şirkətlərin dünyanı xilas etmək üçün iqlim dəyişmələri ilə bağlı gördükləri və görəcəkləri işlərlə, müasir texnologiyalarla tanış olmağa çalışırdılar. Bu sahədə biliklərini, təcrübələrini bölüşürdülər.












Burada təşkil olunan müxtəlif ölkələrin pavilyonları ilə tanış olduq. Bu gün atmosferin çirklənməsinin qarşısının alınması üçün avtomobillərdə elektrik enerjisindən istifadə olunması gündəmdə olan ən vacib məsələlərdən biridir. Dünyanın bir çox dövləti atmosferin çirklənməməsi üçün tədricən benzin və dizel yanacaqlarından imtina edərək elektrik enerjisindən istifadə etməyə can atır. Pavilyonların birində "Charge.az" şirkəti təmsil olunurdu. Şirkətin nümayəndələri Nicat Abdulməcid və Elman Mirzəyev bizimlə söhbətlərində bildirdilər ki, Azərbaycanda elektrik avtomobillərin həm fərdi (eviniz, bağınız üçün) enerji doldurucularının satışını və quraşdırılmasını, həm də ictimaiyyətə açıq şarj məntəqələrinin quraşdırılmasını və mobil tətbiq üzərindən idarə olunmasını təklif edirlər: "Təqdim etdiyimiz enerji doldurucuları TÜVRheinland, CE standardlarına cavab verir və ən yüksək keyfiyyətdədirlər. Onlara iki il təminat da veririk. Elektrik enerjisindən istifadədə əsas məqsəd atmosferin çirklənməsinin qarşısını almaqdır. Yanacaqdan istifadə zamanı atmosferə atılan tüstü və müxtəlif qazlar istilik yayır, ətraf mühiti çirkləndirir. Elekrtik enerjisindən istifadə olunduqda isə atmosfer çirklənmir. Dünyamızın daha da təmiz qalması üçün biz insanları elektrik enerjisi ilə qidalanan avtomobillərə və başqa texnologiyalara üstünlük verməyə çağırırıq. Qoy planetimiz daha təmiz qalsın, yaşamaq üçün daha sağlam olsun".

Polşa Respublikasının "MZURİ" şirkətinin pavilyonu da çox ziyarət olunurdu. Ziyarətçilər şirkətin gördüyü işlərlə yaxından maraqlanırdılar. Bu müəssisənin nümayəndəsi Marek Rozniyak gördükləri işlərdən söhbət açaraq dedi ki, əsas məqsəd planetimizi daha da təmiz saxlamaq və onu çirkləndirməməkdir: "Biz artıq 30 ildən çoxdur ki, kənd təsərrüfatı işləri ilə məşğuluq. Şirkətimiz torpağın şumlanması, əkilməsi və məhsulun ekoloji cəhətdən təmiz yığılması, saxlanması üçün ən müasir texnologiyalardan yararlanır. İstifadə edilən bu texnologiyalar insanların sağlamlığına və ətraf mühitin çirklənməməsinə yönəlib. 10 ildən artıqdır ki, şirkətimiz bu işlərə dünyada inqilab sayılacaq texnologiyaları tətbiq edir. 2019-cu ildən başlayaraq şirkətdə elmi araşdırmalar mərkəzi fəaliyyət göstərir. Bu mərkəzin təyinatına, qarşıya qoyduğu məqsədinə görə analoqu yoxdur. Demək olar ki, dünyada yeganə mərkəzdir. Bu da bizə imkan verir ki, dünyamızın ekoloji cəhətdən daha da təmiz olmasına töhfə verək. Biz Azərbaycanın işğaldan azad olunmuş ərzilərində də kənd təssərrüfatı işləri görə bilərik. Fikirləşirəm ki, bununla Azərbaycan xalqına kömək etmiş olarıq. Şirkətin nümayəndəsi kimi Bakıya 10-cu səfərimdir. Həmişə Azərbaycan xalqından qonaqpərvərlik və xoş münasibət görmüşük. Bu, xalqınızın mədəniyyətinin inkişafının müsbət göstəricisidir".

"Yaşıl zona"nın pavilyonunda dünyanın aparıcı dövlətlərindən biri olan İngiltərənin "Extreme Hangout" şirkəti də təmsil olunurdu. Burada insanlar daha çox gözə dəyirdi. Tərcüməçilər Qədim Qazıxanov və Cavid Məmmədovun köməyi ilə şirkətin nümayəndəsi Themdo Zntone ilə qısa söhbət etdik. O dedi: "Şirkətimiz dünyada gedən iqlim dəyişikliklərini diqqətlə izləyir. Dünyamızı narahat edən problemlərin həll olunması istiqamətində zəruri tədbirlərin həyata keçirilməsinə dəstək verməyə çalışırıq. Şirkətimiz artıq dördüncü COP-dur ki, iştirak edir. Dünyamızın ekoloji cəhətdən təmizliyi, iqlim dəyişmələri bizim üçün vacib məsələlərdən biridir. Biz daim insanları narahat edən bu problemləri qabartmağa və onun həllinə nail olmağa çalışırıq. Bu günə qədər iqlim dəyişiklikləri ilə bağlı İspaniyada, Keniyada, Birləşmiş Krallıqda, Nigeriyada və Afrika ölkələrində bir sıra mühüm tədbirlər həyata keçirmişik və müvafiq uğurlar əldə etmişik. Dünyamızın ekoloji cəhətdən təmiz olması üçün bundan sonra da böyük səmərə verəcək tədbirlər həyata keçirəcəyik. Azərbaycanda ilk dəfədir ki, oluruq. Bizə göstərilən diqqət və qayğıdan çox məmnunuq. Burada keçirdiyimiz günləri həmişə xoş təəssüratlarla xatırlayacağıq. Buna görə xalqınıza minnətdarıq".

"Yaşıl zona"ya gələnlərin ardı-arası kəsilmirdi. "Ağ şəhər layihəsi" yerləşdirilmiş guşəyə baxanların sayı isə daha çox idi. Böyük bacarıq və ustalıqla yaradılmış və səliqə ilə yerləşdirilmiş eskizlər görənləri heyran edirdi. Həqiqətən də belə gözəlliyə heyran qalmamaq mümkün deyildi.

Pavilyonda kiminlə söhbət etdiksə, qonaqpərvərliyinə görə xalqımızın ünvanına yalnız və yalnız xoş sözlər söylədi. Ziyarətçilər müraciət etdikləri bölmələrdə hörmətlə qarşılanır və ətraflı məlumatlandırılırdı. Burada həm ziyarətçilər, həm də iştirakçılar üçün bütün lazımi şərait yaradılmışdı. Belə bir şərait həm ziyarətçilərin, həm də qonaqların ürəyincə idi. İlıq payız günlərində ölkəmizdə keçirilən planetimizin iqlim dəyişmələrinə həsr olunmuş bu beynəlxalq tədbir yüksəksəviyyəli təşkilatçılığına görə COP-un tarixinə qızıl hərflərlə yazılacaq. Dünyada qazandığı nüfuzuna görə Azərbaycanın adı həmişə birincilər sırasında çəkiləcək.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

# Bakıda COP29 çərçivəsində Parlament Görüşü keçiriləcək




Noyabrın 16-da və 17-də Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 çərçivəsində Parlamentlərarası İttifaq və Azərbaycan Respublikası Milli Məclisinin birgə təşkilatçılığı ilə Parlament Görüşü keçiriləcək.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, 66 ölkədən və beynəlxalq təşkilatlardan 92 nümayəndə heyətinin, 330-dək iştirakçının qatılacağı tədbirdə 12 spiker və vitse-spiker başda olmaqla 167 parlament üzvünün iştirakı gözlənilir.

Parlament Görüşündə keçiriləcək sessiyalarda iqlim dəyişmələrinin real təsirləri, iqlim öhdəliklərinin reallığa çevrilməsi üçün təsirlərin azaldılması ilə bağlı iddialı tədbirlərin artırılmasında və milli səviyyədə müəyyən edilmiş töhfələrin həyata keçirilməsində parlamentlərin rolu, iqlim maliyyələşdirilməsinin qlobal arxitekturasının inkişafı, iqlim dəyişmələrinə qarşı dayanıqlılığın artırılması, bu sahəyə hərtərəfli və ədalətli yanaşmanın təşviqi, iqlim dəyişmələri ilə mübarizə aparmaq və ədalətli çıxışı təmin etmək məqsədilə texnologiyadan istifadə, dəyişən iqlim şəraitində sağlamlıq və qida təhlükəsizliyi səyləri, insan yerdəyişməsinin və iqlim dəyişmələrinin idarə edilməsi və digər mövzularda müzakirələr aparılacaq, yekun sənəd qəbul ediləcək.

Tədbir çərçivəsində bir sıra ikitərəfli görüşlərin keçirilməsi də nəzərdə tutulur.

*"Azərbaycan"*

# Köhnə texnologiyaların ətraf mühitə vurduğu ziyanı yeni texnologiyalarla aradan qaldırmaq mümkündür

## "Novorom"un təmsilçisi S.MEŞKOV:

## "Bizim missiyamız istixana qazlarını qiymətli kimyəvi maddələrə çevirməkdir"

Dünya özünün ən aktual problemini - ətraf mühitin xilasını Bakıda müzakirə edir. Və bu müzakirələrdə COP29-u əvvəlki tədbirlərdən kəskin şəkildə fərqləndirən əsas cəhət odur ki, Azərbaycanda siyasi çağırışlardan çox real işlərin görülməsi gündəm olur.

Bu da təsadüfi deyil. Hazırda vəziyyət o qədər gərgindir ki, bir günü belə boş keçirmək olmaz. Real iş görmək üçün isə külli miqdarda vəsait lazımdır. Siyasi qərarlar, maliyyənin ayrılması dövlətlər tərəfindən təmin edilsə də, onun icrası bu sahədə fəaliyyət göstərən şirkətlərdən asılıdır. O üzdən COP29-da ətraf mühitin bərpası, tullantıların təkrar istehsalı sahəsində fəaliyyət göstərən tanınmış şirkətlər təmsil olunurlar.

Belə şirkətlərdən biri də "Novorom"dur. COP29-un sərgi iştirakçısı olan "Novorom"un mühəndisi Sergey Meşkov deyir ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) iqlim dəyişikliyi ilə mübarizədə fikirlərimizi bölüşmək üçün əla platformadır. Sərgidə iştirakından məmnunluğunu bildirən S.Meşkov konfransdan gözləntiləri sırasında iqlim problemlərinin həllini dəstəkləmək, ətraf mühiti yaxşılaşdırmaq, "yaşıl yanacaq" yaratmaq və digər məsələlərin dayandığını söylədi. O həmçinin vurğuladı ki, konfransdakı panel müzakirələrdən sonra nə etdiyimizi və edəcəyimizi bölüşmək, potensialımızı göstərmək çox vacibdir: "Biz məhsul tullantılarına hər zaman diqqət yetirmişik. Əkinçilik sektorunu dəstəkləmək üçün həmin tullantılardan gəlirli məhsullar əldə edə bilərik".

"Novorom" fəaliyyətində Ninox Ltd şirkətinin avadanlıqlarından istifadə edir. Ninox Ltd ən müasir texnologiya ilə səhiyyə sənaye üçün yüksəkkeyfiyyətli tam yaşıl qaz hasilatı qurğularında inqilab edib. Şirkət ətraf mühitə vurulan ziyanı azaltmaq üçün dörd əsas qazın ani istehsalı üçün portativ həllər təklif edir - inhalyasiya edilmiş nitrik oksid (NO), azot, oksigen və tibbi hava. Bunlar hamısı ətraf havadan alınır və ciddi Avropa sertifikatlaşdırma standartlarına cavab verir.

Ninox universal sistemləri böyük xəstəxanalar, tibbi qaz logistika qovşaqları və yük maşınları da daxil olmaqla, müxtəlif parametrlərə mükəmməl inteqrasiya olunur. Bu yenilik logistik problemləri həll edir, əməliyyatları sadələşdirir, səhiyyə təminatçıları və qaz təchizatçıları üçün xərcləri azaldır, səmərəli və sərfəli həll təklif edir. Ninox həmçinin dörd əsas qazın - tənəffüs edilmiş nitrik oksidin (NO), azot, oksigen və tibbi havanın ətraf havadan və tamamilə yaşıllıqdan qaynaqlanan tələb əsasında istehsalı üçün portativ həllər hazırlayıb. Nanoplaz isə iqlim dəyişikliyi ilə mübarizədə inqilabi bir yenilikdir. Bu yenilik yüksək məhsul seçiciliyi, yüksək enerji səmərəliliyi və yüksək dönüşüm dərəcəsi ilə diqqəti cəlb edir.

Daha "yaşıl gələcək" üçün qabaqcıl plazma texnologiyası ilə CO2 dönüşümünün innovasiyası, daha "yaşıl gələcək" üçün innovativ karbon çevrilməsi və nanoplazı da inqilabi yenilik adlandırmaq mümkündür. Bu, istixana qazlarını qiymətli məhsullara çevirmək və iqlim dəyişikliyi ilə mübarizə aparmaq üçün yeni texnologiyadır.

"Hazırda istixana emissiyalarının kritik səviyyəsi ən böyük ekoloji problemlərdən biridir. Bizim missiyamız yeni plazma reaktoru texnologiyası vasitəsilə COP çevrilməsini və metan dissosiasiyasını inkişaf etdirmək, istixana qazlarını qiymətli kimyəvi maddələrə çevirmək və daha "yaşıl", daha davamlı gələcək üçün qlobal emissiyaları əhəmiyyətli dərəcədə azaltmaqdır", - deyə müsahibimiz bildirdi.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*




COP29
Baku
Azerbaijan

# "Yaşıl həmrəylik" Azərbaycandan başlayır

## "Yaşıl zona"nın "yaşıl pavilyon"unda Ağ şəhərin ağ günləri sərgilənir

Artıq beş gündür ki, Bakı Olimpiya Stadionunda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində Azərbaycanın və müxtəlif ölkələrin pavilyonları fəaliyyət göstərir.




Tədbirin ilk günündən "yaşıl zona"da COP29-u özündə ehtiva edən layihələr, proqramlar müzakirə edilir. Biz Bakı Olimpiya Stadionunda olarkən bir neçə panel müzakirələrdə iştirak etdik, bir çox pavilyonla tanış olduq. İlk olaraq Bakı Ağ şəhər pavilyonuna yaxınlaşdıq. Diqqətimizi çəkən tablo Bakının dünən "Qara şəhər" adlanan ərazisinin bu gününü özündə əks etdirən gözəlliklər oldu. Pavilyonda Bakının keçmişi ilə bu günü arasındakı fərqi özündə əks etdirən panorama təqdim edilmişdi. Bizə məlumat verildi ki, Ağ şəhər layihəsinə start veriləndə ətraf mühitin qorunması, təbiətin yaşıl qalması üçün lazım olan detallar nəzərdə tutulub.

Bu gün Ağ şəhər pavilyonundakı görüntülər dünənin işi deyil. Hətta COP29-un nə zamansa Bakıda keçiriləcəyi, Azərbaycanda bərpaolunan enerjidən istifadə olunacağı, Qarabağın və Şərqi Zəngəzurun "yaşıl enerji zonası" adlandırılacağı haqqında söhbət getməyəndə, yaxud da kimlərinsə bu barədə məlumatı olmayanda Ulu Öndər Heydər Əliyev demişdir: "Azərbaycanda yüz illərdən bəri "Qara şəhər" adlanan şəhər ağaracaqdır, təmizlənəcəkdir, orada gül-çiçək əkiləcəkdir və o, Azərbaycanın gözəl bir guşəsinə çevriləcəkdir". Ulu Öndərin uzaqgörənliklə söylədiyi bu sözlər indi reallığa çevrilib. Bakı Ağ şəhərin timsalında iri biznesi və xarici investorları cəlb edən paytaxt, getdikcə daha çox iş və yaşayış, istirahət və əyləncələr üçün arzu edilən böyük şəhərlərdən biri kimi diqqət çəkir. Dünyanın qədim neft sənayesi mərkəzi olan Bakının qısa müddətdə ən iri şəhərlərdən birinə çevrilərək Ağ şəhərin fonunda təkrarolunmaz siması pavilyonda da sərgilənmişdi. Və bütün bu gözəlliklər "yaşıl zona"da hər kəsi özünə cəlb edirdi.

Qeyd edək ki, Qara şəhər XIX əsrin sonunda Bakının şərq hissəsində yaranmışdır. Sonradan o, "qara qızıl"ın emalı, saxlanılması və nəqli ərazisi kimi 100 ildən artıq bir müddətdə neft sənayesində mühüm rol oynamışdır. Bakı buxtasının mərkəzində yerləşən Qara şəhərin dirçəlməsi üçün görünməmiş perspektiv yaranmışdır. Paytaxtın mərkəzinin şərq hissəsində dinamik inkişaf edən şəhər infrastrukturu ilə əhatə olunmuş 1650 hektar ərazinin yeni təyinatlı şəhər kimi canlanması və investisiyalar üçün ən cəlbedici məkanlardan birinə çevrilməsi şansı yaranmışdır. Ağ şəhər layihəsini təqdim edənlər məlumat verdilər ki, Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün Kompleks Tədbirlər planı" çərçivəsində köhnəlmiş sənaye obyektlərinin şəhərin hüdudlarından kənara çıxarılması, çirklənmiş torpaqların təmizlənməsi və sahilyanı bulvarın abadlaşdırılması işləri həyata keçirilmişdir. Bakı Şəhər İcra Hakimiyyəti başçısının 2007-ci il 11 iyun tarixli sərəncamı ilə paytaxtı Heydər Əliyev adına Beynəlxalq Hava Limanı ilə birləşdirən "8 Noyabr" prospektinin keçdiyi Qara şəhərin bərpa olunması və planlaşdırılması haqqında qərar qəbul edilmişdir.

Layihənin konsepsiyasının formalaşdırılmasında memarlıq rəngarəngliyi, ekoloji uyğunluq və yeni ərazinin artıq mövcud olan şəhər ansamblına düşünülmüş inteqrasiyası mühüm istiqamətlər kimi əsas götürülmüşdür. Nəticədə çox maraqlı memarlıq nümunələri və investisiya perspektivləri ilə yanaşı, torpağın dirçəlişini və inşaatın stimullaşdırılmasını, bu yerdə yaşamaq və işləmək arzusu oyadan cəlbedici mühitin və infrastrukturun yaradılmasını nəzərdə tutan layihə ortaya qoyulmuşdur. Ağ şəhər ideyasının möhtəşəmliyi və görülmüş işlərin peşəkarlığı sübut edir ki, Bakı öz ənənələri ilə müasirliyə inteqrasiyada geri qalmır, əksinə, dünyanın qabaqcıl və müasir şəhərsalma layihələri səviyyəsinə qalxır. Bu layihənin reallaşdırılması ilə Qara şəhərin sənaye siması artıq keçmişdə qalıb və yerini Bakı Ağ şəhər adlı harmoniya və rahatlıq məkanına verərək öz təkrarolunmaz cizgiləri ilə regionda lider olan Bakının müasir ərazisinə çevrilib.

Bu gün yerli və xarici investisiyalar yönlü Ağ şəhər müxtəlifhəcmli yaşayış və kommersiya tikililərinin böyük seçimini təklif edir. Özəl sektor investisiya və tikinti məqsədilə kiçik villalardan başlayaraq irihəcmli komplekslərə qədər münasib yaşayış və ya kommersiya obyekti seçir. Çünki burada tikinti zamanı hər cür ekoloji normalara əməl edilib. Bakı Ağ şəhər layihəsi ekoloji təhlükəsizlik baxımından öz infrastrukturundan və landşaftından səmərəli istifadə nümunəsidir. Çirklənmiş torpağın bərpa olunması ilə ərazidə ekoloji çirkləndirmə amilləri aradan götürülüb.

1650 hektar ərazini əhatə edən, ekoloji təmiz zonada həyata keçirilən Ağ şəhər dünyanın ən iri müasir layihələrindən biridir. Bütün bu sadalananlar COP29-un yerli və xarici qonaqlarının, habelə digər ziyarətçilərinin marağına səbəb olan tabloda əks edilib. "Yaşıl zona"nın "yaşıl pavilyon"unda sərgilənən Ağ şəhər özünün ağ günlərindən xəbər verir.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***











## COP29 dünya üçün çox əhəmiyyətli nəticələr vəd edir

COP29-un Azərbaycan paytaxtında keçirilməsi, hökumət və vətəndaş cəmiyyətləri nümayəndələri, elm adamları və ekspertlərin Bakıda toplaşaraq iqlim böhranının həlli yollarını müzakirə etməsi həm ölkəmiz, həm region, həm də ümumilikdə dünya üçün əhəmiyyətli nəticələr vəd edir.

Yeni mərhələ olan enerji keçidi prosesində Azərbaycanın söz sahibi olmasının ölkə iqtisadiyyatına müsbət təsirlər göstərəcəyi qəti şübhə doğurmur. Konfrans nəticəsində turizm sektoru canlanacaq. Tədbir yeni investisiyaların və texnologiyaların cəlb olunmasına şərait yaradacaq, "yaşıl enerji"nin inkişafını təşviq edəcək. Ölkəmizin beynəlxalq əlaqələri, diplomatik mövqeyi daha da möhkəmlənəcək.

COP29 çərçivəsində əldə olunan əməkdaşlıq və təcrübə mübadiləsi Azərbaycana iqlim siyasətində daha böyük addımlar atmağa imkan verəcək, o cümlədən bu sahədə beynəlxalq əməkdaşlıqları gücləndirəcək, qlobal və regional miqyasda iqlim dəyişikliyi ilə mübarizənin səmərəliliyinin artırılması üçün ciddi platforma yaradacaq.

Qəzetimizin əməkdaşları COP29 konfransının keçirildiyi "yaşıl zona"da olublar və tədbir iştirakçılarının ölkəmiz haqqında təəssüratlarını öyrəniblər.

Yamaykadan gəlmiş İkemba Uqo ölkəmiz haqqında fikirlərini belə izah etdi:



- Bakı haqqında az-çox təsəvvürüm var idi. Amma bu qədər gözəl, cəzbedici olduğunu ağlımdan belə keçirməmişdim. Əgər əvvəllər Azərbaycanın yeraltı və yerüstü təbii zənginlikləri olan ölkə olduğu haqqında müəyyən bilgilərim var idisə, indi bu gözəl ölkə barədə daha çox məlumat topladım. İlk növbədə qeyd edim ki, ölkəniz daha çox qiymətli bir sərvətə də sahibdir. Bu da Azərbaycan xalqıdır. Burada çox mehribançılıq və səmimiyyət gördüm. İnsanlar həddən artıq qayğıkeşdirlər. Mən dünyanın heç bir yerində tanımadığı birinə bu cür istiqanlı münasibət göstərən insanlara rast gəlməmişəm. Etiraf edim ki, özüm də bu cür deyiləm. Azərbaycanlıları gördükdən sonra fikirləşirəm ki, gərək öz üzərimdə iş aparam. Gərək insanlara qarşı belə diqqətli olmağı bacarasan. Bakıya qısamüddətli səfərim ilk növbədə mənim özüm haqqımda fikirlərimi dəyişdi. Şəhəriniz də çox gözəldir. Binalar, küçələr, Dənizkənarı bulvar xoşuma gəldi. Konfransdan sonra Bakının görməli yerlərini gəzmək üçün vaxtım olur. Alov qüllələrinin qarşısında dayanıb saatlarla Xəzər dənizinə tamaşa edirəm. Bakının gözəlliyini seyr etdikcə qəlbimə rahatlıq gəlir. Fikirləşirəm ki, nə yaxşı COP29 Azərbaycanda keçirildi və mən Bakıya gəlib bu möhtəşəm mənzərəni gördüm. Həm də bu ölkənin vətəndaşları haqqında kifayət qədər yüksək təsəvvür yarandı.

Azərbaycan zəngin ölkədir. Düşünürəm ki, COP29-un ölkənizdə keçirilməsi əməkdaşlıq üçün yeni imkanlar yaradacaq. İnanmıram ki, COP29-da iştirak edən hər hansı bir ölkənin təmsilçisi öz ölkəsinə döndükdən sonra respublikanız haqqında xoş fikir söyləməsin. Əminliklə qeyd edim ki, Amerikaya qayıtdıqdan sonra mətbuatda Azərbaycan haqqında yazılar dərc etdirib öz gözəl təəssüratımı bölüşəcəyəm.

Pekindən gəlmiş Zixi Zhanq deyir ki, Azərbaycanın qədim İpək yolunun üstündə yerləşməsi haqqında məlumatım olsa da, insanlarının ipəkdən də incə ürəyə sahib olduqlarını bilmirdim. Deyə bilərəm ki, həm ölkənizlə, həm də xalqınızla fəxr etməyə tam haqqınız var.



Bakı Şərq və Avropa memarlığının ən gözəl ornamentlərini özündə əxz etmiş şəhərdir. Burada klassik şəhər mədəniyyətinin elementləri ilə müasirlik elə tamamlanıb ki, adam buna heyran olmaya bilmir. Bakını görüb düşündüm ki, qədim keçmişlə bugünkü müasirlik sanki burada əl-ələ verib.

Çox dadlı mətbəxiniz var. Yeməkləriniz çox dadlıdır. Konfransın açılışında incəsənət ustalarının çıxışlarını dinlədim. Musiqiniz çox gözəldir. Hələ də onun sehrindən çıxa bilməmişəm desəm, şübhə etməyin. Bir məsələni də qeyd edim ki, COP29-un ölkənizdə keçirilməsi, dünyanı narahat edən qlobal bir məsələnin Azərbaycanda müzakirə edilməsi ölkənizə verilən yüksək dəyərdir və bu, dünyanın Azərbaycanın yürütdüyü siyasətlə razılaşması deməkdir.

Faktiki olaraq Azərbaycan bu gün Avropanın enerji bazarında söz sahibidir. Ənənəvi enerji mənbəyi kimi karbohidrogen ehtiyatlarının məhdudluğu və ətraf mühitin çirklənməsinin qarşısının alınması dünyada alternativ, bərpaolunan enerji mənbələri hesabına istehsal olunan enerjinin həcminin artırılmasını zəruri edir. Artıq bu istiqamətdə müsbət təcrübə mövcuddur və bir sıra ölkələrdə günəş, külək və digər təmiz və bərpaolunan enerji mənbələrindən istifadə ildən-ilə genişlənir.

Öyünə bilərsiniz ki, ölkəniz bərpaolunan enerji mənbələri üzrə yüksək potensiala malikdir. Heç şübhəsiz ki, Azərbaycan yaxın gələcəkdə dünya bazarında "yaşıl enerji" nəqlinə görə də özünəməxsus yer tutacaq.

Braziliyalı Sinara Leandra söhbətə özü haqqında məlumatla başladı:



- Braziliyanın Turizm Nazirliyində çalışıram. COP29-da Braziliyanı təmsil edən nümayəndələrdən biriyəm. COP30 Bakıdan sonra Braziliyada keçiriləcək. Ölkənizlə əməkdaşlıq edirik. COP kimi möhtəşəm bir tədbirə evsahibliyi etməyin çox ciddi məsuliyyəti var. Bunu başa düşdüyümüz üçün də Bakının təcrübəsini öyrənmək fikrimiz var. Bəri başdan deyim ki, tədbir çox mütəşəkkil təşkil edilib. Dünyanın elə bir ölkəsi yoxdur ki, burada iştirak etməsin. Ölkənizə COP29 tədbirindən kənar turistlər də gəlib. Hər hansı bir çatışmazlıq, hotel, qidalanma, nəqliyyat problemi yoxdur. Bu, ölkənizin mükəmməl olaraq beynəlxalq tədbirlərə evsahibliyi etmək təcrübəsinin olduğu ilə əlaqədardırsa, digər tərəfdən iqtisadi imkanlarınızın göstəricisidir.

Müşahidələrimiz göstərir ki, Azərbaycan həm də təbii gözəlliyi ilə diqqətçəkən ölkədir. Tarixi abidələrlə zəngindir. Qiymətlərin ucuz olması da turistlər üçün əlverişlidir. Bütün bunları nəzərə alaraq Azərbaycanla turizim sahəsində geniş əməkdaşlıq etmək niyyətimizi bəyan edirəm.

Bakıda Qız qalasından dənizə tamaşa etməkdən aldığım zövqü söz ilə ifadə edə bilmirəm. Alov qüllələri, Heydər Əliyev Mərkəzi və Ağ şəhərdə də olmuşam.

Ağ şəhər müasir arxitektura baxımından bənzərsizdir. Axşamın qaranlığında evlər, ictimai binalar o qədər gözəl görünür ki, heyranlığımı gizlədə bilmirəm. Bakı haqqında bir kəlmə ilə deyərdim ki, "Bravo"!

Hindistanlı Nikil Siddalinqappa ölkəsində neft şirkətində çalışır. Nikil deyir ki, ölkəmizin gözəlliyi, insanların mehribanlığı, mərhəməti və qayğısı onu heyran edib: "COP29-da ölkəmi böyük bir neft şirkətinin nümayəndəsi kimi təmsil edirəm. Burada bəşəriyyət, insanlıq üçün çox vacib bir məsələ müzakirə edilir. Ən başlıcası odur ki, COP29-un sədrliyi dünyaya sülh çağırışı edir. Bu, çox vacib məsələdir. Əgər belə olsa, insanlar silahların danışmadığı bir dünyada yaşamağın nə qədər gözəl olduğunu hiss edib bəlkə də müharibə etməzlər. Hesab edirəm ki, Azərbaycan bu çağırışla öz ruhunu, düşüncəsini dünyaya nümayiş etdirdi. Bu gün ölkəniz pəncərəsində qaranlığa işıq salan, qaranlıqları aydınlaşdıran bir evə bənzəyir. Elə bir evə ki orada gözəllik, rahatlıq, sevgi, gülüş var.



Gəzdiyim yerlər, insanlarla etdiyim söhbət imkan verir deyəm ki, Bakı təmiz, tarixi bir şəhərdir. Bu torpağın insanları isə həqiqətən öz qonaqpərvərliyi, mehribanlığı və səmimiyyəti ilə adamı özünə bağlayır. Təəssüf edirəm ki, konfrans başa çatacaq, bir neçə gündən sonra Hindistana qayıdacağam. Vaxtım olsaydı, Azərbaycanın bütün şəhərlərini gəzərdim. İndi bu arzumu gerçəkləşdirə bilməsəm də, gələcək planımda ailəmlə birlikdə mütləq ölkənizə gəlib ən gözəl yerləri gəzəcəyəm".

Digər həmsöhbətimiz Fonqoh Eric Kamerundan gəlib. Eric ölkəsinin COP29-da təbiət, təhsil və beynəlxalq əlaqələr üzrə təmsilçisidir. Eric deyir ki, COP29 ölkələrimiz arasında yeni əməkdaşlıq imkanları yaradan bir platformadır: "Azərbaycan bizim üçün çox doğma və dost bir ölkədir. 2020-ci ildə Vətən müharibəsində qələbə xəbərinizi eşidəndə sevincimdən uşaq kimi ağladım. Bu, müharibədə çalınan qələbə yox, İlahi bir zəfər idi. 30 il torpaqlarınız işğal altında qalmışdı. Bu illər ərzində müharibədən əziyyət çəkən insanların başına işğalçılar çox müsibətlər gətiriblər. Biz müharibənin, ədalətsizliyin nə olduğunu öz həyatımızda yaşayan xalqıq. Nəhayət, bu gün ölkəniz dünyada sülh, əmin-amanlıq ölkəsi kimi tanınır. Hesab edirəm ki, ölkələrimiz arasında əlaqələr bundan sonra daha da genişlənəcək. Biz qardaş ölkə olan Azərbaycanla yeni əlaqələr qurmaqda çox maraqlıyıq və sevindiricidir ki, buna nail ola bilmişik.



Ölkənizdə olmaqdan çox məmnunam. Azərbaycanın bütün uğurlu işləri bizi öz uğurumuz qədər sevindirir".

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

COP29 Baku Azerbaijan

# Azərbaycan qlobal tədbirlərin mükəmməl təşkilatçılıq modelini yaradıb










## Qlobal istiləşmə, COP29 və Azərbaycan

XXI əsrin əsas çağırışlarından biri ekoloji tarazlığın təmin edilməsidir. Buraya təbii resursların intensiv istismarının, neft-qaz və kömür hasilatının məhdudlaşdırılması, bərpaolunan enerji növlərinə, "yaşıl və mavi iqtisadiyyat"a üstünlük verilməsi, su ehtiyatlarının səmərəli istifadəsi, karbon qazının həcminin azaldılması, təkrar emal və digər məsələlər daxildir.



Bitkilər planetdəki bütün canlıların həyatının əsasını təşkil edir, üzvi aləm və canlı həyat onlarla başlamışdır. Bitkilər aləmi müşahidə etdiyimiz Yerin görünüşünü yaradan unikal fotosintez prosesi sayəsində günəş işığından birbaşa istifadə etmək qabiliyyətinə malikdir. Yer kürəsini oksigenlə təmin edən və bununla da təkamülün hərəkətverici qüvvəsi rolunu icra edən məhz bitkilərdir. Onlar üzvi maddələrin zəngin ehtiyatı və çox qiymətli sərvətdir. Hər bir regionun bitki örtüyü ərazinin mühit amillərinin fasiləsiz kompleks təsiri nəticəsində daim dəyişikliyə məruz qalır. Bu dəyişikliklər ərazinin fiziki-coğrafi şəraitindən, qlobal istiləşmədən, atmosferin ekoloji balansının pozulmasından asılı olaraq baş verir.

Qlobal istiləşmənin birbaşa floraya, dolayısı ilə insanların sağlamlığına və bütövlükdə canlı ekosistemə təsiri bəşəriyyətin daim diqqət mərkəzindədir.

Texnologiya inkişaf etdikcə qlobal iqlim dəyişikliyi dünya floristlərini və ekoloqları narahat edən əsas problemlərdən biridir. Anomal iqlim dəyişikliyi nəticəsində yaranan təbii fəlakətlərin miqyası ildən-ilə artmaqda davam edir. Qlobal istiləşmənin təsirindən bölgələrdə uzunmüddətli quraqlıq və səhralaşma baş verir, bitki aləmi tamamilə yox olur, ya da azalır, Yer kürəsində ekoloji tarazlıq və enerji balansı pozulur.

Alimlərin fikrincə, kontinental buzlaqların tam əriməsi və suyun istidən genişlənməsi nəticəsində okeanların səviyyəsi indikinə nisbətən 70-80 santimetr artacaq, hazırda milyonlarla insanın məskunlaşdığı sahilyanı yaşayış məntəqələri su altında qalacaq ki, bu da siklonların və antisiklonların illik hərəkət trayektoriyalarının dəyişəcəyinə və iqlim dəyişikliyinin intensivləşəcəyinə, beləliklə, bir çox bitki növünün nəslinin kəsilməsinə səbəb olacaqdır.

Yer kürəsini fəlakətli iqlim dəyişikliyindən xilas etməkdə bitkilərin potensial rolu bəşəriyyətə məlumdur. Lakin son zamanlar dünya ekoloqları, floristləri tərəfindən aparılmış bəzi tədqiqat işləri nəticəsində məlum olmuşdur ki, Yer kürəsinin bitki örtüyü insan fəaliyyəti nəticəsində atmosferə buraxılan karbon qazını əvvəllər düşünüldüyündən daha çox udmaq iqtidarındadır. Tədqiqatçılar müəyyən ediblər ki, XXI əsrin sonunda bitkilər tərəfindən karbon qazının udulması artacaq. İndi karbon dioksidin yarpaqda nə qədər səmərəli hərəkət edə biləcəyini, bitkilərin temperatur dəyişikliklərinə necə uyğunlaşdığını və qida maddələrinin necə paylandığını müəyyən etmək mümkündür.

Uzun illər insanların fəaliyyəti ətraf mühitə geri dönüşü olmayan zərbələr vurmuşdur. Bir neçə il əvvəl bəşəriyyət "bizdən sonra nə olur-olsun" prinsipi ilə yaşayırdı. Xoşbəxtlikdən bu tendensiya dəyişmişdir. Belə ki, ekosistemin sərvətlərinin istismarı təbii sistemlərin bərpasına zərər verməyəcək səviyyədə məhdudlaşdırılır. "Yaşıl iqtisadiyyat"ın inkişafı bunun birbaşa sübutudur. "Yaşıl iqtisadiyyat" insanların təbii ehtiyatlara məsuliyyətli münasibətini nəzərdə tutan iqtisadi inkişaf modelidir. O, rifahın artırılması ilə təbii ehtiyatların qorunması arasında ağlabatan kompromis tapmağa yönəlmişdir.

İnkişaf etmiş ölkələr inkişaf etməkdə olanlara iqlim dəyişikliyinin təsirini azaltmaq və uyğunlaşmaqda kömək etmək üçün maliyyə yardımı toplayırlar. Beləliklə, dünya florasına iqlim dəyişikliyinin təsirini azaltmaq üçün tədbirlər sayəsində bitki növlərini xilas etməyin mümkün olduğunu hər bir insan düşünür.

Sürətli qlobal istiləşməni dayandırmaq, ekstremal hava şəraitini ram etmək, buzlaqların əriməsinin sürətini azaltmaq və biosferi xilas etmək naminə atmosferdən artıq karbonu çıxarmaq üçün zəkalı insanlar çıxış yolu tapmalıdır. Bitki örtüyü canlı ekosistemin tərkib hissəsi kimi daim dəyişikliyə məruz qaldığından insanlar bitkiləri tanımalı, mütəxəssislər yaşadıqları ərazilərin florasının qorunması və bərpası tədbirlərini işləyib hazırlamalıdırlar.

2024-cü il qalıq yanacaq istehsalçısı və ixracatçısı hesab olunan Azərbaycanın BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) evsahibliyi etməyi ilə əlamətdardır. Azərbaycan Respublikasının rəhbərliyi iqlim dəyişikliyi ilə bağlı ciddi tədbirlər görmək strategiyasını nümayiş etdirməyi qarşısına məqsəd qoymuşdur. COP29 ekoloji problemlərin müzakirəsi və həlli üçün birlikdə mühüm addımların atılacağı qlobal forumdur. Bakı iki həftə ərzində dünyanın diqqət mərkəzində olacaq. COP29-un Azərbaycanda keçirilməsi ilk növbədə ölkəmizin iqlim məsələsində üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməsinin etirafıdır. Bundan əlavə, COP29-un Azərbaycanda reallaşdırılması BMT səviyyəsində ölkədə siyasi və iqtisadi sabitliyin tanınmasından xəbər verir. Bu qərar həm də Azərbaycanın "yaşıl enerji" siyasətinə qlobal dəstəyi ifadə edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə 2024-cü il Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib. Neft-qaz ölkəsi olan Azərbaycan "yaşıl enerji" növlərinin yaradılmasını və dünya bazarlarına nəqlini hazırda enerji siyasətinin yeni prioritet istiqaməti kimi müəyyənləşdirmişdir. Bərpaolunan və "yaşıl enerji" əsasında istehsal edilən elektrikin ixracı ölkənin enerji strategiyasında yeni eranın başlanmasına səbəb olub. COP29-un Azərbaycanda keçirilməsi ekoloji, iqtisadi, innovasiya və texnologiya sahəsində nailiyyətlər əldə etməsi üçün geniş imkanlar yaradacaq.

Bu mühüm beynəlxalq tədbirin Azərbaycana verə biləcəyi siyasi və iqtisadi üstünlüklər ölkənin regional və beynəlxalq arenada mövqeyini möhkəmləndirmək baxımından əhəmiyyətlidir. COP29 çərçivəsində Azərbaycan qlobal iqlim dəyişikliyi ilə mübarizədə fəal iştirak edərək, müasir dünyanın qarşılaşdığı əhəmiyyətli problemlərə diqqət çəkmək imkanı qazanır.

COP29-un keçirilməsi siyasi müstəvidə Azərbaycanın beynəlxalq aləmdəki müsbət imicini artırır. Bu proses respublikanın ekoloji siyasətinin, enerji effektivliyinin və sərvətlərin səmərəli idarə olunmasının geniş müzakirəsinə şərait yaradır.

COP29 "yaşıl texnologiyalar"ın transferinə, innovativ layihələrin həyata keçirilməsinə və xarici investorların maraq dairəsinin genişlənməsinə xidmət edir. Nəticədə Azərbaycanın qlobal iqlim siyasətindəki rolu onun iqtisadiyyatını və beynəlxalq əlaqələrini daha da gücləndirir.

***Elşad QURBANOV,***
***BDU-nun Botanika və bitki fiziologiyası kafedrasının müdiri,***
***AMEA-nın müxbir üzvü***













## COP29-un Azərbaycanda keçirilməsi ölkəmizə göstərilən çox böyük etimaddır

### Həyata keçirilən təşkilati tədbirlər sayəsində Bakı konfransı uğurla davam edir

BMT-yə daxil olan ölkələrin 2000-ci ilin sentyabrında qəbul etdiyi "Minilliyin deklarasiyası"nın iqlimin dəyişilməsi, biomüxtəliflik, səhralaşma, meşə və su ehtiyatlarının qorunmasına dair bölmələrində XXI əsrdə baş verəcək qlobal ekoloji böhrana qarşı fəaliyyətlərin optimal strategiyası işlənib hazırlanmışdır.



Bəşəriyyət öz inkişafında elə bir mərhələyə çatmışdır ki, elmi-texniki tərəqqi təbiətə öz mənfi təsirini göstərmiş və təbii sərvətlərdən səmərəsiz istifadə dünya miqyasında əsaslı dəyişikliklər - torpaq, akvatoriyalar, hava, flora və fauna kimi həyat amillərinin çatışmazlığı təhlükəsini yaratmışdır.

Dünya təcrübəsi göstərir ki, təbiəti böhran vəziyyətindən çıxarmaq üçün yeganə həll cəmiyyətin mövcudluğunun əsasını təşkil edən bioloji müxtəlifliyin qorunmasıdır.

Bu problemin həlli insan sivilizasiyası, o cümlədən müstəqil Azərbaycan Respulikası üçün həyati əhəmiyyət kəsb edir. Çünki biomüxtəlifliyin bütövlüyü ekosistemlərin stabilliyini əks etdirir. Biomüxtəliflik azalırsa, təbii ekosistemlərin kütləvi məhv edilməsi prosesi sürətlənir.

Azərbaycan Respublikasını "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi"nə çevirmək istiqamətində intensiv fəaliyyətlər həyata keçirilir. Çirklənmiş ərazilərin bərpası, meşələrin, bitki və heyvanat aləminin qorunması, quru ərazilərdə torpaqların münbitləşdirilərək yaşıllaşdırılması, iqlim dəyişikliklərinin zərərli təsirlərinin azaldılması başlıca fəaliyyət proqramı kimi həmişə diqqət mərkəzindədir. İqlim dəyişiklikləri ilə əlaqədar qarşıya qoyulan problemin həlli isə yalnız dövlət və insanların birgə səyləri ilə mümkün ola bilər.

Azərbaycanın "Qırmızı kitabı"nın I nəşrində nadir, nəsli kəsilmək təhlükəsi altında olmaqla, qorunmasına ehtiyac yaranan 108 növ heyvan və 140 növ bitki, II nəşrində 223 növ heyvan və 300 növ bitki əksini tapmışdısa, III nəşrə 460 növ bitki, 241 növ heyvan, 47 növ göbələk adı daxil edilmişdir.

İlk dəfə olaraq Kiçik Qafqazın şimal-şərq hissəsinin xüsusi mühafizə olunan ərazilərinin (Göygöl Milli Parkı, Eldar Şamlığı Dövlət Təbiət Qoruğu, Qarayazı Dövlət Təbiət Qoruğu, Korçay Dövlət Təbiət Qoruğu) flora biomüxtəlifliyinin 107 fəsilə, 465 cins və 1208 növ, qaya və töküntülərin 34 fəsilə, 106 cins, 187 növdən ibarət olması aşkar edilmişdir.

Çayların iqlim və relyefin qeyri-bərabər paylanmasındakı rolunu nəzərə alaraq, Kiçik Qafqazın şimal-şərq yamacı çay hövzələrinin (Kürəkçay, Şəmkirçay, Qoşqarçay, Zəyəmçay, Gəncəçay, Ağstafaçay) intrazonal bitkiliyi və yarğanların flora biomüxtəlifliyinin inventarlaşdırılması, nadir və məhvolma təhlükəsində qalan növlərin monitorinqi aparılmış, taksonomik strukturu dəqiqləşdirilmiş, bitkiliyin müasir təsnifatı verilərək, genofondun mühafizəsi üçün tədbirlər sistemi işlənib hazırlanmışdır.

COP29 ərəfəsində zəngin tarixi memarlıq və arxeoloji abidələri ilə zəngin olan Qazax rayonu ərazisində yerləşən Damcılı bulağı ilə məşhur olan "Avey" Dövlət Tarix-Mədəniyyət Qoruğunda və Gədəbəy rayonunun Şır-Şır şəlaləsində monitorinqlər aparılmışdır. Ekoloji tarazlığın qorunması və iqlimin tənzimlənməsində bitki örtüyünün rolu açıqlanmış və bu istiqamətdə təbliğat işlərinin aparılması məqsədəuyğun hesab edilmişdir. Məşhur Azərbaycan şairi Səməd Vurğun Damcılını dünyanın 8-ci, Azərbaycanın birinci möcüzəsi adlandırmışdır. Qazax rayonu ərazisində zəngin tarixi memarlıq və arxeoloji abidələri ilə zəngin, 200 min il tarixə malik qədim Daş dövrünün yadigarı olan möcüzəli Damcılı mağarası və Gədəbəy rayonu ərazisində Haçaqaya dağında yerləşən Şır-Şır şəlaləsi COP29-a gələn qonaqlar üçün ekskursiya marşrutu hesab oluna bilər.

AMEA-nın Biologiya və Tibb Elmləri Bölməsi və ARETN Molekulyar Biologiya və Biotexnologiya İnstitutunun birgə təşkilatçılığı ilə 14-15 oktyabr 2024-cü ildə "İqlim dəyişikliyi və ekosistemlərin davamlılığı: Təhdidlər, çağırışlar, həllər" mövzusunda elmi sessiyada giriş sözü ilə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, AMEA-nın vitse-prezidenti, ARETN Molekulyar Biologiya və Biotexnologiya İnstitutunun baş direktoru akademik İradə xanım Hüseynova "Qlobal iqlim dəyişiklikləri dövründə davamlı inkişaf naminə qlobal və milli çağırışlar" mövzusunda geniş məruzə ilə çıxış etmişlər. Sessiya bütövlükdə COP29, "Yaşıl dünya naminə həmrəylik ili"nin tələbləri səviyyəsində keçmişdir.

Azərbaycanda iqlim dəyişmələrinin torpaqların deqradasiyasına təsirinin qiymətləndirilməsi, Azərbaycanın su ehtiyatları - müasir vəziyyət, biotəhlükəsizlik problemləri və onların həlli yolları, iqlim dəyişikliyinin patogenlərin yayılmasına və inkişafına təsiri, iqlim dəyişmələrinin flora və fauna biomüxtəlifliyinə təsiri, COP29: Karbon emissiyasının azaldılmasına elmi baxış, insan sağlamlığında iqlim faktoru, ekosistemlərin biomüxtəlifliyinin dayanıqlılığının qiymətləndirilməsi, qlobal iqlim dəyişmələrinin aqrar sahəyə təsiri, iqlim dəyişmələri dövründə ərzaq təhlükəsizliyi probleminin həllinə yeni yanaşmalar, Xəzərin Azərbaycan sektorunda qlobal iqlim dəyişmələrinin hidrobiontların növ müxtəlifliyinə təsiri və s. məsələlər müzakirə olunmuşdur.

Sessiyada COP29-la əlaqədar iqlim dəyişmələrində ekosistemlərin rolu, davamlılığının qiymətləndirilməsi, biomüxtəlifliyin inventarizasiyası, qorunması, o cümlədən növlərin nəslinin kəsilməsinin qarşısının alınması, genetik müxtəlifliyin qorunması istiqamətində elmi-tədqiqat işlərinin nəticələri və istiqamətləri ümumiləşdirilmişdir.

***Vaqif NOVRUZOV,***
***Gəncə Dövlət Universitetinin kafedra müdiri,***
***AMEA-nın müxbir üzvü***

COP29
Baku
Azerbaijan

# Beynəlxalq media COP29-dan yazır

# "Bakı dünyanı ruhlandırır"

*Ölkəmizin COP29-a da uğurla evsahibliyi etməsi dünya mediasının diqqət mərkəzindədir. Bir sıra beynəlxalq mətbuat orqanlarında yayımlanan məqalələr və reportajlarda qeyd olunur ki, Bakıda keçirilən tədbir qlobal iqlim dəyişikliyi ilə mübarizəyə töhfə verən xüsusi hadisələr və təşəbbüslərlə yadda qalacaq.*

*İtaliyanın və Vatikanın ANSA, "Rai", AGI, "La Repubblica", "Sky TG24", "il Giornale", "Qui Finanza", "il Dolomiti", "Italia Oggi", "il Sole 24 ore", "il Fatto Quotidiano", "AgenSIR", "Roma Sette", "Green and Blue", "Faro di Roma" kimi saytlarının yaydığı materiallarda İtaliyanın Baş naziri Ciorcia Meloninin Bakıda COP29 Liderlər Sammitindəki çıxışında səsləndirdiyi, eyni zamanda Roma Katolik Kilsəsinin rəhbəri Papa Fransiskin sammit iştirakçılarına ünvanladığı müraciətindəki fikirlərə geniş yer verilib.*

**"La Repubblica" qəzetinin** yazısında Ciorcia Meloninin Azərbaycanı sülh naminə iqlim təşəbbüsünün bir hissəsi kimi qiymətləndirilən COP29-un sədri kimi görməkdən məmnunluğunu ifadə etdiyi bildirilib. Baş nazir İtaliyanın təkcə bərpaolunan mənbələrə deyil, həm də təbii qaz, bioyanacaq, hidrogen və karbonun tutulması və saxlanmasına diqqət yetirdiyini deyib. Ciorcia Meloni COP29-da yeni iqlim maliyyəsi hədəfini qəbul etməyin əhəmiyyətini bildirib.

**"Roma Sette" nəşrinin** materiallarında Papa Fransiskin əsas iqlim sammiti olan COP29-un auditoriyasına müraciətində ölkələri yeni maliyyə arxitekturası həyata keçirməyə çağırdığı qeyd olunub. COP29-un inklüziv inkişafa gətirib çıxaran iddialı razılaşma yaradacağına ümidvar olduğunu vurğulayıb. Roma Papası bildirib ki, iqlim dəyişikliyi ilə mübarizədə əlavə gecikmələrə yol verilməməlidir və ətraf mühitin mühafizəsi sülhün qorunması ilə sıx bağlıdır. O deyib ki, bu sammit ən aktual vəzifələrdən biri olan iqlim maliyyəsi üzrə yeni kollektiv kəmiyyətli məqsəd ortaya çıxara bilər: "Ümumi, lakin fərqləndirilmiş məsuliyyətlər və müvafiq imkanlar prinsipi COP29-un işini istiqamətləndirir və Bakı dünyanı ruhlandırır".

**"AgenSIR" nəşri** hazırladığı məqaləni "Bakıda COP29: İnkişaf etməkdə olan ölkələr üçün maliyyələşdirmə və özəl sektor" başlığı altında təqdim edib. Qeyd edilib ki, dünyanın hər yerindən gələn nümayəndələr qlobal temperaturun yüksəlməsinin qarşısını almaq yollarını tapmaq və Paris Sazişi çərçivəsində verilən vədləri yerinə yetirmək ümidi ilə Azərbaycan paytaxtında toplaşıblar. Hazırkı sammit "maliyyə COP-u" adlandırılır, çünki 15 ildə ilk dəfə olaraq inkişaf etməkdə olan ölkələr üçün iqlim fəaliyyətinə dəstək məqsədilə maliyyələşdirmənin həcmi və strukturu araşdırılacaq.

**"Green and Blue" nəşrinin** hazırladığı reportajda isə qeyd edilib ki, COP29 iqlim dəyişikliyi ilə mübarizəyə yönəlmiş siyasətlərin müzakirəsi və həyata keçirilməsi üçün əvəzsiz platformadır. Bakı konfransının iştirakçıları iki həftə ərzində qlobal dekarbonizasiya hədəfi üçün yeni maliyyə resursları barədə müzakirələr aparacaqlar. COP29-un əsas məqsədləri sırasında istixana qazlarının emissiyalarının azaldılması, qlobal istiləşmənin dramatik təsirlərinə uyğunlaşmaqda ən həssas ölkələrə dəstək olmaq üçün yeni maliyyələşdirmə mexanizmlərinin yaradılması var. Konfrans bir çox bölgədə təbii fəlakətlərə təkan verən qlobal temperaturun həyəcanverici artımına cavab vermək üçün unikal fürsət kimi qiymətləndirilib.

Rumıniya, Bolqarıstan, Xorvatiya və Yunanıstanın aparıcı mətbu orqanları Azərbaycanda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasını (COP29) diqqət mərkəzində saxlamaqda davam edir.




Rumıniyanın **AGERPRES milli xəbər agentliyi, "Bursa" qəzeti, "Mediafax" xəbər agentliyi, "Dariknews" xəbər portalı, BTV televiziya kanalı, "Dir.bg" xəbər portalı, Yunanıstanın "Capital", "Eretikos", "Sofokleous" xəbər portalı, Xorvatiyanın "Vecerniy" xəbər portalı** və digər televiziya kanalları, radio və qəzetlər yaydığı materiallarda COP29 tədbirinin Azərbaycanda yüksək səviyyədə təşkil olunduğunu vurğulayıblar.

Rumıniyanın **DİGİ24 televiziyasının** hazırladığı reportajda tədbirin özəlliyi və ölkəmiz barədə geniş məlumatlar verilib. COP29 çərçivəsində mühüm qərarların qəbul olunacağı qeyd edilib. Rumıniyanın energetika naziri Sebastian Burduja, Yunanıstanın Baş naziri Kiriakos Mitsotakis, Bolqarıstanın Prezidenti Rumen Radev və Xorvatiyanın Baş naziri Andrey Plenkoviçin konfransda çıxışlarına və müsahibələrinə xüsusi yer ayrılıb və mövzu diqqətlə araşdırılıb.

Bolqarıstanın **BTA milli xəbər agentliyinin** nəşr etdiyi xəbərdə isə Azərbaycan və Bolqarıstan prezidentlərinin iştirakı ilə "SOCAR və "Asarel Energy" arasında Birgə İnkişaf Sazişi" imzalanması barədə məlumat verilib.

Yunanıstanın **"İmidones" xəbər portalı** BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycanda işə başlaması ilə bağlı reportaj hazırlayıb. Sayt iqlim dəyişmələri ilə mübarizə üzrə konkret addımları müzakirə etmək üçün dünyanın hər yerindən dövlət və hökumət başçılarının, alimlərin, ekoloji fəalların Bakıda toplaşdığını qeyd edib: "Tarixi COP29-un gündəliyinə atmosfer emissiyalarının qlobal şəkildə azaldılması, iqlim dəyişikliyinə uyğunlaşma addımları və "iqlim ədalətinin" təmin edilməsi kimi mühüm mövzular daxildir. Ekoloji böhrana qarşı müqavimət göstərməyə getdikcə daha az vaxt qalıb, ona görə də beynəlxalq ictimaiyyət Bakıdakı müzakirələrdən maksimum nəticə gözləyir".

Xorvatiyanın **"Jutarni List" portalı** isə Azərbaycan Prezidenti İlham Əliyevin COP29-da çıxışını geniş yayıb. Xüsusilə Prezident İlham Əliyevin Liderlər Sammitinin açılış mərasimindəki çıxışında COP29-a evsahibliyi edən ölkəmizə ünvanlanan tənqidlərə sərt cavab verdiyi vurğulanır. Dövlətimizin başçısının təbii sərvətlərin Tanrının bəxş etdiyi hədiyyə olduğunu vurğuladığı bildirilir.

**"Dnevnik" xəbər portalı** isə dərc etdiyi məqalədə vurğulayıb ki, Azərbaycanda COP29 İqlim Sammiti açılıb. İkihəftəlik iş müddətində konfransda iştirak edən ölkələr xüsusilə iqlim dəyişmələri ilə mübarizə üçün maliyyənin inkişaf etmiş ölkələr tərəfindən artırılıb-artırılmayacağına qərar verməli olacaqlar. COP29 rezonanslı bəyanatlarla başlayıb. COP29-un prezidenti Muxtar Babayev deyib ki, dünya "fəlakət yolundadır" və Bakı sammiti bütün dünyada iqlim məqsədləri üçün "həqiqət anı"nı təmsil edir.

Məqalədə o da qeyd olunub ki, COP29-un gündəminin ən mühüm bəndi iqlim proqramlarını maliyyələşdirmək üçün inkişaf etməkdə olan ölkələrlə ildə bir trilyon dollara qədər vəsaitin ayrılması barədə razılığa gəlməkdir. Hazırda belə maliyyələşdirmənin həcmi 100 milyard dollardır və onun müddəti bu il başa çatır. 2020-ci ildən bəri zəngin və ya inkişaf etmiş ölkələr bu öhdəlikləri müntəzəm yerinə yetirmirlər.

***Hazırladı:***
***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***
























# COP29-da AZƏRBAYCAN HAVASI






































COP29 Baku Azerbaijan

# "Azərenerji" və "Qırğızıstan Milli elektrik şəbəkəsi" rəhbərlərinin görüşü olub



**COP29 çərçivəsində "Azərenerji" ASC-nin rəhbəri Baba Rzayevin "Qırğızıstan Milli elektrik şəbəkəsi" ASC-nin rəhbəri Altınbek Rısbekovla görüşü olub.**

"Azərenerji" ASC-nin Mətbuat xidmətindən verilən məlumata görə, görüşdə Azərbaycan və Qırğızıstan enerji sistemləri arasında əməkdaşlıq perspektivləri, yeni texnologiyaların istismarı və bərpaolunan enerji mənbələrinin enerjisistemə inteqrasiyası təcrübəsi sahəsində əməkdaşlıq məsələləri müzakirə edilib.

# Şirvandakı "Cənub" Elektrik Stansiyasının bir bloku hidrogenlə çalışacaq

## "Azərenerji" və "GE Vernova" şirkəti arasında sənəd imzalanıb






COP29 çərçivəsində "Azərenerji" ASC-nin rəhbəri Baba Rzayev və "GE Vernova" şirkətinin Avropa, Yaxın Şərq və Afrika üzrə Qaz Enerjisi istiqamətində prezidenti və baş icraçı direktoru Cozef Anisin iştirakı ilə "yaşıl zona"da tədbir keçirilib.

Tədbirin əsas mövzusu "GE Vernova" şirkəti tərəfindən "Azərenerji" ASC-nin Şirvan şəhərində yerləşən "Cənub" Elektrik Stansiyasının qaz turbinlərindən birinin 100 faiz hidrogen yanacağı ilə işləməyə keçirilməsi layihəsi olub.

Qurumun Mətbuat xidmətindən verilən məlumata görə, tədbirin yekunu olaraq, "Azərenerji" ASC-nin rəhbəri Baba Rzayev və "GE Vernova" şirkətinin səlahiyyətli nümayəndəsi Cozef Anis arasında sözügedən layihə ilə bağlı sənəd imzalanıb.

OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

"AZƏRBAYCAN" qəzetinə
2024-cü il üçün abunə yazılışı davam edir!

Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

1 illik -187,20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat
6 aylıq - 93,60 (doxsan üç manat altmış qəpik) manat
3 aylıq - 46,80 (qırx altı manat səksən qəpik) manat
1 aylıq - 15,60 (on beş manat altmış qəpik) manat




Hörmətli oxucular!

Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (Tel.: (012) 539-59-33) zəng vura bilərsiniz.

# Şuşa şəhərinin növbəti təqdimatı Lyublyanada keçirilib



Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin İcraçı direktoru Tural Novruzov, Azərbaycan Respublikasının Avstriya Respublikasındakı səfirliyinin müşaviri Fərid Vəliyev, Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin əməkdaşı Tural Verdiyev və qoruğun məsul əməkdaşı Səmayə Məmmədova 13-15 noyabr tarixlərdə Sloveniyanın Lyublyana şəhərində keçirilən Tarixi Şəhərlər Liqasının (TŞL) 19-cu Dünya Konfransında iştirak məqsədilə bu ölkəyə səfər ediblər.

Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsindən AZƏRTAC-a bildirilib ki, səfər çərçivəsində TŞL-nin Baş katibi Shibata Shigenori və Sloveniyanın Lyublyana şəhərinin meri Zoran Yankoviçlə görüşlər keçirilib. Konfrans çərçivəsində Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin İcraçı direktoru Tural Novruzovun təqdimatı əsasında iştirakçı ölkələrə Şuşanın əsl tarixi simasının, ənənələrinin və qədim mədəni abidələrinin bərpası, tarixi-mədəni irsinin qorunmasının mühüm əhəmiyyəti, işğal dövründə ermənilər tərəfindən törədilən vandallıq barədə ətraflı məlumat verilib.

Qeyd edilib ki, hazırda Şuşada geniş abadlıq və quruculuq, yenidənqurma işləri aparılır, yeni infrastruktur obyektləri yaradılır, şəhərin dünya ictimaiyyətinə tanıdılması istiqamətində bir sıra beynəlxalq səviyyəli tədbirlər keçirilir.

# Mingəçevirin 76 yaşı yeni yaşıllıqlar salınması ilə qeyd edilib

Şəhər statusu almasının 76 illiyi münasibətilə Mingəçevirdə silsilə tədbirlər keçirilib. Tədbir Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarətlə başlayıb.



Sonra Heydər Əliyev prospektində yerləşən iki xiyabanın yenidən qurulmasından sonra açılışları olub. 1 hektar ərazisi olan xiyabanda sakinlərin istirahəti üçün hər cür şərait yaradılıb - yeni oturacaqlar qoyulub, kölgəliklər təmir olunub, fəvvarə yenidən inşa edilib, velosiped xətti salınıb, tamet plitələr döşənib, müasir işıqlandırma sistemi, idman qurğuları, attraksionlar quraşdırılıb. Dama, nərd və şahmat oyunları üçün də sahə yaradılıb. Həmçinin yaşıllıq zolaqları genişləndirilib, həmişəyaşıl ağac tingləri, dekorativ gül kolları əkilib.

Şəhər Bələdiyyəsinin maliyyə dəstəyi ilə yenidən qurulan digər xiyabanda görülən işlər də gözoxşayır. Burada da yaşıllıq zolaqları artırılaraq 2000-ə yaxın rəngarəng dekorativ gül kolları və həmişəyaşıl ağac tingləri əkilib, oturacaqlar və kölgəliklər təmir edilib, xiyabanın piyada zolağının hər iki tərəfinə təbii ot örtüyü döşənib, uşaqların əylənməsi üçün müxtəlif heyvan və quş heykəlləri qoyulub və başqa işlər görülüb.

İctimaiyyət nümayəndələri qarşısında çıxış edən şəhər icra hakimiyyətinin başçısı İlham İsmayılov "Şəhər günü" münasibətilə sakinləri təbrik edib, Mingəçevirin abadlaşmasında, yenilənməsində xidmətləri olan hər kəsə minnətdarlığını bildirib. Şəhərin ilk qurucularını xatırlayan, Ulu Öndər Heydər Əliyevin Mingəçevirin inkişafındakı xidmətlərindən danışan ŞİH-in başçısı Prezident İlham Əliyevin şəhərə göstərdiyi diqqət və qayğıdan söz açıb.

Tədbirin ikinci hissəsi axşam saatlarında Mingəçevir Dövlət Dram Teatrında davam edib. Ümummilli Lider Heydər Əliyevin və şəhidlərin xatirəsi anıldıqdan və Dövlət Himni səsləndirildikdən sonra çıxış edən ŞİH-in başçısı Mingəçevirin yaranma tarixindən, ilk quruculuq illərindən, şəhərin pillə-pillə yüksəlməsindən, genişlənməsindən danışıb. Şəhərin müasir dövrdəki inkişaf mərhələsindən söz açan İ.İsmayılov Prezident İlham Əliyevin bilavasitə göstərişi ilə həyata keçirilən tədbirlərə toxunaraq bildirib ki, Mingəçevirdə sakinlərin arzu və istəyinə uyğun yeni park və xiyabanlar yaradılır, məhəllələr abadlaşır, nümunəvi istirahət məskənləri, idman meydançaları salınır, yaşıllıq zolaqları genişlənir.

Sonra Milli Məclisin deputatı Aydın Mirzəzadə çıxış edərək həmyerlilərini təbrik edib, onlara xoş arzularını çatdırıb.

Mingəçevirin inkişafındakı xidmətlərinə görə bir qrup şəxsə ŞİH-in Fəxri fərmanları təqdim olunduqdan sonra şəhərin incəsənət ustaları konsert proqramı ilə çıxış ediblər.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı:**
**www.azerbaijan-news.az**

## ALLAH RƏHMƏT ELƏSİN!

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı partiyanın İdarə Heyətinin üzvü, Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımova atası

**ELDAR QASIMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Vaqif Həsənov və Ağdam Rayon İcra Hakimiyyəti Aparatının kollektivi Nizami Sadıqova qardaşı

**YAŞAR SADIQOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bəxtiyar Sadıqov Nizami Sadıqova qardaşı

**YAŞAR SADIQOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyətinin rəhbərliyi və kollektivi Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımova atası

**ELDAR QASIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov, komitə sədrinin müavini Rəşad Mahmudov və komitə üzvləri Məlahət İbrahimqızı, Kamaləddin Qafarov, Günay Əfəndiyeva, Müşfiq Məmmədli, İlham Məmmədov, Soltan Məmmədov, Anatoliy Rafailov və Pərvanə Vəliyeva Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımova atası

**ELDAR QASIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Milli Məclisinin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımova atası

**ELDAR QASIMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Ağstafadan Seymur Orucov Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımova atası

**ELDAR QASIMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin rəhbərliyi və kollektivi Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımova atası

**ELDAR QASIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin Regional Su və Meliorasiya Xidmətinin rəhbərliyi və kollektivi meliorasiya və su təsərrüfatı sahəsində uzun müddət xidmət göstərmiş respublikanın Əməkdar mühəndisi, Prezident təqaüdçüsü

**NADİM HÜSEYN OĞLU QAZIBƏYOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru professor Ədalət Muradov və universitetin kollektivi Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımova atası

**ELDAR QASIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının kollektivi Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımova atası

**ELDAR QASIMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Lökbatan Tibb Mərkəzinin direktoru, tibb elmləri doktoru, professor Elçin Hüseynov Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımova atası

**ELDAR QASIMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi cəmiyyətin əməkdaşı Maykl Namazova atası

**FAİQ NAMAZOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin şöbə müdiri Əhməd Həsənova qardaşı

**CEYHUN HƏSƏNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

COP29 Baku Azerbaijan

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4218
Sifariş 2610

Qiyməti 60 qəpik